**AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu**
**UNİFEM Təşkilatının Azərbaycan nümayəndəliyi**

# QENDER. DEMOKRATİYA. SÜLH MƏDƏNİYYƏTİ, TƏHSİL

**II respublika elmi-praktiki konfransının materialları** (22 iyun 2005-ci il)

**BAKI – 2005**

Məqalələr toplusu AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun Elmi Şurasının «5 » oktyabr 2005-ci il tarixlı iclasında müzakirə edilmiş və çara məsləhət görülmüşdür (saylı protokol)

Qender. Demokratiya. Sülh mədəniyyəti. Təhsil. II respublika elmi-praktiki konfransının MATERİALLARI (Qender kitabxanasının 10 -cu buraxılışı). Bakı, «Elm» nəşriyyatı – 2005, səh.

Nəşr UNİFEM Təşkilatının Azərbaycan nümayəndəliyi maliyyə dəstəyi ilə həyata keçirilmişdir

## MÜNDƏRİCAT

AMEA Fəlsəfə və siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun Fəlsəfənin yeni istiqamətləri və qender problemləri şöbəsi..........

«Qender. Demokratiya. Sülh mədəniyyəti. Təhsil»- II respublika elmi-praktiki konfransı ..............................................

Yusif Rüstəmov. Qender mədəniyyəti – dünən, bu gün və sabah.........................................................................................

Zəhrə Quliyeva. Qadın problemlər üzrə Dövlət Komitəsinin fəaliyyəti ........................................................................
Rəna İbrahimbəyova. «Qender təhsilinin psixoloji problemləri» ..................................................................
Gülşən Paşayeva. Azərbaycanda qadın hüquqları məsələsi .......
Елена Касумова. Преподавание культуры мира в высшей школе Азербайджана
Rəna Mirzəzadə. Qender mədəniyyətinə nəzəri baxış. ..............
Lalə Mövsümova. Qadın məsələsinə tarixi baxış .......................
Ph.d. Rauf Mamedov. The role of the religious liberty of azeri women in the socio-political life ........................................
Rauf Məmmədov. Qenderin sosiomədəni aspektləri ..................
Həcər Qasımova ....................................................................
Zeynəddin Şabanov. Milli mentalitetin qender stereotipləri .........
Rabil Mehtiyev. Transformasiya şəraitində qadın problemi..........
Nəzakət Salmanova. Ailə və nikah probleminin bəzi məsələləri ........................................................................
Mahrux Nəcəfli. Qender tədqiqatları- «cinslərin fəlsəfəsi» kimi ..........................................................................
Elmira Təhməzova. Müasir Azərbaycanda qadın problemi..........
Gülsüm Xalafova. Zorakılığın qender aspekti ............................
Günel Ələsgərova. Yaxın Şərq ölkələrində qadın hüquqları və problemləri ........................................................................
Н. Зульфигарова. Актуальные проблемы гендерного равноправия в современном азербайджанском обществе……
Xosrov Orucov. Milli şüurun formalaşmasında demokratik institutların rolu……………………………………………
Qender. Demokratiya. Sülh mədəniyyəti. Təhsil" elmi-praktiki konfransının. Qərar Layihəsi ........................................

**AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun Fəlsəfənin yeni istiqamətləri və qender problemləri şöbəsi**

Fəlsəfə və Hüquq İnstitutunda «Fəlsəfənin yeni istiqamətləri və qender tədqiqatları» sektoru Azərbaycan Elmlər Akademiyası Prezidiumunun 18 Dekabr 1998 tarixli qərarıyla yaradılıb. Buna qədər institutda bilavasitə direktor Ə.Abasovun səyi nəticəsində «Qender tədqiqatları» qrupu(rəhbəri Rəna Mirzəzadə olmuşdur) fəaliyyət göstərmişdi. Daha sonra qrup sektora və genişlənərək yeni təsisata-AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun şöbəsinə çevrildi. Şöbənin müdüri fəlsəfə elmləri doktoru, professor Əli Abasovdur.

İnstitutun bu şöbəsinin elmi-araşdırma fəaliyyəti lap əvvəldən dünyada qloballaşma meylinin gücləndiyi bir vaxtda keçid dövrü yaşayan cəmiyyət və dövlətlərdə baş verən sosiomədəni və siyasi prosesləri şərh edən yeni fəlsəfi konsepsiya və paradiqmaların işlənməsi və tətbiqinə yönəlib. Tədqiqatın bu rakursunun konkretləşməsi postsovet ölkələri təcrübəsi, xüsusən də totalitarizmdən demokratiyaya, bazar münasibətləri, hüquqi dövlət və vətəndaş cəmiyyətinə doğru mürəkkəb transformasiya dövrü yaşayan Azərbaycanın nümunəsində gerçəkləşdirilib. Bütün bu proseslər Azərbaycanın tarixi özəlliklərini nəzərə almaqla şərq və qərb cəmiyyətləri dəyərlərinin qarşılıqlı təsiri kontekstində, onların etnokonfessional determinasiyası strukturunda araşdırılıb.

Şöbədə qender problemlərinin konkret tədqiqat metodologiya və konsepsiyası, onun nəzəri əsasları işlənib, maarifləndirmə fəaliyyətinin istiqamətləri müəyyənləşdirilib. Bu gün tam əsasla iddia etmək olar ki, respublikada öz yolu, ənənəsi olan xüsusi Azərbaycan Qender Tədqiqatları Məktəbi formalaşıb. Onun ideya konseptləri (anlayışları) bir neçə müddəa ətrafında cəmlənib. Birinci, feminist və qender tədqiqatlarının predmet və obyekti bir-birindən fərqləndirilir. Bunula bağlı olaraq İkinci, qender təkcə idrakda ən yeni istiqamətlərlə yox, həm də müasir demokratiya və humanizmin siyasi praktikasıyla qarşılıqlı əlaqədə araşdırılır. Doğrudan da bütün bu istiqamətlər demokratiyaya yeni baxışı birləşdirir. Çünki onlar bütövlükdə plüralizm metodu və

dünyanın postmodernist görümünə əsaslanaraq, demokratik prinsiplərin «ifadəçiləri»nə çevriliblər. Bununla yanaşı onlar insanı yaradıcı seçim imkanından məhrum edən totalitar və avtoritar təfəkkürün bütün məhdudluqları və dar çərçivəsini uğurla sərgiləyirlər. Onlar məcmu şəkildə yeni şüur və yeni təfəkkürün əsasını qoyur və təkcə elmdə yox, sosial həyat praktikasında da demokratik prinsiplərin səmərəliliyini, vətəndaş cəmiyyəti qurmanın vacibliyini, hüquqi dövlətin doğruluğunu, qeyri-formal hərəkat və QHT-lərin yaradıcı azadlığının önəmini təsdiq edir. Üçüncü, qender tədqiqatları sadəcə qadınları kişi ağalığından azad etməyə yönəlmiş konsepsiyalar deyil, daha çox dünyagörüşündə «demokratizm»in bir formasıdır. O, insan cəmiyyətinin bütün üzvləri, xüsusən öz hüquqlarını məhdud müdafiə imkanlarına malik azlıqların haqlarını nəzərə almağa səsləyir. Bu mənada qender tədqiqatlarının siyasi aspekt böyük əhəmiyyət qazanır: kölə halına salınmış qadın rolunda ayrıca xalq, ölkə, hətta ölkələr qrupu çıxış edə bilər. Təsadüfi deyil ki, bu gün qender tədqiqatları milli, irqi, kulturoloji, konfessional səviyyədə geniş ümumiləşdirmə xarakteri alıb. O, qadın hüququ uğrunda partiya metodlarını təkrarlayan sadə siyasi mübarizə forması deyil. Milli, bəşəri dəyərləri sintezləşdirən harmonik, mənəvi, bütöv cəmiyyət quruculuğu uğrunda ikili standartlara son qoymağa çağıran demokratiya uğrunda mübarizədir.

«Fəlsəfənin yeni istiqamətləri və qender problemləri» rəsmi dövlət İnstitutunda, hakimiyyət dairələrində qender problemiylə bağlı Azərbaycanda yaradılmış ilk şöbədir. Onun əsas fəaliyyət istiqamətlərindən biri də bu işdə dövlət və qeyri-hökumət təşkilatlarının birgə fəaliyyətini təşkil etməkditr. Eyni zamanda şöbə əməkdaşları «Qender və İnsan Hüququ Araşdırma birliyi» qeyri-hökumət təşkilatında da respublika üzrə praktiki treninq, seminar, konfrans dəyirmi masalar keçirirlər. Şöbədə qenderlə bağlı geniş elmi araşdırma işləri aparılır. Mövcud olduğu 6 il ərzində burada qenderlə bağlı bir neçə məqalələr toplusu, regionda qender problemilərinə həsr olunmuş ilk Beynəlxalq elmi-populyar «Qenderşünaslıq» jurnalı (Təsisçi R.İbrahimbəyova, baş direktor Ə.Abasov, baş redaktor R.Mirzəzadə, Elmi məsləhətçi Z.Quluzadə), 1998-ci il dekabrda Zaqulba Gənclik Mərkəzində «Qızların mənəviyyatı» adlı elmi-

praktik konfransı keçirilib. Respublikada qenderə həsr olunmuş 1999-cu ildə ilk dərslik («Qender tədqiqatları» «Qenderə giriş» və 2004-cü ildə (müəlliflər- Əli Abasov və Rəna Mirzəzadə), ali təhsil müəssisələri üçün qenderin tədrisi üzrə tədris proqramları (Z.Quluzadə, R.İbrahimbəyova, Ə.Abasov, R.Mirzəzadə, S.Adıgözəlova) tərəfindən həyata keçirilib və eyni adlı məcmuə nəşr olunub. 12 fevral 1998-ci ildə şöbə və Birilk BMT İP-nın «Qender İnkişafda» qurumu ilə birgə «Qender: qadın probleminin yeni mərhələsi» mövzusunda Respublikada ilk elmi-praktik konfrans keçirib və eyni adlı kitab nəşr edib. 16 İyul 2004-cü ildə Qadın Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə «Təhsildə qender bərabərliyi» respublika konfransı keçirib.2005-ci il 22 iyunda Qender probleminə həsr olunmuş «Qender. Demokratiya.Sülh mədəniyyəti. Təhsil» mövzusunda respublika konfransı keçirib. Şöbədə 19 nəfər çalışır. Qender üzrə əsas araşdırma istiqamətlərinə gəlincə, bunlar aşağıdakılardır: Qender, feminizm: nəzəriyyə, tarixi (Əli Abasov, Rəna Mirzəzadə, Mahrux Nəcəfli);

Qender siyasətdə və hakimiyyətdə (Əli Abasov, Rəna Mirzəzadə, Mətləb Mahmudov, Zeynəddin Şabanov);

Qender və etnik konfliktlər (Əli Abasov, Rəna Mirzəzadə Həcər Qasımzova, Gülsüm Xalafova, Nurlan Əliyev, Hüseyn İbrahimov);

Qender və ailə (Lalə Mövsümova, Rabil Mehtiyev, Nəzakət Salmanova);

Qender mədəniyyətdə, ədəbiyyatda (Gündüz Sarıyev, Rauf Məmmədov, Elmira Təhməzova, Qüdsiyyə Əliyeva).

## «Qender. Demokratiya. Sülh mədəniyyəti. Təhsil»- II respublika elmi-praktiki konfransı

22 iyun 2005 tarixdə AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu «Fəlsəfənin yeni istiqamətləri və qender tədqiqatları» şöbəsinin təşəbbüsü və təşkilatçılığı ilə «Qender. Demokratiya. Sülh mədəniyyəti. Təhsil» mövzusunda ikinci respublika elmi-praktik konfransı keçirilmişdir. Qeyd edək ki, qender probleminə həsr olunmuş ilk elmi-praktik konfrans da

1998-ci ilin fevralın 12-də AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunda (o vaxtlar Fəlsəfə və Hüquq İnstitutu) keçirilmişdi. Tədbirdə Respublika ictimaiyyətindən problemlə birbaşa bağlı bir çox dövlət qurumu, Milli Məclis nümayəndələri (millət vəkilləri Rəbiyyət Aslanova, Gülər Əhmədova, Afət Xanbabayeva), Qadın problemləri üzrə Dövlət Komitəsi (sədr Zəhra Quliyeva, Solmaz Əliyeva), Ombudsman Elmira Süleymanova, Təhsil nazirinin müavini İradə Hüseynova, akademik Urxan Ələkbərov, Konstitusiya məhkəməsinin şöbə müdiri Dürdanə Məmmədova, AR Nazirlər Kabineti «Elm, mədəniyyət, təhsil və sosial problemlər» şöbəsinin müdir müavini psx.e.n. dosent Rəna İbrahimbəyova, digər institut əməkdaşları və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etmişlər.

Konfransı giriş sözü ilə AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun direktoru f.e.d, prof. Y.Rüstəmov açaraq bütün dünyada, o cümlədən Azərbaycanda qender problemlərinin aktuallığından və bu sahədə «Fəlsəfənin yeni istiqamətləri və qender tədqiqatları» şöbəsinin gördüyü işlərdən, institutun problemlə bağlı işlərindən ətraflı məlumat verdi.

«Fəlsəfənin yeni istiqamətləri və qender tədqiqatları» şöbəsinin müdiri f.e.d. Ə.Abasovun «Azərbaycanda qender tədqiqatları» mövzusunda məruzə çıxışı 1998-ci ildən bəri ötən dövrə hesabat xarakteri daşıyırdı.

O, birinci- 1998-ci il konfransından ötən zamanda Respublikada qender sahəsində görülən işlərdən, bu sahədə qarşıya çıxan problemlərdən danışdı. Dünyada öz yolu, ənənələri olan Azərbaycan qender məktəbinin formalaşması, onun həyata keçirdiyi işlərdən və şöbənin ən son planlarından biri- Azərbaycanın qender xəritəsinin tərtibi ilə əlaqədar məlumat verdi.

AR Nazirlər Kabineti «Elm, mədəniyət, təhsil və sosial problemlər» şöbəsinin müdir müavini psx.e.n, dosent Rəna İbrahimbəyova «Qender təhsilinin psixoloji problemləri» mövzusunda çıxış edərək, qenderin müxtəlif səviyyələrdə anlamı, təhsildə vəziyyəti məsələsinə toxundu.

Konfransda k.e.n. UNİFEM nümayəndəsi Gülşən Paşayeva da çıxış etmişdir.

Azərbaycan Qender İnformasiya Mərkəzinin direktoru, t.e.n. dosent Yelena Qasımova «Sülh mədəniyyəti kursunun tədris proqramlarına tətbiqi» mövzusunda məruzəsində, qloballaşma şəraitində yeni dəyərlərin tədris proqramlarında tətbiqini, dünyada sosial-mədəni inteqrasiya proseslərinin güclənməsinə şərait yaradacağını vurğulamışdır. Məruzələr ətrafında professor Zəhra Quliyeva, professor Elmira Süleymanova, t.e.d. İradə Hüseynova, h.e.d. Bəhram Zahidov, f.e.d. Əbulhəsən Abbasov, h.e.d. Alxas Kişiyev, f.e.d. Rəna Mirzəzadə, f.e.d. Lalə Mövsümova, f.e.n. Rauf Məmmədov, f.e.n. Həcər Qasımova və b. çıxış etmiş, təklif və mülahizələrini bildirmişlər.

Konfrasın gedişində iştirakçılara «Qender. Demokratiya. Sülh mədəniyyəti. Təhsil» mövzusunda sorğu anketi paylanmışdır. Tədbirin sonunda konfransın qətnaməsi qəbul edilmiş və sorğunun ilkin nəticələri təqdim olunmuşdur.

Sonra seksiyalar üzrə Dəyirmi masa keçirilmişdir. Konfrans öz işini iki seksiya: «Qender. Sülh mədəniyyəti. Təhsil» və «Qender bu gün» seksiyaları üzrə davam etdirmişdir. Nəticədə, müzakirə olunan problemlərin ətrafında seksiya rəhbərlərinin hesabatı dinlənilmiş, konfransın Qərar Qətnaməsi qəbul olunmuşdur.

**Yusif Rüstəmov**
*AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor*

## Qender mədəniyyəti - dünən, bu gün və sabah

Yeni postklassik elmin ən aktual sahələrindən biri hesab olunan qender sahəsinin yeni elmi-fəlsəfi kateqoriyaları tədricən formalaşmağa başlayır. Bu mənada AMEA-nın Fəlsəfə və Sosial-Siyisi Tədqiqatlar İnstitutunun «Fəlsəfənin yeni istiqamətləri və qender tədqiqatları» şöbəsinin 1998-ci ildən qender və qadın problemlərinin tədqiqi sahəsində respublikada apardığı araşdırmaların əhəmiyyəti danılmazdır. İnstitutun bu müvafiq

şöbəsi dəfələrlə respublika elmi-praktik konfranslar keçirmiş, problemlə bağlı xüsusi «Qender kitabxanası» seriyasından doqquz məqalələr toplusu və regionda ilk dəfə olaraq ingilis və azərbaycan dillərində «Qenderşünaslıq» jurnalını nəşr etdirmiş və bu istiqamətdə sistemli olaraq elmi araşdırmalarını davam etdirir. Bu gün keçirilən konfrans da həmçinin bilavasitə şöbənin təşkilatçılığı sayəsində meydana çıxmışdır.

Qender tədqiqatçıları arasında bununla əlaqədar vahid anlaşılma aparatı yoxdur. Bəziləri obyektiv fizioloji xüsusiyyətlərdən irəli gələn «bərabərsizlik» anlayışını diskriminasiya amili kimi ortaya qoyurlar. Halbuki, qender cinslərin fizioloji fərqlərini deyil, sosial fərqlərini müəyyənləşdirməlidir. Təbii ki, cinslərin sosial rolları onların fiziopsixoloji durumu ilə sıx bağlıdır. Bu obyektiv reallığı nəzərə almadan nə qadınların, nə də kişilərin hüquqlarını qorumaq mümkündür.

Yanlız qadının kişi hakimiyyətindən azad olunmasına yönəlməyən qender tədqiqatları ümumiyyətlə bütün insan hüquqlarının qorunmasını elmi-nəzəri və həm də praktiki olaraq gerçəkləşdirməyə çalışan praktik bir sahədir. Bu baxımdan qender hüquqi və siyasi bir təlim kimi ortaya çıxır. Bu gün qender tədqiqatları artıq milli, irqi, kulturoloji və konfesional səviyyədə geniş bir ümumiləşdirmə səviyyəsinə gəlib çatmışdır. Müasir dövrdə sosioloqlar hakimiyyət və siyasətdə qadın, keçid dövrünün qadını və bazar iqtisadiyyatı, qadın davranışının psixologiyası və s. tədqiqatlar aparırlar.

Azərbaycan cəmiyyəti öz tarixi inkişafında özünəməxsus folkloru, milli adət və ənənələri, mədəni irsindən irəli gələn kişi və qadının sosial münasibətləriylə digər xalqlardan seçilmişdir. Azərbaycan mədəniyyəti müxtəlif sivilizasiyaların və dünya dinlərinin kəsişdiyi inteqrasiya şəraitində inkişaf edərək, həm milli, həm də ümumbəşəri dəyərlərin ayrılmaz bir hissəsinə çevrilmişdir. Bu gün qloballaşma ilə əlaqədar dünyada baş verən sosial-siyasi və mədəni proseslər qender münasibətlərinə də öz təsirini göstərir. Bu baxımdan milli dəyərlərin qorunması və inkişaf etdirilməsi daha da aktuallaşır.

Cinslərin qeyri-bərabərliyi müxtəlif cəmiyyətlərdə özünü müxtəlif cür büruzə verir. Ona görə də kişi və qadının vəziyyətini

tədqiq etməklə cəmiyyətin mədəni ənənələrini, xalqın mənəvi xüsusiyyətlərini, onun dünyagörüşünü müəyyənləşdirmək olar. Cəmiyyətdə cinslərin qeyri-bərabərliyi orada yaşayan insanlar üçün heç də həmişə problem olmamışdır. Təbii ki, bu cəmiyyətin mövcud gerçəkliyi dərk etməsiylə əlaqədardır. Çünki, mədəni stereotiplər tarix, ənənə, din və ya digər dəyərlərdən irəli gələn əxlaqi normalarla müqəddəsləşdirilirək milli mentalitetin sabit bir formasına çevrilmişdir. Ənənəvi cəmiyyətdə kişi və qadının sosial rolları ciddi şəkildə bölünmüşdür.

Azərbaycanda maarifçilik dövrü də cinslərin qarşılıqlı təsiri probleminə öz töhfəsini vermişdir. Azərbaycan maarifçilərinin qaldırdıqları əsas problemlər arasında insan hüquqları, xüsusilə qadın azadlığı məsələsi mühüm yer tutmuşdur. Azərbaycan maarifçiləri Qərb maarifçilərindən fərqli olaraq qadının varlığı məsələsinə çox mütərəqqi mövqedən yanaşmışlar. Onlar qadın azadlığı problemini milli oyanışın əsas amili kimi ortaya qoymuşlar. ADR hökuməti də qadınların seçkilərdə iştirakını təmin etməklə bəşər tarixində demokratiyaya və insan hüquqlarına ilk addım atan dövlətlərdən olmuşdur.

Qərb fəlsəfi fikir tarixində kişi və qadınların bərabərliyi məsələsi əsasən sosialist və marksist təlimlər tərəfindən nəzəri olaraq qaldırılmışdır. Lakin Marksın əsərlərində qadının diskriminasiyasına ümumiyyətlə antoqonistik cəmiyyətdə insanın diskriminasiyası kimi baxılırdı. F.Engels yazırdı: «Xüsusi mülkiyyətin təşəkkülü və cəmiyyətin sinfi quruluşunun inkişafı qadın cinsinin ümumdünya tarixi məğlubiyyətinə gətirdi» (K.Marks, F.Engels. Seçilmiş əsərləri, II cild, bakı 1953). Sovet dövründə praktiki baxımdan reallaşdırılan bu nəzəriyyələrin praktiki nəticəsi qadınların həqiqi azadlığına səbəb olmadı. Sovet qadınları və xüsusilə daha çox maddi istehsal sahələrində fəaliyyət göstərən qadınlardan həmçinin ağır kənd təsərrüfatı işlərində və hətta ağır sənaye sahələrində istifadə olundu.

XX əsrin əvvələrindən başlayaraq açılan dünyəvi qız məktəbləri Azərbaycan qadınlarının sosial-mədəni baxımdan təkmilləşməsinə şərait yaratmışdır. Məhz bu dövrdən başlayaraq azərbaycan qadınları kişilərlə bərabər cəmiyyətin sosial-siyasi işkişafında aktivləşirlər. Bu gün qadınlar səhiyyə, təhsil və digər

mədəniyyət sahələrində hətta kişilərdən də say etibarı ilə öndə gedirlər.

XX əsrdə Azərbaycan qadınları ictimai, iqtisadi, mənəvi həyatın bütün sahələrində kişilərlə birlikdə bərabər hüquqlar qazandılar. Azərbaycan Respublikası dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını 1991-ci ilin 18 oktyabrında qəbul etmiş və eyni zamanda insan hüquqlarının ümumi bəyannaməsini, Helsinki müşavirəsinin Yekun aktını, başqa beynəlxalq hüquqi aktları qəbul edərək, 200-ə yaxın beynəlxalq Paktlara, Konvensiya və Xartiyalara qoşulmuşdur. Azərbaycan qadınları kişilərlə bərabər cəmiyyətdə gedən sosial və siyasi proseslərdə, istehsal sahələrində, mədəniyyətdə və insan həyatına xas olan digər sahələrdə aktiv fəaliyyət göstərmiş və öz spesifik demoqrafik xüsusiyyətləri ilə fərqlənən bir sosial qrup kimi tarixin gedişinə təsir etmiş, cəmiyyətin inkişafının müəyyənləşməsində mühüm rol oynamış oynamaqdadırlar.

Azərbaycanda qender sahəsində olan problemlərin bir çoxu keçid dövrünün iqtisadi problemləri ilə əlaqədardırsa, digərləri ölkəmizdəki 1 milyona yaxın məcburi qaçqın və köçkün problemləri ilə əlaqədardır. Onların əksəriyyəti rəsmi statistikaya əsasən qadınlardır. Qadınlar münaqişələrin sülh yolu ilə tənzimlənməsində xalq diplomatiyasının təşəbbüskar və fədakar nümayəndələrinə çevrilmiş, öz siyasi fəaliyyətləriylə səmərəli işlər görmüşlər. Bu baxımdan qadınların kişilərlə bərabər sürətdə siyasi münaqişələrin həllində rolunun artması zəruridir. Azərbaycan qadınlarının Qarabağ münaqişəsinin həllində kişilərlə bərabər göstərdikləri səmərəli səylər, tədricən onların siyasətdə kişilərlə bərabər aktiv rolunu müəyyənləşdirir.

Azərbaycanın sosial-mədəni inkişaf tarixi və onun mənəvi dəyərləri cəmiyyətdə qadının sosial rolunun daha da artmasına və qender balansının qurulmasına şərait yaradır. Keçid dövrünün bir çox sosial-iqtisadi problemlərinin tədricən aradan qaldırılması nəticəsində Azərbaycanda olan bəzi qender problemləri də aradan qalxacaqdır. Çünki, biz Azərbaycanda qender problemlərini yaradan səbəbləri əsasən mədəni dəyərlərdə deyil, keçid dövrünün sosial-iqtisadi problemlərində görürük. Qender mədəniyyəti demokratiyanın inkişafıyla bağlı olduğu kimi, demokratiyanın inkişafı da onunla bağlıdır. Azərbaycan xalqı hər

zaman sivilizasiyanın ədalətli və mütərəqqi dəyərlərini öz milli-mənəvi əxlaq «süzgəcindən» keçirərək qəbul etdiyi kimi, bu gün də bu yolla milli-mənəvi dəyərləmizə zidd olmayan ümumbəşəri dəyərləri öz milli sərvətinə çevirəcəkdir.


Елена Касумова

*к.и.н., доцент кафедры политического*

*управления и политологии*

*Академии государственного управления*

*при Президенте Азербайджанской Республики,*

*член республиканской женской коалиции 1325*


## Преподавание культуры мира в высшей школе Азербайджана

Культура мира – это универсальная мировоззренческая и поведенческая модель, аккумулировавшая в себя важнейшие принципы демократии и прав человека, концепций толерантности и устойчивого гендерного развития. «Гендер, демократия и мир – три столпа одного и того же исторического движения. Без них не может быть и речи об устойчивом развитии, которое в свою очередь является минимально необходимым условием мирного урегулирования конфликтов», - указывал генеральный секретарь ООН Кофи Анан.

Существует тесная связь между культурой мира и полом. В нашей новой глобальной эре, когда происходят глубокие культурные изменения и возникают новые социальные

отношения, все более очевидной и настоятельной становится необходимость паритетного, равного участия в миростроительстве и мужчин, и женщин. Женщины дают жизнь, они более склонны поддерживать отношения и политику, сохраняющие жизнь. Несмотря на то, что от последствий вооруженных конфликтов страдает все население, женщины и девушки особенно уязвимы из-за их общественного положения и половой принадлежности. В войнах убивают большее число женщин и детей, чем солдат. В прошлом десятилетии в войнах были убиты приблизительно четыре миллиона женщин и детей, а от восьми до десяти миллионов ранены. По имеющимся данным, гражданские лица составляют почти 90 процентов убитых и раненых в ходе современных вооруженных конфликтов, причем большая часть из них женщины и дети. Для сравнения следует отметить, что в прошлом веке военнослужащие составляли 90 процентов от всех погибших. [1]

Несмотря на то, что войны душат творческий потенциал женщин, неправильно их рассматривать только как жертвы войны. Женщины активно участвуют в движении за мир на местах, поддерживая спокойствие и добрососедство в своих общинах. Но в сфере миростроительства, к сожалению, еще рано говорить о гендерном равенстве – мы не встретим женщину за столом переговоров на высоком уровне, нет равного участия женщин в разрешении конфликтов на уровне принятия решений.

В Платформе действий, принятой на Четвертой всемирной конференции по положению женщин, состоявшейся в Пекине в 1995 году, воздействие последствий вооруженных конфликтов на женщин определяется в качестве важной области, которая требует принятия действенных мер со стороны международного сообщества и правительств.

---

[1] Woman and War. LT Press N-Y. 2003, p.43

В 1998 году, на сорок второй сессии Комиссии Организации Объединенных Наций по положению женщин обсуждалась проблема женщин в вооруженных конфликтах. Государствам — членам ООН и международному сообществу было предложено сделать новые шаги по ускорению реализации стратегических целей платформы в этой области, включая учет гендерной проблематики в политике и всех соответствующих программах. Резолюция 1325 Совета Безопасности ООН обязывает усилить роль женщин в разрешении конфликтов и утверждении мира.

Воспитание культуры мира и толерантности становится насущным требованием современной образовательной системы, а новые технические, социальные, экономические, культурные и даже религиозные реалии неминуемо влияют на учебный процесс. Вспомним Конституцию ЮНЕСКО, в которой сказано, что «…войны начинаются в умах людей» и «… именно в умах людей должна начинаться борьба за мир».

Актуальность и потребность введения учебного курса по культуре мира в нашей стране, равно, как во всем регионе Южного Кавказа, обусловлены сложившейся геополитической ситуацией, условиями переходного периода, экономическими, культурно-цивилизационными факторами. Идея нового миропорядка возникла достаточно давно – она была выдвинута ООН в ходе обсуждения нового международного экономического порядка. В тот момент ООН предлагала установить мировой порядок, основывающийся на «… справедливости, суверенном равенстве, независимости и искоренении существующей несправедливости и неравенства». Этот новый порядок, утвержденный решением Генеральной Ассамблеи № 3201, так и не был претворен в жизнь, достаточно обратиться к Нагорно –карабахскому конфликту, срок которого уже исчисляется вторым десятилетием. Естественно, концепция нового международного порядка будет иметь смысл, только если люди будут готовы принять идею полного отказа от

насилия, а для этого необходима специальная подготовка, в том числе и образовательная. Только тогда мы сможем с полным правом надеяться на создание многокультурного, многорасового и многоконфессионального мирового сообщества, взращенного на принципах мирного сосуществования и безоговорочной терпимости. Для специалистов в области культуры мира основной целью должна стать передача знаний о толерантности молодому поколению, что позволит молодежи внести свой вклад в усовершенствование мира.

Проблемы современного общество все острее ставят перед каждым человеком задачу самоопределения, выработки своей активной жизненной позиции, нравственного выбора. Определение собственных ценностных ориентации, отношения к своим традициям и культуре, прошлому и будущему — все это становится не абстрактной теорией, а насущной потребностью сегодняшнего дня. Необходим новый тип культуры, ориентированный на человека, на гуманные ценности общества. Именно поэтому необходимо новое образование, сохраняющее все лучшее из накопленных традиций и создающее адекватные принципы вхождения молодого поколения в новую эпоху. Политика обучения молодежи перспективна всегда, в случае с культурой мира она перспективна вдвойне, так как принципы и инструментарий толерантности обеспечивают поддержание политической стабильности, гражданского мира.

В этой связи особую значимость приобретает разработанный при поддержке Бакинского представительства проекта ЮНИФЕМ «Женщины за предотвращение конфликтов на Южном Кавказе и в миротворческом процессе» учебный курс «Введение в конфликт и миротворчество». Четкая стратегия его научно-методической подготовки и тактика последовательной апробации курса «Введение в конфликт и миротворчество» в общереспубликанский предметный план обеспечила высокий

рейтинг предмета как среди преподавателей, так и среди студентов. Сейчас наша страна постепенному готовится перейти на Болонскую конвенцию по образованию, сокращается количество предметов, которые будут читаться в вузах, но подготовленный ЮНИФЕМ курс, не только остался, но, например, в Академии Государственного Управления при Президенте Азербайджанской Республики увеличилось количество часов - от 36 до 54. Естественный вопрос - почему?

Подготовке данного курса предшествовало объективное исследование того, в каком объеме и по какой модели преподаются в системе высшего образования Азербайджана конфликтологические дисциплины. В 2001 году лишь в двух ВУЗах нашей страны студенты изучали этот предмет, но, к сожалению, он рассматривал теоретическую конфликтологию без элементов культуры мира.

Команда консультантов подготовила Программу, получившую государственную сертификацию. Программа базируется на инновационных западных методиках, включающих написание студентами ессе, брейншторминги и значительный игровой компонент. Основной акцент в программе был сделан на профилактику и предупреждение конфликтов, развитие медиации и переговорного процесса, усиление миротворческих компонентов именно в гендерном ракурсе. Впервые в отечественных гуманитарных дисциплинах была предложена инновационная методика изучения роли женщин в предупреждении конфликта и миротворческих процессах.

Параллельно с Программой учебного курса «Введение в конфликт и миротворчество» готовилась хрестоматия по миротворчеству на азербайджанском и английском языках. Ее принцип – по каждому разделу программы включаются для самостоятельного изучения студентами труды наиболее известных авторитетных ученых.

Хрестоматия содержит также достаточно серьезный глоссарий и информационные ресурсы по миротворчеству. На наш взгляд, это было верное решение – начать с хрестоматии, так как, во- первых, для написания учебника нужны определенные наработки и педагогические рефлексии, во- вторых, сами преподаватели далеко не в полной мере осознавали ту роль, которую культура мира отводит гендерному равенству. Потом прошли семинары-обсуждения для преподавателей, отрабатывалось все, прежде, чем мы вошли в аудиторию.

В качестве эксперимента курс «Введение в конфликт и миротворчество» стал читаться с февраля 2003 -го года на факультете международных отношений 6 университетов республики: Азербайджанском Государственном, «Хазаре», в Западном, Славянском, Педагогическом, «Одлар Йурду» и в Академии Государственного Управления при Президенте азербайджанской Республики. Курсом были охвачены около 400 студентов.

Образование является фактором перемен, принятие или адаптация определенных учебных программ может способствовать ускорению перехода общества к качественно новому состоянию. Наличие новых технологий преподавания предполагает стремление к инновациям и постоянному усовершенствованию, поэтому данный учебный курс потребовал от преподавателей творческого и гибкого подхода и готовности идти на разумный риск, учитывая, что студенты очень болезненно реагируют на нерешенность Нагорно- Карабахского конфликта.

Курс ориентирует студентов на осознание того, что культура мира выходит за рамки традиционного понятия международного мира, а включает в себя усилия, направленные на поддержание мира и предотвращение военных конфликтов, на строение мира не только между государствами, но и между этническими, социальными и, конечно, гендерными группами. Материалы, предложенные

в хрестоматии, спосбствуют осознанию студентами того, что сохранение мира – универсальная, а не национальная или государственная задача. Мир подразумевает ощущение эмпатии и сочувствия, которому учат все религии без исключения. Для сохранения мира необходимы постоянные усилия по построению равноправных экономических и культурных отношений как между гражданами внутри страны, так и между различными странами. В условиях мира сила не может являться определяющим фактором человеческих отношений

По мере овладения темами студенты пишут эссе. Иногда они бывают стандартными, но чаще творческими, потому что сам курс предполагает динамику, интерактивность. В частности, Роза Мамедова, выпускница Академии Государственного Управления при Президенте Азербайджанской Республики написала: «Это здорово, что я смогла посмотреть на мир по новому. Надо учиться уважать не только свои личные ценности, но и ценности любой человеческой жизни, свободу, справедливость, ценности равенства между мужчиной и женщиной». Студент Педагогического Университета Алиев Азер: «Я задумался - почему есть противоречия между идеалами и правилами Хартии ООН и трагедиями и страданиями, переживаемыми моим народом».

К сожалению, не каждый учебный курс проходит еще и внеаудиторную апробацию. В этом случае студентам, изучающим «Введение в конфликт и миротворчество», повезло. В 2003-м году при поддержке ЮНИФЕМ студенты семи вузов Азербайджана, прослушавшие курс, объединились в клуб миротворцев «Peacemakers».

Первоначально студенты работали с помощью преподавателей, а на следующий год стали проводить встречи самостоятельно. Студенты учатся двигаться от эгоизма – к солидарности, от фанатизма – к диалогу, от насилия – к безопасности, от бедности – к социальной

справедливости, от замкнутости – к открытости и сотрудничеству. Но сейчас основной костяк клуба уже заканчивает магистратуру, а так как в этом учебном году курс читался во втором семестре, то его окончание совпало с началом сессии, ну тут уже не до встреч в клубе.

Благодаря помощи и вниманию Министерства образования в 2005 году увеличился круг «бенефициариев», ныне курс «Введение в конфликт и миротворчество» преподается в Экономическом Университете, Университете Иностранных Языков. Расширилась география этого образовательного проекта, сейчас курс читается в Сумгаитском, Гянджинском и Нахичеванском Государственных Университетах, в общей сложности 660 студентов выпускных курсов факультета международных отношений и международного права изучают введение в конфликт и культуру мира. Общенациональный лидер Гейдар Алиеа подчеркивал, что Азербайджана всегда с благодарностью принимает помощь международного сообщества. Очень важно, что международные структуры создают ресурсы, которые будут работать, когда фонды, выполнив свою миссию, уйдут. Уверена, что работа, проделанная Бакинским представительством проекта ЮНИФЕМ «Женщины за предотвращение конфликтов на Южном Кавказе и в миротворческом процессе» надолго сохранит свою значимость, последовательно завоевывая позитивные результаты: от разработанной новой программы и создания хрестоматии по миртворчеству до студенческого клуб а-миротворцев и внесение самими студентами идей мира и значимости роли женщин в молодежную и детскую среду. Все материалы, о которых говорилось выше, представлены на азербайджанском, английском и русском языках на анциональном гендерном портале www. gender-az. org, поддерживаемым Женскјй Сетевой Программы фонда Открытое общество.

Хотелось бы отметить, последовательное сотрудничество ЮНИФЕМ и Женской Сетевой Программы фонда Открытое общество. Эта действенная международная помощь демонстрирует синергетический подход к развитию гендерного равенства и культуры мира, основанной на справедливости и терпимости, в соответствии с которой на семейном, общинном, внутригосударственном и межгосударственном уровне исчезнет насилие, а на смену ему придут диалог и переговоры.

**Əli Abasov**
AMEA «Fəlsəfənin yeni istiqamətləri və qender problemləri» şöbəsinin müdiri, f.e.d., prof.
**Rəna Mirzəzadə**
aparıcı elmi işçi, f.e.d

## QENDER TƏHSİLİ İNKİŞAF PERSPEKTİVİDİR

Qender - cəmiyyətdə kişi-qadın münasibətlərinə yeni baxış tərzidir. Bu baxış tərzində müsbət hallarla yanaşı çatışmayan cəhətlərin də mövcudluğu aşkar görünür. Təhsil, maarif, savadlanma, oğlanlar və qızlar, onların bilik səviyyəsi necədir?

İstər-istəməz XX əsrin əvvəli yada düşür. Cəhalət, mövhumat və nadanlıq içərisində maarifçiliyin inkişafı prosesi. Məhz bu inkişaf Azərbaycan cəmiyyətini formalaşdırdı. Hər bir inkişafın, təkamülün və tərəqqinin əsası Təhsildir. Hər bir təhsilli vətəndaşın uğuru ölkənindir. Və bu uğurda əgər cinsi diskriminasiya azacıq da olsa önə çıxsa, onda bu azlıq sabahkı çoxluğa çevriləcək, beləliklə yenə Savadsız Valideyn problemi yaranacaq. Valideyn məfhumu özündə iki cinsi: kişi və qadını ehtiva edir. Birinin savadlı olması, təhsilli olması digərinin isə adını belə yaza bilməməsi faktı məgər XX əsrin əvvəlindəmi qalıb? Deyəsən, hazırda XX əsrin əvvəlinə «qayıtmaq» istəyini

formalaşdırmaq istəyənlər var... Nəinki qızlar, oğlanların da təhsildən yayınma halları mövcuddur. Bəs hanı Hacı Zeynalabdin Tağıyevlər, Musa Nağıyevlər, Üzeyir Hacıbəyovlar, Əhməd Ağaoğlu, Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə, Sabir, C.Cabbarlı və s. və sairlər... Balaşlar çoxalır, Sevillər isə çoxalmaq əvəzi, deyəsən «örtük»lə çoxalır (Biz heç kimin insan hüququnu pozmadan deyirik ki, hər kəsin azad geyim hüququna hörmət edirik).

Problem «örtük» deyil. Problem Sabir dili ilə desək «Oxutmuram əl çəkin»in bir qədər digər tərzdə, yəni «Qız mənimdir, oxutmuram əl çəkin, Eyləməyin dəngəsər, Ərə verirəm, Ər bilər» şəklinə düşməsidir. Ər isə bilmir və bilmək də istəmir! Və yeniləşən dünyada yeni hallar yaranır. «Mən kişiyəm, oğulam, ailə saxlayacağam, mən oxumalıyam» fikri blits-sorğuda ən sürəkli cavab kimi önə keçir. Fakt isə faktlığında qalır. Kişi (yəni oğul) işsizlik adı ilə ölkəni tərk edib, ailəni qadının (yarımçıq savadlı) öhdəsinə qoyur. Bu qadın isə «Nə etməli?» sorğusu önündə bir çıxış yolu görür, xırda ticarət, yəni küçələrdə xırdavat yaxud tərəvəz satan olur. Bax budur təhsildəki qender natamamlığı, qender mental çatışmazlığı və təhsilin qender aspekti. Onu da nəzərə yetirək ki, təhsilin natamam – yarımçıq qoyulması halları oğlan uşaqları üçün də xarakterikdir. Ailəyə qazanc gətirən azyaşlı oğlan Sabahkı Ailəsinin artıq Savadsız Kişisidir. Bu mülahizələr günümüzün problemli cəhətləri, güzgüdə real görünən tərəfidir. Lakin bu əskikliklərlə bahəm İnkişafı da danmaq olmaz. Uğurlar, nailiyyətlər və Tərəqqimiz göz önündədir. Təhsil almaq hüququ da hər kəsin öz əlindədir. Bax, burada Ən vacib bir məsələni isə Ümum Azərbaycan üzrə qaldırmalıyıq: Qender təhsili, Qender mədəniyyəti. Çatışmazlıqların bəlası və əsası.

Qender təhsili. Vacibdir və zəruridir. Bu zərurilik cəmiyyətdə Qender mədəniyyətinin- cinslər arasında sosial ədaləti, tarazlığı, sabitliyi və əməkdaşlığı qorumaq üçün lazımdır.

Qender mədəniyyəti şüurun, dünyagörüşünün, davranışın, münasibətin, əxlaqın dəyişməsidir. Mənəvi aşınmalar olan yerdə qender mədəniyyəti zərurətə çevrilir. Bu, İnkişafın, Sülhün və Tərəqqinin meyarıdır. Qender mədəniyyətinə cəmiyyətimizdə o zaman nail olmaq mümkün olacaqdır ki, milli adət-ənənələrin po-

zitiv cəhətlərini qoruyaraq, müasir dünya mədəniyyətlərində olan yeniliklər – qlobal problemlər aydın dərk edilsin. Baş verən yeniləşmələrin dəyişilməsində həm kişi, həm qadınlar konstruktiv bacarıqlara malik olsun və vətəndaş cəmiyyəti, hüquqi dövlət, insan hüquqları, bərabərlik haqqında beynəlxalq standartlardan məlumatlı olaraq mədəniyyətlərin müxtəlifliyini və eləcə də birinin digərinə ötürülməsini qiymətləndirsinlər. Qender biliklərini məqsədyönlü və sistematik olaraq, milliçiliyi qorumaqla, tədris etmək gərəkdir.

Qender təhsili haqqında YUNESKO–nun 9 oktyabr 1998–ci il tarixində, Fransada keçirilmiş «XXI əsr üçün ali təhsil haqqında Ümumdünya Deklarasiyası: yanaşmalar və praktiki tədbirlər» tədris Konfransında da qeyd edilmişdir. Ali təhsilin son məqsədi yeni cəmiyyətin yaradılması, bu cəmiyyətdə zorakılıq və ayrı seçkiliyə yer olmaması məsələləri müzakirə obyekti olmuşdur. Göstərilmişdir ki, bu məqsədlərin həyata keçməsi üçün müasir metodların tətbiqi, yeni tədris proqramlarının yazılması lazımdır. Yeniləşmiş metodik tədris proqramlarında cinslər arasında bərabər hüquqluluq məsələsi qabardılmalı və qender strategiyasının bütün fənlərdə diqqətə alınması nəzərə yetirilməlidir. Bu baxımdan da təhsildə olan belə yeniləşmə nəinki tədris proqramlarının, həmçinin istifadə ediləcək metodik vəsaitlərin də olması ehtiyacını yaradır. Burada isə şifahi danışıq üsulu ilə birlikdə, qavrama dərəcəsi, anlama qabiliyyəti, praktika ilə nəzəriyyəni birləşdirə bilmək bacarığı, yeni mini anket sorğu, diskussiya, testləşdirmə, blits-sorğu və s. kimi metodların da tədrisə inteqrasiyasıdır.

Bu nöqteyi-nəzərdən də XXI əsr Azərbaycanda da təhsil qarşısında, prinsipial olaraq yeni məqsədlərə yetmək üçün, yeni tələblər qoyur. Artıq vacib olan cəhət kişi və qadınların təhsilinin inkişafları ilə bərabər, yeni metod və bacarıqlara, İnternet mədəniyyətinə, kompüterləşməyə, bir sözlə müasir informasiya və telekommunikasiya texnologiyalarına uyğunlaşan Yeni intellekt – Yeni ziyalı modelinin, yeni təfəkkürlə düşünən yeni nəslin formalaşdırılması zərurəti, cinsi ayrıseçkilik münasibətlərinin təhsilin bütün sahələrində aradan qaldırılmasıdıür.

Cinsi ayrı seçkilik anlayışı qadın və kişi rolunun müəyyənləşmiş, cəmiyyətin müvafiq imtiyazlarından qadınların uzaqlaşdırılıb təcrid edilməsi, onların qüvvə və bacarığını, idarə etmək, o cümlədən təhsil almaq kimi imkanlarının məhdudlaşdırılması və s. bu kimi halları ifadə edir. Məhz bu kimi səbəbdən də kişilərlə qadınlar arasındakı mövcud fərqlərdən xəbərdar olmaq üçün qender təhsilinə ehtiyac yaranır.

Cinslər arasındakı fərqlərin bioloji və sosiomədəni aspektlərinin dərki, hər cinsin öz stereotiplərinə və funksiyalarına həssaslıqla (bu Qender həssaslığı adlanır) yanaşmaq qender təhsilinin və mədəniyyətinin əsas göstəricisidir. Kişi-qadın münasibətlərində olan disbalans barədə məlumatlılıq bazası isə hər iki cinsin bir-birinə, mövcud fərqlərə hörmət etməsinə və insani dəyərlərin, keyfiyyətlərin yeni davranışına, yeni dərkinə stimul yaradır. Bütün bu proseslər isə qender sosial institutlaşmasının məqsədidir. Bu məqsədə nail olmaq isə Təhsilin, o cümlədən də Qender təhsilinin prinsipial perspektividir.

Qender faktoru üzrə maariflənmə qender perspektivli İnkişaf üçün zəruri keyfiyyətdir. Qender metodik tədris proqramları, dərslikləri əsasən qender nöqteyi-nəzərlərini, habelə mühazirədə oxunan bütün mövzular isə kişi-qadın dəyər və ölçülərini, oxşar və fərqli cəhətlərini təqdim etməyə çalışmalıdır. Məşğələlərin aparılması zamanı bərabərlik məsələsi daha çox vurğulanmalı, milli adət-ənənələrin, təsəvvür və düşüncələrin yaratdığı vərdişlərin yeni dərki forması kimi aşılanması müzakirəyə verilməlidir. Bu zaman insan haqları Prinsipi qorunmalı, hər bir cinsin hüququna və subyektiv fikrinə də hörmətlə yanaşılmalıdır. Azərbaycan reallıqları – mövcud qanunları hər bir şəxsin azad inkişaf və sərbəst düşünmə hüqüqünü ifadə edir.

Qeyd etməliyik ki, resrpublikada qender münasibətlərinin araşdırılması zamanı, reallıq əksər sahələrdə qender tarazlığının qeyri-bərabərliyini göstərir. Bu hal belə deyək ki, cinsləri «narahat» etmir, bəlkə də «razıdırlar», bəlkə də «qender münaqişəsi», Qender Sülhünü yaradıbdır. Lakin, XXI əsr, qloballaşan dünyanın öz məzmunu və yeni nizamına uyğunlaşmaq gərəkliyi yeni dünyagörüşü olan Qenderin Təhsildə

də harmonikləşməsini tələb edir. Bu da günün tələbi kimi Bizim – Qenderşünas tədqiqatçıların prioritet məqsədimizdir. Bu məqsədlə də biz ilk metodik tədris proqramlarını hələ 1999-cu ildə yaratdıq, ilk «Qender tədqiqatları» (müəlliflər Əli Abasov, Rəna Mİrzəzadə) dərsliyini nəşr etdik və sonradan bu dərsliyi genişləndirib «Qenderə giriş» adı ilə təkmilləşmiş və çoxaldıvlmış variantda yenidən nəşr etdik. Sonradan «Qender tədqiqatları (2000), «Azərbaycanda qender tədqiqatları» (2002), «Qenderşünaslıq» Beynəlxalq elmi-populyar jurnalını (2000-2001), «Müasir dövrdə fəlsəfənin yeni istiqamətləri və qender problemləri» (2003), «Qender. Mədəniyyət» (2003) məqalələr toplusunu geniş oxucu kütləsinə təqdim etdik. Respublikada ilk dəfə olaraq «Qender müntəxabatı» və «Azərbaycan bədii və ictimai fikir tarixində qadın məsələsi» (2004) «Seçki və qender faktoru» (2004) məqalələr toplusunu da hazırlayıb geniş oxucu auditoriyasına təqdim etdik..

Biz Azərbaycanın müxtəlif bölgələrində QENDER MƏKTƏBiniyaratmışıq 16 iyul 2004-cü il tarixdə Qender və insan hüquqları araşdırma birliyi, «Fəlsəfənin yeni istiqamətləri və qender problemləri» şöbəsi, Qadın Problemləri üzrə Dövlət Komitəsi birlikdə «Təhsildə Qender bərabərliyi» respublika elmi praktik konfransını keçirdi. Konfransda respublikanın müxtəlif hökumət və qeyri-hökumət sektorlarının nümayəndələri, millət vəkilləri, Azərbaycanın Ombudsmanı, AMEA-nın alimləri, qender üzrə ekspertlər və qender mərkəzləri iştirak edirdi. Bax, bu sizə təqdim etdiyimiz yeni kitab da da həmin konfransın nəticəsidir. 16 iyul 2004-cü ildə bu konfransda «Qender üzrə Respublika Koordinasiya Şurası»nın yaradılması təklif olundu və bu Şuranın ilkin tərkibi də müəyyənləşdirildi. Beləliklə, BMT İP-nin «Qender inkişafda layihəsi» ilə birlikdə 1998-ci ildən qenderlə bağlı ilk Respublika konfransını keçirəndən bu anadək gördüyümüz işlərin yekunu əyalətlərdə «Qender Məktəb»i yaratmaqla və «Qender üzrə Respublika İctimai Koordinasiya Şurası»nı təsis etməklə nəticələndi.

Bu gün Qender siyasəti artıq həqiqətən də inkişaf yolundadır, perspektivdə isə bərabər hüquqlar, bərabər imkanlara çatmaq məqsədi durur. Bəabərhüquqluluq və təhsildə inkişaf devizi Qender tədqiqat məktəbimizin məramı idi.

Belə sistemli apardığımız işin səmərəliliyi üçün, İnkişafın əsas göstəricisi Təhsili hesab etdiyimiz üçün də «Təhsil, Təhsil və yenə Təhsil» devizi ilə Qender mədəniyyəti, Qender təhsili üçün bu növbəti kitabımızı Azərbaycan İctimaiyyətinə təqdim edirik. Bu Milli Qenderşünaslığa daha yeni bir töhfəmizdir.

**Rəna Mirzəzadə**
*fəlsəfə.elmləri doktoru*

## QENDER MƏDƏNİYYƏTİNƏ NƏZƏRİ BAXIŞ

Tarix boyu cəmiyyətdə formalaşmış kişi-qadın fəaliyyətində bərabərsizlik və bərabərlik ideyası, adət-ənənələr, qanun, norma və bu zərurətdən irəli gələn siyasi-hüquqi prinsiplər əsasında qurulmasını tələb edən qender münasibətlərinə zəmin yaratmışdır.

Sivilizasiyaların inkişafı boyu xalq öz milli adət-ənənələrini, mədəni abidə və yazılı qaynaqlarını, eləcə də ünsiyyət vasitələrindən biri olan qadın və kişi münasibətlərini tədricən dəyişib yeni yönümə salıb. Hələ eramızdan əvvəl, xüsusilə qadına qarşı mənfi münasibətlər onu ictimai həyatda heç bir hüququ, nüfuzu olmayan bioloji varlıq səviyyəsinə endirmiş, qadın cəmiyyətdə əsasən kölə-kəniz kimi qəbul edilmişdi. Antik dünyaya nəzər saldıqda, ictimai-siyasi fikir tarixi nümayəndələrinin ideya və baxışlarında bunun şahidi olduq. Çin filosofu Fom Van söyləyib ki, «Qadın olmaq nə qədər kədər doğurur! Yer üzündə bu qədər ucuz şey yoxdur». Hindistanda əri öləndən 40 gün sonra qadın odda yandırılırdı. Misirdə Nil çayının səviyyəsi artanda, ya enəndə qızları qurbanlıq pay əvəzi çaya atardılar. Bu hətta Azərbaycan xalq nağıllarında da göstərilir. Buna əsasən, suya, oda sitayiş dövründə rast gəlinir. Bu baxımdan İslam dini qadının hüquqlarını müdafiə etdi, bu adətlərə son qoyuldu. Həmçinin qadının izdivacı öz ixtiyarına verildi. Bu məsələdə Qurandi-Kərimdə məcburiyyət həddi yoxdur. Kişi qadını nə çöldə, nə də evdə işləməyə məcbur edə bilməz, hətta ana da uşağına istəməsə süd verməz və s. Qurani-Kərimin "Bəqərə» surəsində deyilir: «Qadınlar sizin üçün libas, siz də qadınlar üçün libassınız». Quran qadına yaradıcı, gərəkli varlıq

qiyməti verib, onu da cəmiyyətin tam hüquqlu üzvü hesab etmişdir.

Bəs, Azərbaycanda müasir mərhələdə qadın və kişi münasibətləri hansı səviyyədədir? Göstərdik ki, Şərqdə qadına müqəddəs, hörmətli şəxs kimi baxılır, ağbirçəklərin önündə təzim edilir. Əsrlər ötdükcə hər nəslin qarşısında zamana və şəraitə uyğun olaraq saysız problemlər yaranır və cinslərarası münasibətlər, davranış tərzi dəyişir.

Qender problemləri qlobal problemlər sistemində sülh və müharibə məsələ- lərindən sonra öz aktuallığı ilə mühüm sırada durur.

Qadın hüquqlarının pozulması məsələsində əmək münasibətlərinin tənzim-ləməsi də əsas götürülməlidir. Qadının ailədə roluna onun təkcə əməkçi, ana funksiyaları ilə deyil, həm də ailənin əsas subyekti kimi yanaşılmalıdır. Ailə və analıq borclarının yerinə yetirilməsi ilə bağlı ona sosial- əmək güzəştləri verilməsi faktı, sosial və iqtisadi baxım nöqteyi-nəzərindən özünü doğrultmur. Çünki verilən bütün güzəştlər ancaq və yalnız ailəyə istiqamətlənməlidir. Əks halda verilən sosial güzəştlər qadın və kişi arasında nə hüquqi, nə sosial fərqləri əks etdirmir, əksinə, bəzi məqamlarda fərqləri dərinləşdirir, bu «qadın əməyi» sahələrinin olması və saxlanılması zəruriliyini ehtiva edir. Yalnız müəyyən razılıqlar fonunda hər bir ailədə valideynlərdən kimin hansı səviyyədə ev əməyi ilə və yaxud kimin uşaq tərbiyəsində, kiminsə ancaq işləməklə məşğul olacağı paylaşdırılmalıdır.

Əmək kollektivlərində də qender dünyagörüşü cəmiyyətdə kişi-qadın münasibətləri, onların bərabərliyi və hüquqları haqqında mühazirələrə böyük ehtiyac vardır və hər bir fərd cəmiyyətə, ailəyə, nigaha, ictimai davranış, qarşılıqlı münasibət qaydalarına hərtərəfli hazırlıqlı olmalı, onlara riayət etməlidir. Boşanma hallarının çoxu, ailələrin dağılması faktoru məhz ailə münasibətlərindəki naşı, savadsız, qeyri-əxlaqi əlaqələrin nəticəsi olub, azalmaq əvəzinə, artmaqdadır. Buna görə də əsasən gənclərin bu sahələr üzrə maariflənməsi, onların davranışının düzgün yönəldilməsi üçün lazımi şərait, vasitə və imkanlar yaradılmalıdır. Bütün əmək kollektivində müxtəlif təbliğat mərkəzlərinin fəaliyyət göstərməsi vacibdir.

Təəssüf ki, bunların əvəzinə ekranlarda nəzarətdən yayınmış zorakılığı, əxlaqsızlığı təbliğ edən parnofilimlər nümayiş etdirilir. Cəmiyyətdə şəxsiyyətin formalaşması və püxtələşməsi üçün azadlıq, demokratiya hava-su kimi lazım olduğu qədər, onun əsası qarşılıqlı münasibətlər də gərəkdir. Azərbaycanda da nəzərə çarpan seksual inqilab seksual mədəniyyətlə əvəz olunmalı, qadınlar gərəksiz bir fərd deyil, cəmiyyətin dayaqlarından biri olmalıdır.

İctimai-siyasi prolseslərin meyarları baxımından qender mədəniyyəti ümumbəşəri dəyərlərdəndir. Müasir dünyanın inkişaf etmiş tədris ocaqlarında qender elminin metodu, predmeti, ictimai təfəkkürün və ümumi siyasətin ayrılmaz tərkib hissəsi kimi tədris olunur. Bu yeni elm respublikamız üçün nə dərəcədə xarakterikdir? Bu suala cavab vermək üçün nəinki tarixi, fəlsəfi istiqamətli araşdırmalar, konkret sosioloji sorğulardan tutmuş humanitar elmlərin bütün sahələrində milli xarakterə uyğun tərzdə tədqiqi müasir dünyagörüşü baxımından öz vacibliyi ilə aktuallaşmalı, qender problemi xüsusi və ümumiləşdirilmiş analiz nəticəsində öyrənilməlidir. Məhz orta məktəbdən «Qender nədir?» fənni tədris olunmalı, fərd cəmiyyətə hazır vəziyyətdə atılmalıdır. Qender münasibətləri, cinslərin bərabərliyi haqda biliklər maarifləndirmə tərzi daşımalı, uşaq və gənclərə öyrədilməli, ümumtəhsil tədris müəssisələrində də xüsusi proqramlar olmalıdır. Buna görə xarici ədəbiyyatlar tərcümə edilməli, yerli mütəxəssis kadrlar hazırlanmalı, dərsliklər, kitablar yazılmalıdır. Bu sahədə qender biliyini əhaliyə çatdırmaqda KİV müstəsna rol oynamalıdır. Sivil dünya çərçivəsi baxımından insan hüquqları, qadın və uşaq hüquqları qender bərabərliyi müstəvisində ali məktəblərdə humanitar fakültələrlə yanaşı texniki sahələrdə də təlimi zəruridir. Bu özlüyündə sosial amillərin insan faktoruna da psixoloji yönümdə təsirini göstərir. Çoxsaylı ziddiyyətlər içrə yaşayan respublikamız üçün obyektiv problemlərin həllindən biri də sosial stabilliyə istiqamətlənmiş qender tarazlığına nail olunmasıdır.

Birincisi, cəmiyyətdə cinslərin bərabər inkişafı üçün kompleks qender proqramlarının yaradılması və onun ictimai-siyasi həyata tətbiqini irəli sürdük. Biz bunun ətraflı izahını verdik.

İkincisi, cəmiyyətdə qender mədəniyyətinin, qender şüurunun və davranışının formalaşması vacibdir.

Qlobal qender problemləri sistemində mərkəzi yeri kişi-qadın münasibətləri tutursa, cinslərarası fəaliyyətdə mənəvi, psixoloji, sosial-məişət prinsipləri, əxlaq normalarını və s. mütləq nəzərə alınmalıdır. Qadın isə təkcə bioloji populyasiya kimi deyil, sosial cəhətdən fəal, məqsədyönlü qüvvə kimi təhvil edilməlidir. Cəmiyyətdə cinslərin qarşılıqlı münasibətlərinin yeni bir istiqamətini elmi cəhətdən əsaslandırmaq üçün uzun müddətli qender strategiyası hazırlanmalıdır. Çünki insani keyfiyyətlərin əsas komponentlərinin təkmilləşməsi üçün tədbirlər proqramının hazırlanması zəruridir. Bu baxımdan qender dünyagörüşünün formalaşmasında aşağıdakı problemlərin həlli zərurətə çevrilir: - cəmiyyətdə qender dünyagörüşü haqqında konkret elmi biliklərin yayılması, cinslərarsı davranış, fəaliyyət və münasibətdə baş verən müxtəlif proses və hadisələrin sosial əhəmiyyətinin öyrənməsi; - dövlətin elmi cəhətdən əsaslandırılmış qender siyasətindən çıxış edərək, konkret qender proqramlarının yaradılması; - cəmiyyətin müxtəlif qruplarının səviyyələrinin müəyyənləşdirilməsi; - bu sahə ilə bağlı kütləvi ədəbiyyatın dərci, nəşri və paylanması; - seminar, treninq, konfransların təşkili, mühazirələrin hazırlanıb müxtəlif yerlərdə oxunması; - maarifləndirmə, informasiyaların toplanıb işıqlandırılması.

**Мовсумова Лала**
*д.ф.н.*

## ЖЕНЩИНА И ПОЛИТИКА

В последнее время во всем цивилизованном мире растет число женщин, активно проявляющих себя не только в производстве, науке, искусстве, медицине и педагогике, но и в исконно, казалось бы, мужском деле – политике.

Нужны ли женщины в политике? Вероятно, однозначного ответа на этот вопрос никто дать не сможет. В первую очередь потому, что ответ зависит от респондента. Если этот вопрос адресовать мужчине, то вряд ли эта идея встретит поддержку, так

как по превалирующему мужскому мнению женщинам там (в политике) не место. Если же спросить у женщины, то рискуем столкнуться со странной ситуацией. У одних этот вопрос вызовет недоумение, которое можно объяснить крайней аполитичностью, свойственной «настоящим женщинам». У других – раздражение, проистекающее из тех соображений, что грозно размахивать знаменем феминизма, ничего при этом не предпринимая, - это значит просто сотрясать воздух. У третьих – возмущение уже потому, что кто-то посмел поставить под сомнение саму возможность вхождения женщин в политику. Вероятно, аналогичную реакцию можно ожидать и от многочисленных женских движений. Обязательным пунктом деклараций и концепций деятельности таких организаций является требование права на равное представительство мужчин и женщин в органах законодательной и исполнительной власти на уровне принятия решений.

В условиях бурного социального и научно-технического прогресса миллионы женщин из простых хранительниц домашнего очага все больше превращаются в действенный фактор экономической, политической и социальной жизни общества.

В свое время голландский философ и мыслитель Бенедикт Спиноза написал: «Женщина у власти – угроза миру». Похоже, что наши мужчины сегодня стремятся абсолютизировать этот тезис. Провозглашая на словах равноправие и эмансипацию женщин, они напористо отстраняют их от участия в институтах власти.

Объективный процесс политизации женщин наталкивается на жесткое сопротивление несовершенного законодательства, сплоченных кастовым духом административно-управленческих «мужских структур», на отсутствие общественных организаций, отстаивающих политические интересы женщин.

В целом общественное мнение женщин в сфере политики формируется медленнее, осторожнее, чем у мужчин, тогда как эмоциональная окраска их оценок выражена сильнее.

«Стабилизаторы» общественного мнения женщин – это их социальные потребности и интересы долговременного характера: сохранение семьи, забота о детях, благополучие близких, реальные гарантии права на жизнь, уверенность в завтрашнем дне; в сфере политики – заинтересованность в социальной устойчивости и

общественном спокойствии. Направленность оценок обычно более позитивная, чем у мужчин. Преобладают нейтральные, индифферентные суждения. Видимо, сказываются такие черты женского характера, как терпимость, снисходительность, менее выраженные агрессивность и безапелляционность.

Динамичность социальных процессов расширила круг объектов общественного внимания женщин. Они высказывают свои суждения о различных партиях, организациях, переходе на рыночные отношения и национальных конфликтах, о деятельности своих общественных организаций. О настоящем и будущем.

Идет процесс политизации женского сознания. Он не такой решительный и быстрый, не столь агрессивный, как это часто бывает в мужской среде. Но уровень политизации все более возрастает в связи с обостряющимися межнациональными отношениями и конфликтами, небывалой охлократией (властью толпы), нередко навязывающей свои, отнюдь не демократические лозунги и решения. Причем сложилось реальное противоречие между растущей политизацией, порождаемой условиями демократизации, и естественной тягой женщин к не политизированным движениям и организациям – культурным, просветительским, экологическим, информационным, развлекательным.

И социальная активность женщин развивается, таким образом, по нескольким направлениям. Они участвуют в политических партиях и движениях или оказывают им поддержку, содействие, выражают сочувствие, солидарность. Являются членами различных ассоциаций, союзов, клубов, комитетов, не имеющих прямой политической направленности от религиозных до предпринимательских. Они создают организации чисто женские по своему составу, тем не менее отстаивающие широкую гамму социальных интересов. Все эти формы женских движений взаимосвязаны. Более того, в них нередко активно сотрудничают одни и те же люди.

Многопартийность расширяет возможность политического выбора для всех групп населения, в том числе и женского. Многопартийность неизбежно ставит вопрос о создании самостоятельных организаций, отстаивающих интересы именно социально-демографической группы.

Тут уместно возникает вопрос о лидерстве. Нужны ли при этом лидеры, способные повести за собой? Безусловно. Однако проблема политического лидерства тут особенно сложна. В силу своих психологических особенностей женщины трудно идут на объединение. Такие их качества, как эмоциональность, преклонение перед авторитетами, практически не утихающее в женской среде соперничество во всем многообразии его форм, блокируют солидарность в больших группах. Если же добавить к этому и занятость женщин в семье, быту, на производстве, то понятно, как сложно долго удержать «на плаву», например, женскую партию. Но если самостоятельная женская партия – пока возможная (сам принцип политической организации по признаку пола сомнителен) перспектива, то совершенно реально создание женских фракций в государственных органах всех ступеней, в партиях, различных общественных движениях, ассоциациях. Женщины могут объединиться во фракции, независимо от политических и идейных расхождений, для защиты своих специфических интересов, семьи, материнства и детства. Фракции могли бы выдвигать своих кандидатов на замещение руководящих должностей во всех звеньях государственного управления.

Нет такой сферы человеческой деятельности, которая бы могла «обойтись» без активного участия женщин, составляющих половину всего и одну треть самостоятельного населения Земли. Окрепшее, особенно в последние десятилетия, женское движение представляет сегодня силу, с которой нельзя не считаться. Проблемы положения женщин интересуют в наши дни не только прогрессивную общественность, ими занимаются межправительственные организации. Об этом свидетельствует тот факт, что почти все организации системы ООН в той или иной мере уделяют внимание вопросам прав женщин.

Особенно ярко проявляется энергия, воля и инициатива женщин в борьбе за прочный и нерушимый мир. Они заинтересованы в стабильности, покое и мире. В антивоенном движении отражается горячее стремление миллионов женщин и девушек - этих вековечных ненавистниц смерти – защищать человечество от угрозы уничтожения, продолжить человеческий род. Огромная роль в этом направлении принадлежит международным женским организациям и движениям.

Последовательно прогрессивные позиции как по важнейшим проблемам современной эпохи, так и по конкретным вопросам женского движения занимает Международная демократическая федерация женщин (МДФЖ), сплотившая под лозунгами борьбы за мир, национальную независимость, за права женщин и счастье детей десятки миллионов женщин. Вместе с МДФЖ и входящими в нее организациями в борьбе за мир, против гонки вооружений участвуют, хотя и в различной степени, многие национальные и ряд международных женских организаций.

Рост активности, динамизма, инициативности женского движения в борьбе за мир и социальный прогресс – это выражение неуклонно возрастающей роли женщин в современном мире. Все более активно участвуя в общедемократическом движении, женщины вносят существенный вклад в развитие мирового прогресса.

Для справки: в парламенте Швеции женщины составляют 40%, в Норвегии – 9,4%, в Финляндии – 33,5%, в Дании – 33%, в Азербайджане – 10,6%. Но у Азербайджана, как все уже давно поняли, во всем свой путь. Азербайджанские женщины в деле борьбы за свои права ведут себя крайне непоследовательно, то есть, они, конечно, хотят добиться уважения и признания, но как только речь заходит о конкретных шагах, былой пыл улетучивается. Они предпочитают оставаться незаметными в общественной сфере: либо в силу загруженности либо в силу отсутствия интереса к политике, либо из-за боязни стать публичной фигурой. Ярчайший пример – прошедшие парламентские выборы. Женщины-лидеры не смогли убедить женщин-избирателей в правоте своих доводов. В итоге дела с женщинами-депутатами обстоят не так хорошо.

**L.C.Mövsümova**
*f.e.d.*

## QADIN MƏSƏLƏSİNƏ TARİXİ BAXIŞ.

«Qadın məsələsi», yəni qadının cəmiyyətdəki rolu, onun tam azad olması, bütün ayrı-seçkilik formalarının aradan qaldırılmasının imkanları və yolları, qadının bütün

mülki, iqtisadi və sosial hüquqlarına görə kişi ilə bərabərləşdirilməsi, nəhayət, özünəməxsus qadın maraqlarının qorunması məsələsi – bütün bu problemlər bu gün üzə çıxmamışdır. Onlar qadına əsrlər boyu ikinci dərəcəli, bəzən sadəcə olaraq kişidən asılı yer verildiyi sinifli cəmiyyətin yaranması ilə meydana gəlmişdir. Bütün bu problemlər indi – XXI əsrin başlanğıcında da aktual məsələlər olaraq qalır.

Kimdə isə şübhə yarana bilər ki, cəmiyyət qarşısında çoxlu başqa böyük və mürəkkəb problemlərin həlli durduğu müasir dünyada qadının yeri və rolu kimi ilk baxışda belə spesifik görünən məsələləri müzakirə etməyə dəyərmi? Bu məsələləri bir qədər təxirə salmaq olmazmı? Biz isə belə düşünürük ki, bu gün ictimai təcrübəni və elmi bu problemlərə yönəltmək təkcə yeri gəlmiş deyil, habelə fövqəladə dərəcədə müasir və zəruri məsələdir.

Qadının cəmiyyətdə yeri məsələsini bəşəriyyətin tarixi inkişafı ilə sıx bağlı şəkildə, müxtəlif ictimai formasiyalarda meydana çıxan sosial-iqtisadi və siyasi şəraitdən asılı olaraq nəzərdən keçirmək lazımdır.

Qadının vəziyyəti problemi qabaqcıl mütəfəkkirləri qədim zamanlardan narahat etmişdir. Yüzilliklər boyu, kapitalizmə qədərki ictimai quruluşlar dövründə bu problem, başlıca olaraq, qadının, ümumiyyətlə cəmiyyətə nisbətən deyil, kişiyə nisbətən rolunu üzə çıxarmaq kimi irəli sürülürdü. Belə ki, lap kapitalist istehsalının meydana gəldiyi dövrə qədər qadının fəaliyyəti xüsusi, ev təsərrüfatı çərçivəsində məhdudlaşırdı və onun əməyi kapitalizm dövründə kəsb etdiyi ictimai əhəmiyyətə malik deyildi.

Quldarlıq quruluşunun qanunları və əxlaqı kişilərin qadın üzərində şəxsi mülkiyyət hüququnu təmin edirdi. İri torpaq sahiblərinin və ruhanilərin mənafeyini qoruyan feodalizm quruluşu qadının alçaldılmış vəziyyətini təsbit edir və bu vəziyyətlə barışmayanları amansızcasına təqib edirdi. Kapitalizm quruluşu qadın əməyindən geniş istifadə etməyə və onu istismar etməyə başladı. Həmin quruluş dövründə qadın istehsalatda da, evdə də ağır yük çəkməli oldu.

Beləliklə, qadın sinifli cəmiyyətdə əsrlər boyu ən hüquqsuz və məzlum, istismarın, zorakılığın və cəhalətin başlıca qurbanı olaraq qalırdı.

Bu gün həyatın bütün sahələrini bürüyən dəyişikliklər qadının cəmiyyətdə yeri, qadınla cəmiyyətin, ailə ilə dövlətin qarşılıqlı münasibətləri, cinslərin münasibəti məsələlərinə yenidən baxılmasını zəruri edir. Yetmiş ildən artıq davam etmiş ictimai maraqların şəxsi maraqlardan üstünlüyü ideologiyasının hakimiyyəti dövründə komanda-amiranəlik sisteminin mövcudluğu və vətəndaş cəmiyyətinin əsas institutlarının inkişaf etməməsi, sosial himayədarlıq, insanın dövlətdən hərtərəfli asılılığı geniş xalq kütlələrində laqeydlik psixologiyası doğurdu.

Bu təzahürlər tədricən keçmişdə qalmaqdadır. Artıq bütün dünyada siniflərin mənafelərini ifadə edən dəyərlərin yerini ümumbəşəri dəyərlər tutur, totalitar rejim demokratiya ilə əvəz olunur, amiranə-bürokratik sistem öz yerini yavaş-yavaş bazar iqtisadiyyatına verir və daha mühüm olan odur ki, dövlət idarəçiliyi sahəsində dövlət paternalizmindən və şəxsiyyət idarəçiliyindən vətəndaş cəmiyyətinə keçidin baş verməsinin zəruriliyi idarəçilərin də, idarə olunanların da xəbərdar olduğu bir gerçəklikdir. Ancaq qeyd olunmalıdır ki, biz bu yolun başlanğıcındayıq.

Son illər ölkəmizdə qadın hərəkatı, onun mənəvi və əxlaqi potensialı inkişaf etməyə başlamışdır. Millətlərarası əlaqələr güclənir, qadın təşkilatları, birlikləri öz aralarında canlı, əməli işə keçirlər. Bu sahəyə aid nəzəri araşdırmalarda da irəliləyişlər gözə çarpır. Cəmiyyətimizin ən böyük və nüfuzlu qrupu dəyişikliklər prosesinə daha fəal qoşulur. Bu fəallıq başadüşüləndir. Respublika ictimaiyyəti hamıdan çox qocalara, uşaqlara və qadınlara əziyyət verən dərin siyasi və iqtisadi böhranın güclü zorakılıq, millətçilik və ekstremizm dalğasının acısını daddığından onların bütün izlərini silmək, artıq aradan qaldırılmış təsirlərinin geri qayıtmasına, yenilərinin törənməsinə mane olmaq əzmindədir. Cəmiyyətdəki çətinlikləri və gərginlikləri aradan qaldırmaq, onun geniş və dərin şəkildə demokratikləşdirilməsi və humanistləşdirilməsi, bazar

iqtisadiyyatına keçid, aşkarlıq və özünüidarənin inkişafı, təhsilin və mədəniyyətin səviyyəsinin yüksəlməsi – bütün bunlar qadınların yaradıcılıqla və maraqlı tərəf kimi iştirakı olmadan mümkün deyil. Bütün ölkələrin azadlıq hərəkatlarının təcrübəsi də göstərir ki, onların uğur qazanması qadınların onlarda iştirakından çox asılıdır. XXI əsrin başlanğıcında bu fakt ictimai həyatın bütün sahələrinin demokratikləşdirilməsi təcrübəsi ilə təsdiq olunur.

Elə müasir insan hüquqları konsepsiyası da, vətəndaş cəmiyyətinin prinsip və kriteriləri də, ictimai həmrəyliyin və sülhün prioritet tələbləri də qadının azadlığı, onun müxtəlif cəhətlərdən inkişafı problemini ön plana çəkirlər. Bu məsələ indiki sivilizasiyanın mərkəzi məsələsidir. İstənilən insanın, planetimizin istənilən ölkəsinin istənilən qadın vətəndaşının azad və xoşbəxt yaşamaq hüququ vardır.

Bunu ona görə xüsusi göstərmək lazım gəlir ki, qadının mənşəyi haqqında mifin doğurduğu təsəvvürlər uzun müddət şüurda möhkəmlənmiş və qorunub saxlanmışdır. Qadının cəmiyyətdə və ailədə yeri də elə bununla müəyyənləşdirilirdi. Onun bütün fəaliyyəti, başlıca olaraq yalnız ailənin, evin qayğısına qalmaqdan və kişiyə xidmət etməkdən ibarət olmuşdur. Geri qalmış ənənələr və adi şüurun uydurduğu xürafat (adi şüur zehniyyəti), mürtəce vərdişlər və təfəkkür stereotipləri, ağır bəla olan məişətçilik «xəstəliyi» əsrlər boyu qadına zülm etmiş, hələ indi də onu alçaltmaqda davam edir, şəxsiyyətin özünəməxsus xüsusiyyətlərini yox edib, qəlbini qırıb, mənəviyyatına ikiüzlülük və ikili əxlaq aşılamaqla simasızlaşdırır.

Bu gün vəziyyəti dəyişdirmək, qadın məsələsinə yeni baxış formalaşdırmaq, onun yeni əsrin başlanğıc illərində və daha sonrakı perspektivdə həlli üçün imkan yaranmışdır. Dünyada baş verən dəyişikliklər həyat tərzində, əmək və ictimai fəaliyyət sahələrində, qadınların həyati maraqlarının və ziddiyyətli cəhətlərinin bütünlükdə cəmiyyətin həll etmədiyi bir çox iqtisadi, sosial, siyasi və mənəvi problemlərlə çulğaşması nəticəsində əmələ gəlmiş dərin deformasiyaları da işıqlandırdı. Ancaq bütün deyilənlərin uğurla həyata keçirilməsi bütün indiki sivilizasiyanın

səylərindən asılı olduğu kimi, qadınların özlərinin ictimai fəallığından da asılıdır. Qadının cəmiyyətdəki maddi və mənəvi azadlığının geniş təzahür diapazonu vardır. O, elmi-texniki inqilabın, mədəniyyətin, demokratiyanın, humanizmin nailiyyətlərinə söykənir, özündə intellektual azadlığı, təkcə həqiqət axtarışında deyil, həm də yaxşılıq (xeyir) və gözəllik axtarışında da əxlaqi idealı əhatə edir. İndiki elm, ədəbiyyat, incəsənət insan təbiəti və bütünlükdə bəşəriyyət haqqında ardıcıl olaraq obyektiv bilik axtararkən elə buna əsaslanırlar.

İndi qadın məsələsinin məzmunu dəyişilir, onun mərkəzi problemi olan qadınların kişilərlə tam faktiki hüquq bərabərliyi probleminin həlli isə yenə də gündəmdə qalır. Ancaq böyük dövrləri əhatə edən bu olduqca geniş çərçivələrdə də yeni yönlər, yeni tendensiyalar üzə çıxdığı kimi, keçmişi hətta onun patriarxal formalarında dirçəltmək cəhdi də meydana gəlmişdir.

Bu sırada şəxsiyyət tərbiyəsi problemləri təfəkkürün ən dərin əsaslarına və cəmiyyətin bütün üzvlərinin davranış normalarına toxunur. Bacardıqca bütün qadınlara bazar iqtisadiyyatı münasibətlərinə, indiki cəmiyyətin yeni tələblərinə və dəyişən şəraitinə alışmağa, əmək, siyasət və mədəniyyət sahələrində növbəti tapşırıqların həllinə üzvi surətdə qoşulmağa kömək etmək – qadın hüquq və azadlıqlarının, onun şərəf və ləyaqətinin təmin olunmasının real yolu budur.

SSRİ-nin dağılması ilə sosializm quruluşunun qadın məsələsində formalaşdırdığı ictimai və dövlət tədbirləri kompleksi də dağıldı. Bunların yenidən bərpası və yenilərinin işlənməsi heç də bir günün işi deyildir. Odur ki, XX əsrin 90-cı illəri bu sahədə də, başqa sahələrdə olduğu kimi, insanların çoxlu çətinliklərlə üzləşdiyi dövr kimi yadda qalacaq. Bunun bu və ya başqa iqtidardan, bu və ya başqa idarəçi şəxsdən asılı olub-olmaması məsələsini qoy siyasətçilər həll etsinlər. Biz isə bütün cəmiyyəti saran bu reallığın qadınlardan da yan ötmədiyini qeyd edir və cəmiyyətdə sabitliyin artması, ictimai və dövlət institutlarının təkmilləşməsi amilinin qadın məsələsinin həlli üzrə mükəmməl tədbirlər kompleksi işləyib hazırlamaq üçün

şərait yaratdığını görürük. Artıq qadınların ağır fiziki və yaradıcı olmayan əməkdən azad edilməsini, onların ixtisas və təhsilinin daha da yüksəldilməsini, şəxsiyyətlərin özünü reallaşdırması üçün stimulların, analığı əmək fəaliyyəti və ictimai fəaliyyətdə iştirakla uğurla uyğunlaşdırmağa imkan verən şəraitin yaradılmasını nəzərdə tutan ictimai və dövlət tədbirləri kompleksinin bitkin formaya salınması vaxtı gəlib çatmışdır. Bu sahədə iş aparılmadığını demək ədalətsizlik olardı. Bizim təklifimiz isə görülən işləri inkar etmək deyil, təkcə maddi deyil, həm də mənəvi-əxlaqi cəhətdən cəmiyyətin marağına uyğun olan qadın əməyinin özünün daha səmərəli təşkili və istifadəsi imkanlarının tükənmədiyini nəzərə çatdırmaq məqsədi güdür.

Demokratikləşdirmə şəraitində qadınların ictimai-siyasi həyat sahəsində fəallığı, onların dövlət səviyyəsində mühüm qərarların müzakirəsi və qəbul olunmasında iştirakı üçün ilkin şərtlər yaranır. Son zamanlar bütün sivilizasiyalı dünyada özlərini təkcə istehsalatda, elmdə, təbabətdə, pedaqogikada deyil, həm də guya əsl kişi işi olan siyasətdə göstərən qadınların sayı artır. Coşğun sosial və elmi-texniki tərəqqi şəraitində milyonlarla qadın adi ev qarovulçusundan daha çox cəmiyyətin iqtisadi, siyasi və sosial həyatının təsiredici amilinə çevrilir.

**Rauf Məmmədov**
*Fəlsəfə elmləri namizədi*

## QENDERİN SOSİOMƏDƏNİ ASPEKTLƏRİ

Mədəniyyət fenomenini ənənəvi postklassik sosial elmlərin metodologiyasıyla deyil, yeni nəzəri-metodoloji əsaslarla öyrənməyə üstünlük verən qender sahəsi, sosial ədalətsizliyin səbəbini cinslərin sosial rol və funksiyalarını müəyyənləşdirən mədəni dəyərlər sistemində gördüyünə görə sosiomədəni inkişafın yeni alternativ fəlsəfi konsepsiyasını ortaya qoyur. Sosial ədalətsizlik problemləri mənşəyinin əsrlərlə formalaşan patriarxal mədəni stereotiplərdə, milli mentalitet elementlərində axtarılması dünya mədəniyyəti tarixinə, ümumiyyətlə humanitar elm

sahələrinə və sivilizasiyaların mədəni inkişafının təməlində dayanan dini təlimlərə «yeni baxış» tələb edir. Ənənəvi cəmiyyətlərin inkar olunmasına və yeni postmodernist cəmiyyətlərin formalaşmasına şərait yaradan bu sosial-mədəni islahatlar, Qərb cəmiyyətləri üçün obyektiv tarixi zərurətlərdən irəli gələn pozitiv bir hadisə kimi qiymətləndirilir. Bu baxımdan qeyri-ənənəvi mədəniyyəti təmsil edən Qərb sivilizasiyası, ənənəviçilik prinsipinə əsaslanan Şərq sivilizasiyaları ilə toqquşur.

Avropada insan hüquqları problemlərinin aktuallaşması ilə əlaqədar ortaya çıxan siyasi feminizm və ya qadın hərəkatı tarixi prosesləri, tədricən qender nəzəriyyələrinin yaranmasına səbəb olmuşdur. Deməli, qender sahəsi cəmiyyətin sosial-mədəni inkişafında bir tarixi zərurət kimi meydana çıxmışdır. Feminizm tarixin patriarxal inkişafında formalaşan mədəni dəyərlərə qarşı çıxaraq, onların qadınların hüquqlarına zidd olduğunu, kişilərin qadınlar üzərində hakimiyyətini bərqərar etdiyini, sosial rolların ədalətsiz şəkildə bölüşdürülməsinə şərait yaratdığını bildirir və bundan çıxış yolunu yeni sosial-mədəni, siyasi-iqtisadi və hüquqi islahatların keçirilməsində (liberal-islahatçı feministlər), bəziləri isə təcrid edilmiş qadın cəmiyyətlərinin yaranmasında (mədəni feministlər) və ya qadınların istismarının əsas səbəbi kimi xüsusi mülkiyyətin aradan qaldırılmasında görürlər (sosialist feministlər). Lakin insan hüquqları və demokratiya sahəsində inkişaf etmiş Qərb cəmiyyətlərində iqtisadi imkanlar daxilində qender problemlərinin bir çoxu aradan qaldırılsada, problemlər yenə də mövcuddur. Xüsusilə bu problemlər, müasir Qərb cəmiyyətinin daxili ziddiyyətlərindən irəli gələn yeni ekoloji, demoqrafiq problemlərdir. Bunun üçün informasiyanın inkişafıyla əlaqədar sürətlə qloballaşan dünya cəmiyyətinin antroposentrizmlə deyil, biosferosentrizmlə əlaqədar «yeni humanizm» ideyalarına ehtiyacı vardır. Qender problemlərini aradan qaldırılması problemləri də qismən «yeni humanizm» ideyalarının gerçəkləşməsindən asılıdır.

Patriarxal mədəniyyətdə insan fenomeni «kişi» cinsini ehtiva edir, qadının defininasiyası isə mədəni dəyərlərdə formalaşan «insan» məfhumundan yan keçir. Məsələn, Qərbdə «İnsan və Vətəndaş hüquqları» deklarasiyası yanlız kişiləri

nəzərdə tutduğu üçün 1792-ci ildə Olimpiya De Quj «Qadın və Vətəndaş hüquqları» deklarasiyasını yazmış və buna görə də edam edilmişdir. Təbii ki, Qərb cəmiyyətində feminizmin yaranmasına səbəb olan bu kimi bir çox amillər vardır. Buna görə də qadının sosial varlığının inkarı üzərində formalaşan patriarxal hakimiyyətin «bioloji üstünlük» və antroposentrizm prinsipi feminizm tərəfindən inkar edildi. Güclü kişi, zəif qadın hesabına güclü olur. Patriarxal dəyərlər, zəif və imkansız təbəqələr üzərində güc və hakimiyyəti tərənnüm edən ümümbəşəri dəyərlər iyerarhiyasında önəmli yerləri tutuduqları halda, qadınla bağlı dəyərlər məhdud xarakter daşıyır. Qədim miflərdə qadın su və torpaqla, kişi isə güc və hakimiyyətlə, təbiəti ram etməklə əlaqələndirilir. Qadın ilahilər formasız, nizamsız, xaosla və sonsuzluqla bağlıdır.

Təbiətin nizamında, cəmiyyətin əxlaqında və bütün fenomenlərdə təzahür edən obyektiv maddi və mənəvi ölçülər sistemi qanun və qanunauyğunluqlar, prinsip və ya kateqoriyalar, hüquq və əxlaq normaları şəklində dərk olunaraq sosial-mədəni dəyərlərə çevrilir. Bütün bu ölçülər sisteminin mərkəzində dayanan insan həm dəyərləndirilən, həm də dəyərləndirəndir. Universal ölçülər sisteminin məqsədinə çevrilən və obyektiv dəyərləndirilən insan, dəyərləndirən bir varlıq kimi mövcud fenomenləri qismən dərk edərək elmi-mədəni dəyərlər sistemi yaradır. Lakin dəyərləndirilən obyektiv dəyərlər sistemi insanın dəyərləndirməsinə görə mövcud deyildirlər. Onlar mövcud olduqları üçün insan onları dəyərləndirir. Eyni zamanda insanı əhatə edən sosial-mədəni fenomenlərin mövcudiyyəti dərk olunduqları üçün deyil, var olduqları üçün dərk olunur. Varlığın dəyişməz qanunauyğunluqlarını təşkil edən bu Mütləq Ədalət ölçüləri onu dəyərləndirməyə çalışan insana xidmət edir. Bu ölçülər insanın fitrətindən və ya onun fitrətinin ayrılmaz bir hissəsi olan dindən əxlaqa, əxlaqdan dövlət hüququna sirayət edərək, sosial həyatın bütün institutlarına, sosial münasibətlər sisteminə və bu münasibətlərin qender ölçülərinə keçir. Lakin bu obyektiv dəyərləndirilən ölçülər, dəyərləndirən insanın əxlaq və təfəkküründən süzülərək, cəmiyyətdə daima hökm sürən xeyir və şər ideyaları formasında meydana çıxır. Lakin dəyərləndirən insan şəri dəyərləndiyi sistemlərdə deyil, obyektiv dəyərləndirilən

sistemlərdə və ya özündən kənarda olan digər mədəni sistemlərdə axtarmağa meyl edir. Şərin əxlaqi deyil, ontoloji olaraq dəyərləndirilməsi, mədəniyyətlərarası qarşıdurmaya və ya mədəniyyətin əsasını təşkil edən cinslərin qarşıdurmasına şərait yaradır.

Qadın və kişinin bioloji olaraq fərqli yaradılışı təsadüfi deyil, təbiətin yaradılışını tamamlayan zəruri bir hadisədir. Qadın və kişi fenomenləri yanlız öz daxili ölçüləri sistemində mövcuddurlar yəni onların mövcudiyyəti bu sistemin fövqündə mümkün deyildir. İnsan hər bir varlığın ölçü sisteminin başlanğıc və son nöqtəsi kimi tam bir varlıqdır. Lakin bu tam ölçülərdə həm qadın, həm kişi, həm də digər varlıqların ölçülər sistemi vardır. Bu sistem fitri, bioloji, əxlaqi, sosial-mədəni ölçülərin vəhdətindən yaranan sistemdir. Cəmiyyətdə yaranan sosial-mədəni dəyərlər, əxlaqi normalar cinslərin özünəməxsusluğunun qorunub saxlanılmasına xidmət etməlidir. Lakin qender ölcülərinin pozulduğu sosial-mədəni mühitdə, əxlaqi normalarda və bioloji deformasiyalarda cinslərin tamını təşkil edən hissələrin ölçüləri inkişaf edə bilər və nəticədə hissə tamdan məhrum olar.

Bu gün tez-tez işlənən «qender bərabərliyi» və ya «qender tarazlığı» kateqoriyaları qadın və kişi arasında olan təbii fiziopsixoloji fərqləri arxa plana keçirərək, əsasən onların sosial-mədəni həyatda olan fərqlərini üzə çıxarır. Cinslərin cəmiyyətdəki sosial-mədəni rol və funksiyalarını tənzimləmək üçün onların təbiətlərinə zidd çıxmağa ehtiyac yoxdur. Onların varlığının mənası, vəzifə və funksiyası ilə bir bütünlük təşkil etdiyini nəzərə almaq lazımdır.

Qadın və kişinin sosial-mədəni münasibətlərini tənzimləyən hüquq normaları qender problemlərinin ayrılmaz bir hissəsi olduğu kimi, həm də insan hüquqlarının tərkib hissəsidir. İnsanları sosial-mədəni hüquqlarına görə bərabərləşdirmək insan hüquqlarına ziddir. Çünki, mənəvi və fiziki imkanların düzgün dəyərləndirilməməsi, sosial ədalətin pozulmasına şərait yaradır. Riyazi məntiqə görə bərabər olan və olmayan yanlız müqayisə olunanlar arasında tətbiq oluna bilər. Məsələn alma və nar hər ikisi meyvə olsada, onlar öz keyfiyyət və xüsusiyyətlərinə görə bərabər ola bilməzlər. Qadın və kişinin də cəmiyyətdə bir cins olaraq özünəməxsus sosial-mədəni rol və funksiyaları vardır ki,

onları nəzərə almadan onların hüquqlarını təmin etmək mümkün deyildir. Qadın və kişinin hüquqları onların özünəməxsus təbiətində olan əxlaqi ölçülərdə tənzimlənmişdir. Bu baxımdan onların bioloji missiyasından uzaqlaşması onların əxlaqi baxımdan geriləməsinə də səbəb olur. Əgər bütün hüquq və azadlıqların əxlaqi dəyərlər üzərində formalaşdığını nəzərə alsaq, onsuz azadlıq və hüquqların quru sözdən başqa bir şey olmadığı qənaətinə gələrik.

Feministlər öz hüquqsuzluqlarını kişilərin patriarxal cəmiyyətinin mədəniyyəti ilə əlaqələndirirlər. Onlar fiziki gücə əsaslanan sosial-iqtasadi inkişaf tarixini, hüquq normalarını kişilərin varlığı üzərində formalaşdığını söyləyirlər. Deməli fiziki baxımdan güclü olan kişilər qeyri-qanuni yollada olsa, iqtisadi resursları öz əlində toplamış və cəmiyyətin nizamını müəyyənləşdirmiş, fiziki baxımdan zəif olan qadınlar isə bu iqtisadi resurslardan məhrum olduqları üçün kişilərin qurduqları sosial nizama tabe olmuşlar. Güclülər haqlı olduqları üçün güclü deyil, güclü olduqları üçün haqlıdırlar. Gücsüzlər isə haqsız olduqları üçün gücsüz deyil, gücsüz olduqları üçün haqsızdırlar. Əlbəttə bütün bunlar ilahi Ədalətin və ya sosial ədalətin pozulduğu cəmiyyətlərdə haqqa deyil, var-dövlətə əsaslanan gücün fəlsəfəsidir. Lakin bu güc fəlsəfəsini qadın və kişi qarşıdurması kimi qoymaq da düzgün deyildir. Çünki, həmişə kasıb qadınların hüququnu varlı kişilər, kasıb kişilərin hüquqlarını da varlı qadınlar pozurlar. Eyni zamanda varlı təbəqələr kasıb təbəqələri, varlı zümrələr kasıb zümrələri, varlı dövlətlər kasıb dövlətləri istismar edirlər. Məhz bu varlı təbəqələr ilk öncə ilahi mətnləri öz mənafeləri üçün təhrif etmiş və sonralar onlar üzərində formalaşan qanunları öz xeyirlərinə dəyişmiş və öz haqsızlıqlarına, zorakılıqlarına haqq qazandırmaq istəmişlər. Məhz qadın və kişilərin, yaxud insanların hüquqlarının pozulması buradan qaynaqlanır. Qender problemləri bu baxımdan qadın və kişinin sosial-mədəni qarşıdurması deyil, bu əslində sosial ədalətin bərpa olunmasını təmin edən insan hüquqları problemidir. Çünki, cəmiyyətdə sosial ədaləti pozan kişilər deyil, qadın və kişilərdən ibarət müəyyən sosial təbəqələrin hər şeyi öz şəxsi mənafeyi üzərində quran elitar mədəniyyətdir. İqtisadi resursları öz əlində cəmləyən bu elitar mədəniyyətin hakimiyyəti

zülmə əsaslandığı üçün, onu təmsil edən cinslərin yanlız bir «zülmkar» sifəti vardır. Deməli, hüqüqsuz və əxlaqsız cəmiyyətdə güc fenomeni iqtisadi resursları qanunsuz yolla əldə etmək və bundan məhrum olan zəif insanları öz şəxsi mənafeyinə tabe edərək istismar etməkdir. Qadın və kişinin şəxsi keyfiyyətlərindən deyil, onların yaşadığı sosial mühitdə formalaşan bu «güc», cinslərin mənafeyini deyil, yanlız bu hakimiyyətin qorunub saxlanılmasını qarşısına məqsəd qoyur.

Müxtəlif sosial təbəqə və zümrələrdə birləşən qadın və kişilərin ilkin sosiallaşması prosesi ailədən başlayır. Ailə daxilində qadın və kişi münasibətlərinin tənzimlənməsi sosial nizama da öz təsirini göstərir. Cəmiyyətdə nəslin, tayfanın, zümrənin mənafeyinə əsaslanan ədalətsiz hakimiyyəti qoruyub saxlayan kişini və eyni zamanda bu ədalətsizliyə qarşı mübarizə aparan qəhrəmanı da tərbiyə edən yenə qadınlardır. Bu baxımdan qadınlar cəmiyyətdə olan proseslərin həm ön, həm də arxa planında fəal iştirak edirlər. Bu baxımdan cəmiyyətdə insanlar cinslərinə görə deyil, öz vicdan və əqidələrinə görə ədalətli və ədalətsiz insanlara bölünürlər. Ədalətli cəmiyyətdə cinsindən asılı olmayaraq bütün insanların təbii hüquqları və onların istedad və bacarığına görə sosial-mədəni hüquqları təmin olunur.

Bu problemin aradan qaldırılmasını bir çox filosof mütəfəkkirlər ictimai mülkiyyətin və onun əsas formalarından biri olan ailəni aradan qaldırmaqda görürdülər. Marksizmin sosializm rejimində qadın və kişi bərabərsizliyini aradan qaldıracağı ideyasını da solçu qadın təşkilatları təmsil edirdilər. F. Engels «Ailənin, mülkiyyətin və dövlətin əsası» əsərində qeyd edir ki, ilk iş bölümü və ilk sinif düşmənçiliyi, qadın və kişinin uşaq böyütməkdə olan iş bölümüylə və kişinin qadını döyməsiylə başlar. Klassik marksistlərə görə xüsusi mülkiyyət aradan qalxar, boşanma asanlaşar, uşaqlar tərbiyə ocaqlarında qalar və din ortadan qalxarsa, sinif sistemidə ortadan qalxacaqdır. Beləliklə feministlər arzu etdikləri sinifsiz, dinsiz, cinsiyyətsiz dünya nizamına sahib olacaqlar. Bu məqsədə çatmaq üçün qadınlar bioloji varlığından imtina etməli və dünyaya uşaq gətirməməli və vaxtlarını onların tərbiyəsinə sərf etməməlidirlər. Libaral-reformist və radikal feministlər patriarxal özbaşınalığa qarşı öz hüquqlarını hüquqi reformaların keçirilməsiylə, marksist feministlər isə bu

problemlərdən çıxış yolunu istismarçı kapitalizmin xüsusi mülkiyyət və sinfi quruluşundan qurtulmaqla mümkün olduğunu düşünür və öz üstünlüklərini kişilərə sübut etmək, onlardan intiqam almaq üçün bircinsli utopik androgen cəmiyyətin formalaşmasını istəyir. Əlbəttə, bu cür düşünən qadınlar cəmiyyətin sosiopsixoloji faciəsini yaşayan qadınların reallığıdır.

**Ph.d. Rauf Mamedov**

## THE ROLE OF THE RELIGIOUS LIBERTY OF AZERI WOMEN IN THE SOCIO-POLITICAL LIFE

The collapse of the World communist system and formation of the Newly Independent states (NIS), and their entering on the way of democracy promote them to accept all human values and achievements of the modern western civilization.

Azerbaijan being in the transition is suffering a deep change in the field of democracy and human rights. These values are very urgent for the Azerbaijani society. Citizens religious liberty is very important for building of just democratic society, dignity of individ and civil society is in his or her religious liberty. Democratic society creates favorable political, social and moral possibilities for realization of natural right of man on religious liberty not depending on gender, nationality, race, and political opinions. Man, as a creator of spiritual values, has right to religious liberty which promotes him or her to pursue religious belief without ideological coercion. Recognizing of this right promotes the unification of humanity on the democratic bases. Without women's participation in the democratization process we can not come to great achievements. Therefore, socio-philosophical investigation of the role of the religious liberty of the Azeri women in the socio-political life is very urgent.

The investigation of this problem will define ways and means of political, economic, and social development, particularly of the Modernization of the Azeri society by borrowing values and achievements of the modern western civilization. Azeri men and women have religious liberty

according to the Constitution of Azerbaijan. However, the majority of women are not able to realize their rights and opportunities in democratic society. The main cause is the influence of the feudal survivals on the post-communist social environment. These survivals are being expressed in some peculiarities of national character. These problems of the society create such questions as: how women understand their freedom and rights in the society; Are they able to participate in the democratic processes?

For the first time in the history of socio-philosophical thought of East and West I put forward the problem of religious liberty of Azeri women. This problem has great important for the world community. Presently, women want to be equal in rights with men. Their willingness is determined by the history. Modern women have been actively involved in politics, business, highly technological production, sport and in other fields of human activity. Contemporary gender statistics proves that Azeri women lag behind from developed democratic states in realization their rights and liberty.

Marxism separated religion from consciousness, on the one hand, it substituted it by another atheist belief, on the another hand (religion without God). Marxism was not right spreading the atheist idea and scientific-materialist world outlook for all people, by persecuting and killing them. In 1937 USSR was proclaimed as a state of atheists. But they forgot that religion is the essence of man. Because the term "religion" is demoted as "Din" in the East, which ethimologically derives from Avestian word "Daena" meaning" consciousness. "Daena" derives from verb "da" – meaning "to see, cognize". Therefore, religion and consciousness are the same essence by which we see, cognize the world.

There are following types of women in relation to religion and atheism: 1) believers (convinced and unconvinced); 2) vibrated (nondifferentists and ritualistic); 3) atheists (active and passive).

In the consciousness and psychology of the first type the central place is taken by he notion about Allah which corresponds to Islam. This category of women is in majority: from

244 respondents 166 (77.2%) called themselves as believers. Age and education are different. Among them there are women with higher education. The majority of the surveyed are satisfied by material conditions (95%), flat (37.2%) by relation to family (98%), by their health (98%). That category women spend actively their time, leisure by reading books, journals, 42% of women have private library. Some (thought very less) are involved in public activity. They fight against negative phenomena taken place in the society. They receive religious knowledge from different sources including TV and radio, from conversations with believers, from religious literature. Those women know positive and negative influence of Islam on historical development. Some of them strictly obey prescriptions of Koran to celebrate holidays and rituals. However, those women are only 30% from all believer women. They do not believe astrology and extrasensory. The second types of women are vibrated ones. In their daily life religious orientation take important, but not leading place. In the life of that group traditions have very important role in comparison with the believers. They are superstitious rather than religious. They are involved in labor and public activity, but among them there are housewives. They can be subdivided into 2 groups: inclined to Atheism, and inclined to religion. Generally they have atheist consciousness, though they are not free from influence of religion in estimation of family. They can not understand the essence of natural and social events from scientific-materialist positions. Characterizing those women we can call them as optimistic. The level of life of women, (their flat situation, family relations friend connections) are positive.

The women of this category are actively spending leisure; watching TV, hearing radio, reading newspapers, books, going to cinema, educating children, promoting their skills.

The third types are nonbelievers. This type includes 1.8% of the surveyed women, who do not believe in God consider themselves as nonbelievers. But they do not regard themselves as atheists. They are in ages from 25 to 39 with secondary education. They are passive in public life. Their secondary education is under post-communist atheist influence, which

believe that Islam had negative role in the history of the Azerbaijani people in its cultural development. They do not have holiest places and do not believe in predictors. They are not interested in how they children will be educated.

The fourth types are atheist women. They are in minority. They do not believe in God and non- natural force. But they do not consider it is necessary to fight against religion. They have secondary and special education and works or go in for public activity. They are 14% from all surveyed. They are passive in social and private life. They do not fight with cults and negative phenomena. They believe that Islam has negative role in present time. But they note also positive role of Islam, since it strengthens family, develop national culture and unify people.

Presently democratization of women's role in society must show itself primarily in free choice of her social role in each period of life. According to the law on free of consciousness women have the similar rights to choice between religious and atheist world outlook. They can upbringing their children according to their believers. Social investigations shows that part of women do not declare about their religious of foliation. It is a consequence of the psychology women's nature, peculiarity of the essence of her emotion, feeling, vulnerability, incline to the mercy, compassion, which have deep social roots. The sociological research proved that social progress, economic and cultural development led to changes of moral status of modern woman.

Presently the consciousness of the believer women suffers the essential changes. There are following tendencies:

1) Decreasing fanatism and blind acceptance of religious dogmas, deepening between religious values and real behavior of believers; falling down of trust to religious dogmas which are contradiction to science; transference of the religious ideas and opinions to the scope of consciousness to the field of subconscious; unification of religious ideals with socio-ethical principles.

2) Women of all mentioned types together with men take part in production and public work. They are totally differed from women of the 30-40's. Social and scientific-technological

progress caused great transformations not only in daily life, but also in religious consciousness of believer women.

That is why the modern conception of human right, principles and criterions of civil society, priorities of social consensus and peace promote the women's liberation and their development. This is main question of modern civilization.

Democratization of woman's situation in the society should be openly shown in her freedom of choice of her social role in each periods of the life, creation of conditions for alternative choice.

**Həcər Qasımova**

## MÜASİR DÖVRDƏ QADIN PROBLEMLƏRİ.

XXI əsr inkişaflar dövrü olmaqla yanaşı həm də qadın problemi adlanan yeni məsələni ortaya çıxardı. Söhbət təkcə qadın problemlərinin yaranmasında deyildir.

Əvvəllər ümumiyyətlə qadın məsələsi dedikdə, heç bir çətinlik olmadan feminizm başa düşülürdü, indi bu fikir cender anlayışında kökündən dəyişilib. Fikrimizcə elə bu amil «cender» elminin əsasında durur. İnsan amili müasir cəmiyyətə, müasir sivilizasiyaya, dünyagörüşünə təsir edərək qadının müasir dünyada yeni aktual poblemlərini meydana çıxarır. Cəmiyyətin gələcək inkişafı qadınlarsız mümkün deyil. Cəmiyyətin əsasən çoxluğunu təşkil edən bu hissə – cəmiyyətin inkişafı və tərəqqisi, çətin problemlərin həlli, ədalətli, humanist və demokratik bir dövlətin yaranmasında başlıca rol oynayırlar. Müasir mədəniyyət və cəmiyyətin təzələşməsində – hər iki cins – qadın və kişi birlikdə fəaliyyət göstərirlər. Son dövrdə birgə işlərdə qadınların fəaliyyəti getdikcə artır. Qadınlar öz hüquqları uğrunda daha da qəti mübarizə aparırlar. Qadın şəxsiyyəti mədəniyyətin inkişafında öz rolunu göstərir. Hər bir ölkənin vətəndaşının cinsindən asılı olmayaraq, azad və xoşbəxt olmağa hüququ var.

Müstəqil respublikamızda qadınlar nəinki öz işlərində, həm də öz hərəkətlərində də azaddırlar. Mən burada yaxın keçmişimizə nəzər salsaq belə misal gətirərdim: Buna

baxmayaraq, onlar ümumbəşəri mədəniyyətdə, iqtisadiyyatda, təhsil və tibbdə olan fəaliyyətlərində azad deyillər. Azərbaycanın dirçəlməsi və inkişafı üçün Azərbaycan qadınlarının maksimum köməyi lazımdır. Azadlıq yalnız o yerdə olar bilər ki, insanlar öz problem və çətinliklərini ağıl, bilik və demokratik metodlarla həll etsin.

Qadının müstəqilliyi özünü azadlığın dərinliklərində əks etdirir. İqtisadiyyat və ictimai həyat hər bir qadına öz istədiyi peşəni, sosial və mənəvi azadlığı verə bilər. Əslində iqtisadi demokratiya hər qadının arzusunun təminatçısı olmalıdır və iqtisadi həyatda onun rolunu təmin etməlidir. Demokratik xalq hakimiyyəti və yaradıcı şəxsiyyətin fəallığı onun cinsindən asılı olmayaraq – müstəqil dövlətin əsas ideyası olub cəmiyyətin yeniləşməsində mühüm rol oynayır. Hər bir qadının maddi və mənəvi azadlığı – elm və texnikanı, mədəniyyəti, demokratiyanı, humanizm, həmçinin intellektual müvəffəqiyyəti və idealı onun dünyagörüşündə öz əksini tapır.

Bu cəhətdən yeni dünyagörüş qadının bir şəxsiyyət kimi tərbiyə olunmasında böyük rol oynayır. Umumtərbiyənin keyfiyyətinin yüksəlməsində qadın və ümumi cəmiyyətin mənəvi və fiziki sağlamlığının yaxşılaşması vacibdir.

Məlumdur ki, - insan təbiəti, onun azadlığı, nəinki onun maddi vəziyyətindən, həmçinin onun mənəviyyatından– mədəniyyətindən, peşə hazırlığından asılıdır. Qadın məsələsinin həllində təkcə onun xarici keyfiyyətlərinin formalaşması və dərin şəxsi dəyişikliklər vacib deyil, çünki qadının ən yaxşı keyfiyyətləri onun daxili xüsusiyyətlərindəndir.

Hal-hazırda dövlətimizin 53 faizini qadınlar təşkil edir ki, onların 51 faizi işləyir. Milli gəlirin 45 faizi onların üzərinə düşür.

Cəmiyyətin qadın əməyində marağı olduğu kimi, qadınların da bunda təkcə maddi deyil, həm də mənəvi marağı vardır. Sosial sorğu göstərir ki, soruşulanların 80 faizi istehsalatda işləmək istəyir. Qadının hüquq və azadlığının real yolu – hər bir qadının yeni bazar iqtisadiyyatında, yeni tələbata və tez-tez dəyişən cəmiyyətin şərtlərinə uyğunlaşması, asanlıqla yeni siyasi və mədəni məsələlərin həllinə qoşulmasıdır.

Təşəbbüskarlıq və işgüzarlıq – bazar iqtisadiyyatına keçidə qadının azad, yaradıcı şəxsiyyət kimi rolunu göstərir.

Həyat və qadının, deməli, bütün cəmiyyətin problemlərinin həllinin əsas yollarını, metodlarını tapmaq və həll etmək üçün gələcəkdə hüquq nəzəriyyəsini və qadın azadlığının bu günki reallığının həllini hazırlamaq lazımdır. Hələ ki, bizim nəzəri fikrimiz ancaq ideoloji və psixoloji əsərlərdə öz əksini tapır. Elə adət və ənənələr var ki, onlar konstitusiyada qadın və kişinin eyni hüquqlu olmasına baxmayaraq, heç dəyişilməyib. Qadının fikirlərindən ölkənin siyasi mövqeyi, dünyəvi nailiyyətləri və ümumdünya razılığı asılıdır.

Qadınların birbaşa iştirakı olmadan heç bir ictimai işlərdə, kollektivdə və ailədə – iqtisadi, siyasi və mənəvi nailiyyətlər, yüksək elmi dərəcələr, əhalinin ümumi mədəniyyəti, qadının sosial yeri (hansı ki, hələ ağır olaraq qalır) – ola bilməz. Çünki qadınların 2\3 hissəsi istehsalatda və ağır işlərdə (sağlamlıq üçün zərərli) işləyir. İstehsalatda işləyən qadınların 20 faizi ağır fiziki əməklə məşğüldürlar. Onların maaşı kişilərinkindən 1\3 dəfə, baş vaxtı isə 2 dəfə azdır. Ona görə də bizim ölkədə qadın hərəkatları iş sferasında qadın hüquqlarını dünya normalarına uyğun olması uğrunda mübarizə aparırlar.

Bazar iqtisadiyyatı qadın problemlərinə yeni yol tapmaqdadır. İqtisadi böhran sosial və milli gərginlik artması qadınların üzərində özünü mənfi biruzə verir. Bazar iqtisadiyyatına keçiddə həll olunmamış problemlərin üzərinə yeni- qiymətlərin artması və aylıq gəlirin aşağı olması kimi problemlər gəlir.

Qadınların həyat tərzini yaxşılaşdırmaq üçün yeni hökümət orqanları ilə birlikdə qadınların maddi və mənəvi maraqlarını nəzərə alaraq yeni iş yerləri açmalıdır. Bazar iqtisadiyyatına keçid dövründə – yüksək ixtisasartırma qadınlar üçün böyük köməkdir. Bununla yüksək ixtisaslı kadrların sayı azalır. Belə ki, 1989-cu il ixtisaslı kişi kadrları 10 faiz olmuşdur, bu öz-özlüyündə az olduğu halda qadınlarda bu rəqəm üç dəfə azdır. Təsərrüfat əlaqələrinin dağılması, gəlirsiz birliklərin bağlanması, elm və təhsil sistemində olan ixtisaslarda ən çox qadınlar işsiz qalırlar. Nəzərə alaraq ki, onlar cəmiyyətin ən az qorunan işçi qüvvəsidir.

Elmi-pedoqoji fəaliyyətin əsas məsələsi – qadınlara onların hüquqlarına başa salmaqdır. Bəzi qadınlar qərarları,

sosial güzəştləri bilmədən öz hüquqlarını qoruya bilmirlər. Ona görə insan aktlarını OON-nun ümuminsan haqqlarının deklarasiyası, inkişaf və yüksəlişin deklarasiyası, qadın və uşaq haqqlarının qorunması haqqında Konvensiyanın yayılmasına nail olmaq lazımdır. Qadınlar ümumxalq konfliktlərinin, zorakılığın artmasına, mənəviyyatın çürüməsinə çox həssas yanaşırlar. Hər şey onun ailə vəziyyətində əks olunur.

Ana, uşaq və yeniyetmələrin sağlamlığının pisləşməsi, yetimliyin artması davam edir. Problemlərdən biri də millətlərarası nigahlardır ki, hal-hazırda onlar 18 faiz təşkil edir.

Qadın cəmiyyətin özülü, əsas yaradıcılarından biridir. Kişi-qadın münasibətlərinin bütün istiqamətlərdə tarazlaşması cəmiyyətin yüksəlişidir.

**Rabil Mehtiyev**

## TRANSFORMASİYA ŞƏRAİTİNDƏ QADIN PROBLEMİ

Azərbaycanın ictimai-siyasi, mənəvi-mədəni dünyasında qadın problemi, daha dəqiq ifadə etsək, qadın hüququ problemi həmişə aktual olmuşdur. Tarixə müraciət etdikdə aşkar görünür ki, hər hansı bir tarixi mərhələdə ən yaxşı halda yalnız bir qadın öz fəaliyyəti ilə sonrakı dövrlər üçün müəyyən iz qoya bilmişdir. Tomris, Sara xatun, Natəvan, Həcər və digər qadın şəxsiyyətlərimiz özlərindən sonra yaddaşlarda əbədi heykəllərini yaratmağa müvəffəq olmuşlar.

Maraq doğuran və paradoksal həqiqət budur ki, qadını-ananı hər zaman uca tutan, onu müqəddəs hesab edən Azərbaycan xalqı tarixin müəyyən mərhələsində qadın liderliyinin kasadlığını yaşamışdır. Bu faktoru doğuran səbəblər barədə düşünərkən bir sıra qənaətlərə gəlmək olar.

İlk növbədə xalqımızın milli mentalitetindən doğan, mövcud şərait və bərqərar olan ənənələrlə qətiləşən özgələşmək faktorunu qeyd etmək lazım gəlir. Qadını əsas etibarilə zərif və zəif varlıq sayıb onu həyatın məişət sferasında tutmağa çalışan və buna nail olan kişi hegemonluğu əksər dövrlərdə

dominantlığını saxlamışdır. Ayrı-ayrı istisna hallarının epizodik təzahürləri kişi tiranlığını neytrallaşdıra bilməmişdir. Zor elementi milli kaloritdə təzahür edərək qadınların qeyri-rəsmi tabuları aradan qaldırmaq cəhdlərini puça çıxartmışdır. Bu prosesin indi də davam etdiyini nəzərə aldıqda problemin aktual olduğu şübhə doğurmur.

Müasir dövrdə qadın haqları məsələsi müsbət yöndə həllini tapmaqda ilkin irəliləyişlər əldə etsə də, problemin komleks həll olunması yaxın gələcəyin işi deyil. Haqlı olan bir suala- problemin kökü nədir? – sualına cavab vermək bir çox məsələlərin nəzərdən keçirilməsini tələb edir. Yuxarıda qeyd etdiyimiz kimi milli düşüncə tərzindən irəli gələn ənənəvi səbəblər ilə yanaşı cəmiyyətimizin hazırki vəziyyətindən törəyən səbəblər ön plana çəkilməlidir.

İlk növbədə qeyd edilməlidir ki, sistemli transformasiya dövrünü yaşayan Azərbaycan cəmiyyəti üçün xarakterik olan faktorlar qadın statusu probleminə ciddi riayət etməkdədir. Bu faktorlardan ən başlıcası fikrimizcə, fərdlərin sosial ierarhiyada öz statuslarını təsbit edə bilməmələridir. Qeyd edək ki, burada söhbət yalnız qadınlardan getmir, eyni zamanda kişilər də analoji problemdən əziyyət çəkməkdədirlər. Bütövlükdə, Azərbaycan cəmiyyətinə xas olan bu amil keçid dövrünün təbəddülatları ilə şərtlənir. Sosial normaların deqredasiyaya uğradığı belə dövrdə insanların özünüreallaşdırma imkanları ciddi şəkildə məhdudlaşır. Bu problem Azərbaycan ictimaiyyəti üçün bu gündə öz aktuallığını saxlamışdır. Əsasən işsizlik, yaxud iş yerlərinin məhdudluğundan irəli gələn bu problem digər faktorlar ilə üzvi şəkildə birləşərək cəmiyyət həyatına sirayət edir. Bu problem qadınlara münasibətdə daha qabarıq nəzərə çarpır. İctimai sferada aşkar məhdud imkanlar şəraitində qadınların seçim imkanları azalır. Ailədaxili problemlər ilə iş şəraitinin çətinliyi və ya dözülməzliyi Azəröaycan qadınının sosial imkanlarını məhdudlaşdırır. Qanunların tam işlimədiyi şəraitdə problemlərin ağırlıq əmsalı qadınların zərərinə işləyir. Sosial ədalətsizliyüin cinslərarası formasını təsbit edən belə hallar ictimai münasibətlərin xarakterinə əhəmiyyətli təsiri ilə diqqət çəkir.

İçtimai həyat sahəsində mövcud olan həmin problemlərin aradan qaldırılmasında dövlətin qanunvericilik aktlarının

təkminləşməsi ilə yanaşı, vətəndaş cəmiyyətinin özünün də yeniləşməsinə böyük ehtiyac var və bu sahədə aparılan məqsədyönlü siyasət günün nəbzini tutmaqla bərabər, Azərbaycan reallığını inikas etdirir.

**Zeynəddin Şabanov,**
*fəlsəfə elmləri namizədi*

## MİLLİ MENTALİTETİN QENDER STEREOTİPLƏRİ

Özünəməxsus adət-ənənələri ilə başqa ölkələrdən seçilib fərqlənən klassik Şərq ölkəsi Azərbaycan bu gün öz inkişafının yeni dövrünü yaşayır. Bu inkişaf isə bəşəri dəyər və sərvətlərə, beynəlxalq qayda-qanun və standartlara hörmətlə yanaşmanı diqqət mərkəzində saxlamağı şərtləndirir. Hələ qədimlərdən hər bir insana münasibətdə ədalətli mövqeyi, nəciblik keyfiyyətləri ilə səciyyələnən xalqımızın müasir mərhələdə də eyni müstəvidən çıxış edərək dünya arenasında özünü mütərəqqi, tərəqqipərvər və sülhsevər xalq kim nüfuz qazanmaq şansını yüksəkliyə doğru istiqamətləndirir.Bu istiqamət isə onu sivil dövlətlər içərisində layiqli yer tutmağa yönəldir.

Bu gün Azərbaycan cəmiyyəti mürəkkəb bir dövrü perspektiv istiqamətdə inamla addımlayır. Həmin mürəkkəblik isə keçid dövrünün özünəməxsusluğu nəticəsində təzahür edərək ictimai həyatın bütün sahələrini ehtiva etməklə müəyyən qədər öz xüsusi çəkisi olan problemlərlə şərtlənir və həllini gözləyir. Əvvala, onu qeyd etmək yerinə düşər ki, keçid dövrü məhz müəyyən problemlər, amilllər zəminində formalaşır ki, bunun da nəticəsində yeni bir ictimai quruluş yaranır.Bəşəriyyətin inkişafının hər yeni mərhələsinə keçid dövrü yeni imkanların qazanılması ilə bərabər, həm də onların istifadəsinə müdrikcəsinə yanaşma tələb edir. Keçid dövründə yeni sosial-mənəvi və psixoloji problemlər təzahür edir. İşsizlik , kütləvi xırda ticarət, əhalinin bir qisminin həddən artıq varlanması, digər hissəsinin yoxsullaşması, ifrat sosial təbəqələşmə, insanların sosial ehtiyaclarının artması və lazımınca təmin olunmaması fərdlərdə sosial dəyərlərə laqeyd münasibətin yaranması, sosial-

əxlaqi dəyərlərin tənəzzülə uğraması, fərdi və ictimai psixologiyada qeyri-müəyyənlik halının artması,insanların ünsiyyətində yaranan problemlər, bir cins tərəfindən digər cinsin hüquqlarının pozulması halları keçid dövrünü xarakterizə etməklə bərabər onu doğuran və sonuclayan səbəb kimi də ifadə oluna bilər.

Doğrudur, bu gün Azərbaycan cəmiyyətininin aradan qaldırılmasını, həllini tələb edən müəyyən qədər problemləri var. Bununla belə, həmin problemlər içərisində cəmiyyətin sivil və normal inkişafını əngəlləyən qender asimmetriyasının mövcudluğu həllinin zəruriliyinə görə böyuk əhəmiyyət daşıyır.

Müasir dövr Azərbaycan cəmiyyətini təhlil müstəvisinə çəksək və ictimai həyatın bütün sahələrini qender stereotipləri baxımından araşdırsaq,onun şahidi olarıq ki, bu cəmiyyətdə bəşəri dəyərlərə sadiq insanlar yaşayıb fəaliyyət göstərsələr də, burada müntəzəm olaraq qender sahəsində geniş maarifləndirmə işi aparılsa da bu məkan hələ də cinslərin bərabərliyi prinsipinin həyata keçirilmədiyi bir toplum olaraq qalmaqdadır.

Bir məsələni də qeyd etmək lazımdır ki, uzun illər ənzində Azərbaycanda qadına xüsusi münasibət olmuş və bu münasibət bu gün də davam etməkdədir. Həmin münasibətin səvtyyəsini isə biz xalqımızın epos və dastanlarından, bayatılarından, folklto və poeziya nümunələrindən öyrənə bilərik. Burada qadın həm gözəl xanım kimi, həm qüdrətli hökmdar kimi, həm öz evinə, ailəsinə, vətəninə layiq namuslu qız kimi, həm də övladlarına yüksək tərbiyə verən ana kimi təsvir olunur.

Azərbaycanda islam dini sərvətlərinin formalaşması cəmiyyətdə qadına münasibətin xeyli dəyişilməsinə səbəb olub. Müəyyən dövrlərdə dini ehkamların,hədis və sünnələrin xalqa düzgün izah edilməməsi ucbatından cəmiyyəidə kəskin fikirlər formalaşmış, qadın örtüyə salınmış, onun ictimai işlərlə məşğul olması qadağan edilmiş,cəmiyyətdə fəaliyyətinə məhdudiyyətlər qoyulmuş, ailədə hüquqları pozulmuşdu.

Lakin aparılan zəruri tədbirlər,islahatlar və geniş maarifləndirmə işi nəticəsində bu qadağa və komplekslər aradan götürülməkdədir.

Artıq 10 ildir ki, Azərbaycan Respublikasının Konstitusiyası fəaliyyətdədir.Beynəlxalq standartlara cavab verən bu Konstitusiyanın 25 –ci maddəsində yazılıb: «Hamı qanun və məhkəmə qarşısında bərabərdir.Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır».

Bu Konstitusiya cinsindən, dinindən, siyasi əqidəsindən, irqindən, milliyətindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara eyni qanunlar tətbiq edir. Əsas qanunun maddə və müddəaları bütün Azərbaycan cəmiyyəti üçün məcburidir, hamı bu qanunlara əməl etməli və onun həyata keçirilməsinə çalışmalıdır. Konstitusiyadan irəli gələn qanunları pozan vətəndaşlar barəsində isə müvafiq ölçü götürülməli və aidiyyatı olan orqanlar həmin şəxsləri cəzalandırmalıdır. Bu mənada Əsas Qanunun 25-ci maddəsinin vətəndaşlar tərəfindən pozulması isə cinayət tərkibli məsələ kimi qiymətləndirilə bilər. Bəs nə üçün bu qanunun tələblərini pozanlar cəzalandırılmırlar? Məsələ burasındadır ki, ictimai həyatın müxtəlif sahələrində qadın hüquqlarının pozulması halları müxtəliflik göstəricisiinə malikdir. Bu gün qadınların səhiyyə,təhsil, mədəniyyət sahələrində iştirak səviyyəsi çox yüksək olduğu halda,tikinti ,sənaye,nəqliyyat, hüquq-mühafizə, hərbi sahədə iştirakı çox aşağıdır. Ancaq bu göstəriciləri təhlil etsək , onu müşahidə edərik ki, həmin nəticələrin yuxarı yaxud aşağı olması heç də qadınların hüquqlarıının porzulması ilə bağlı deyil. Daha dəqiq ifadə etsək, bu hal hüquqların pozulmasını şərtləndirmir. Ən azı ona görə ki, artıq Azərbaycanda qender mədəniyyəti yüksək təşəkkül tapmaqdadır. Təhsil sahəsində qadınların iştirak səviyyəsinin yüksək olması ona dəlalət edir ki, qadınların müəllim-tərbiyəçi ixtisasına münasibəti daha qənaətbəxşdir və bu peşə onların zərifliyinə və psixikasına adekvatlıq təşkil edir. Tərbiyəçilik işinin öhdəsindən layiqincə gəlməsi onlara həmin peşəni seçmək istiqamətində stimul verir.Belə ki, müəllim şagirdlərə elm öyrətməklə bərabər, onları tərbiyələndirir və təkmilləşdirir, düzgün yola çəkir, hər bir məsələnin həllində daha ədalətli olmağa çağırır.

Ancaq təhsil sahəsində qadınların iştirak səviyyəsinin yuxarı olmasını daha dərindən araşdırsaq başqa mənzərənin də şahidi olarıq. Bu mənzərə ondan ibarətdir ki, əgər orta məktəbin aşağı siniflərində tədris işini aparanlar arasında qadınlar çoxluq təşkil edirsə, yuxarı siniflər haqqında bunu demək olmaz. Belə ki, məktəbin yuxarı siniflərində və eləcə də ali məktəblərdə müəllimlərin əksəriyyətini kişilər təşkil edir. Burada da yenə hüquq pozuntularından danışmaq yersizdir. Çünki bu hal qadınların öz istəyinə görə qərarlaşır. Yox əgər, bu halı kimsə haqqın, ədalətin pozulması kimi qiymətləndirirsə, onda belə sual meydana çıxır: uşaq bağçalarında tərbiyəçilər arasında və ibtidai sinif müəllimləri arasında kişilərin iştirak faizi sıfırı göstərir. Bu göstəriciyə görə, bu məntiqi fikrə gəlmək olar ki, müəyyən hallarda kişilərin hüquqları pozulur. Bəs bu hüquqlar kimin tərəfindən pozulur? Əcaba, kişilərin «diskriminasiyası»nı kim həyata keçirir, qadınlarmı? Əlbəttə, əgər qadın hüquqlarının ancaq kişilər tərəfindən pozulmas qəbul edilirsə, onda yuxarıdakı halda qadınlar kişilərin hüquqlarını pozaraq, onları uşaq bağçalarına buraxmırlar. Real vəziyyətin təhlili isə onu göstərir ki, bu nəticə düzgün deyildir. Məsələnin mahiyyətinə enərək, onu qeyd etmək olar ki, qadınlar yuxarı siniflərdə dərs keçmək istəmir, kişilər isə tərbiyəçi olmaq fikrinə belə düşmürlər.(Nəinki düşünmək, hətta bu peşə kişilər üçün gülünc sayılır və kişilərin gəldiyi qənaətə görə tərbiyəçi kişi cəmiyyətdə gülüş obyektinə çevrilə bilər.Məhz gülüş obyektinə çevrilməmək üçün onlar bu sənəti seçmirlər). Buna onların ənənəvi-psixoloji, fiziki hazırlığı imkan vermir.

Lakin təhsil sahəsində rəhbərlikdə qadın və kişilərin iştirakına gəldikdə isə burada müəyyən qədər kontrastların olmasını inkar etmək bəlkə də həqiqətin gözünə düz baxmaqdan qaçmağa bənzərdi. Belə ki, həqiqətən təhsil sahəsində qərar qəbul etmə prosesində qadınlar azlıq təşkil edir. Bu arqumentin reallaşmasının səbəbi ondadır ki, qadınların rəhbərlik riski aşağıdır və riskdən əlavə qadınların əksəriyyəti rəhbər olmağa nə həvəsinin, nə də vaxtının olduğunu bildirirlər.

Oxşar fikirləri səhiyyə sahəsində də qeyd etmək olar. Belə ki, səhiyyə sahəsində fəaliyyət göstərənlərin böyük əksəriyyətini

qadınlar təşkil etsə də rəhbərlik səviyyəsində onların mövqeyi zəifdir.

Əgər həkimlərin ixtisasını təhlil obyektinə çevirib araşdırma işini aparsaq, belə bir mənzərənin şahidi olarıq ki, cərrahlar, stomatoloqlar arasında kişilər çoxluq təşkil edirsə, pediatrlar barəsində bunu demək mümkün deyil. Belə ki, pediatrların 85 %-ni zərif cinsin nümayəndələri təşkil edir. Daha asan tibbi işlərin aparılması da qadın sənəti kimi qiymətləndirildiyindən tibb məktəblərində təhsil alan ( tibbdə şəfqət bacılarının sayı çox, feldşerlərin sayı isə çox cüzidir) və xəstəxanalarda işləyənlərin demək olar ki, hamısı qadınlardır. Cinsindən asılı olmayaraq xəstəyə qulluq etmək, iynə vurmaq, yaraya sarğı qoymaq qadın işi hesab edilir. Bu işə cəmiyyət məcburiyyət qomasa da, seçimi edən insanlardır.

Qadınları mədəniyyət sahəsi ilə sıx bağlayan onların zövqü, hissiyatı və zərifliyidir ki, bu keyfiyyətlər onların həmin sahəyə istiqamətlənməsinə stimul yaradır.

Azərbaycanda qender mədəniyyətinin gündən-günə inkişaf etməsinin nəticəsidir ki, müasir cəmiyyətimizdə əsas sütunlardan olan ailədə müəyyən problemlər artıq çözülüb, ər-arvad problemlərinin həlli daha rəvan templə qərarlaşır, bəzi çatışmamazlıqlar isə məkan-zaman çərçivəsində aradan qalxacaq. Bu problemlərin həlli üçün isə mədəniyyət və təhsil çox böyük rol oynayır. Məhz savad və təhsil sahəsində köhnə, bu günümüzlə uyğun gəlməyən fikirləriözümüzdən uzaqlaşdıra bilərik.Lakin onu da qeyd edək ki, hər ailənin öz dünyası var və öz qaydaları mövcuddur.Bu gün Azərbaycan qadınları evdə , ailədə ərinə xidmət etmyəi özünün birinci xanımlıq vəzifəsi hesab edir. Əri tələb və təkid etməsə də ueməyin hazırlanması, stola verilməsi, təmizlik işlərinin aparılması, uşaqlara qulluq, paltarların yuyulması və bu kimi məişət işlərini qadınlar kişilərlə bölüşməyi belə ağıllarına gətirməyərək, «kişi işi deyil» qənaətini vurğulayırlar. Əgər əvvəllər belə işlər sırf qadın işi hesab edilirdisədə və qadınlar bu vəzifələrin öhdəsindən layiqincə gəlirdilərsə də hazırda bu məsələyə başqa rakursdan baxmaq mümkündür. İndi müasir texnologiyaların yüksək sürətli inkişafı və onlardan məişətdə lazımınca istifadə olunması əl əməyini xeyli

yüngülləşdirib. Bunun nəticəsində isə məişət işlərinin ancaq qadın işi olması fikri artıq beyinlərdən silinməkdədir.

Qadınların ölkənin ictimai-siyasi həyatında fəal iştirakı da artmaqdadır. Transformasiya dövrünü yaşayan ölkələrdə formalaşan güclü vətəndaş cəmiyyəti həmin ölkələrin iqtisadi və siyasi inkişafını sürətləndirə bilər. Qadınların bu prosesdə iştirakının xarakteri və səviyyəsi isə keçid prosesinin özünün müvəffəqiyyəti üçün vacib həyati əhəmiyyətə malikdir. Qadınların yerli idarəetmə səviyyəsində siyasi fəaliyyəti və QHT-nın işində aktiv iştirakı, onlara siyasi və ictimai həyata öz təsirlərini gücləndirməyə kömək etdiyi kimi, ailə iqtisadiyyatında və kiçik sahibkarlıq fəaliyyətində qadın əməyinin təsdiqi və müdafiə edilməsi, iqtisadiyyata öz təsirlərini artırmaqda qadınlara kömək edir. Bunun üçün isə qender mədəniyyətinin tədricən formalaşması və inkişaf etməsi əsas vəzifələrdən biridir.

Postsovet sistemli transformasiya dövründə demokratik cəmiyyətin təşəkkülü üçün geniş imkanlar reallaşmaqdadır. Demokratik cəmiyyətin formalaşmasının əsas amillərindən biri də həmin ölkələrdə cinsi ayrı-seçkiliyn aradan qaldırılması, qender mədəniyyətinin inkişaf etməsidir. Azərbaycan da daxil olmaqla MDB ölkələrinin hamısında və Şərqi Avropa ölkələrinin əksəriyyətində demokratiya yenicə formalaşır. Statistik göstəricilərə əsasən, bütün hallarda qadınlar milli səviyyədə dövlət orqanlarına nisbətən, yerli idarəetmə orqanlarında daha yaxşı təmsil olunublar. Onların bu səviyyədə daha çox müvəffəqiyyət qazanmasının əsas səbəbi yerli səviyyədə siyasi fəaliyyətin sözün əsl mənasında evə daha yaxın olmasıdır. Ehtimal ki, yerli siyasi həyatda öz iştiraklarını ailə vəzifələri ilə uyğunlaşdırmaq qadınlar üçün daha asan olduğundan, həll edilən problemlərin isə onların ailələrinə və yerli icmaya daha çox bilavasitə təsir göstərdiyindən, burada qadınlar daha aktivlik nümayiş etdirirlər. Yerli miqyaslı siyasi kompaniyaların keçirilməsinə çəkilən maliyyə xərcləri yüksək olmadığından, qadınlar burada siyasi mübarizədə iştirakı özlərinə rəva görə bilirlər. Guya «siyasətin qadınlar üçün çox ağır zəhmət olması» fikrinin yerli hakimiyyət orqanlarındakı işə heç bir aidiyyatı olmamasına çoxlu sübutlar var, çünki belə işə daha çox ictimai fəaliyyət kimi baxılır. Yerli kütləvi informasiya vasitələri də bəzən siyasətdə qender ayrı-seçkiliyinə az meylli

olurlar və adətən, qadın namizədləri öz icmalarının tam hüquqlu üzvləri kimi təqdim edirlər.

Yeni müstəqillik qazanmış ölkələrin əksəriyyətində yerli hakimiyyət orqanlarına seçilmiş qadınların payı, milli parlamentlərə seçilmiş qadınların payından çoxdur. Latviyada yerli hakimiyyət orqanlarında qadınların payı 40%-ə qədərdir ki, bu da qadınların milli parlamentdə təmsil olunma payından 2 dəfədən də artıqdır. Macarıstanda, Bolqarıstan və Moldovada da həmçinin böyük fərq müşahidə olunur. Rumıniyada yerli hakimiyyət orqanlarına seçilmiş qadınların payı milli hakimiyyət orqanlarına seçkilərdə ugur qazanmış qadınların payından bir qədər azdır. Azərbaycanda Milli Məclisin üzvlərinin 14%-ni təşkil edir, bələdiyyə orqanlarında isə 2%-lə təmsil olunub. Azərbaycandakı 2700 bələdiyyədə orqanlarında qadınların iştirak faizinin aşağı olması qənaətbəşx hal hesab oluna bilməz.

Yerli seçkili orqanlarda qadınların iştirak payının çoxluğu bir çox ölkələrdə xüsusilə vacib əhəmiyyətə malikdir. Çünki, keçid dövründə ölkələr sosialist dövründəki dövlət hakimiyyətinin həddən ziyadə mərkəzləşdirilməsindən çəkinirlər. Keçid dövründəki iqtisadi qeyri-sabitlik nəticəsində yerli idarəetmə orqanlarının bir çoxunun məhdud ehtiyatlara malik olmasına baxmayaraq, dövlətə aid olan bir çox funksiyalar onlara verilir və faktiki olaraq, keçid dövrü şəraitində yerli idarəetmə orqanlarını «maneə»lərlə üzləşirlər. Yəni onlara dövlət vəzifələrini icra etmək üçün səlahiyyətlər verilir, lakin bunun üçün lazım olan resurslar verilməyir.

Qadınların yerli siyasi həyatda aktiv iştirakı, onların qərar qəbuletmə səviyyəsində məsul vəzifələrə can atmasının sübutudur. Mer (şəhər icra başçısı) postunu tutan qadınların sayı haqda məlumatlar o qədər də ürəkaçan deyildir. Macarıstan, Bolqarıstan və Estoniyada merlərin (şəhər icra başçılarının) 10-13 faizini qadınlar (Estoniyanın paytaxtı Tallinnin meri də daxil olmaqla) təşkil edir. Çex respublikası və Moldaviyada göstərici bir qədər aşağıdır. Rumıniya və Litvada onlar cəmi 2-3 faiz təşkil edir. Rusiyada isə, federasiyanın 89 subyektindən (yəni quberniya, ruspublikalar və muxtar dairələr) yalnız bir regional inzibati ərazidə qadın-qubernator rəhbərlik edir. Azərbaycana

gəldikdə isə ölkə üzrə 82 İcra Hakimiyyətinin başçısından yalnız 2 nəfəri (2,4%) qadındır.

Keçmiş sosialist ölkələrində vətəndaş birliklərinin təqib olunma praktikasını və region ölkələrində indiki iqtisadi çətinlikləri də nəzərə alsaq, bu üçüncü sektorun formalaşmasının asta templərlə getdiyini görərik. Bununla bərabər, qadın birliklərinin yaranması, dövlət orqanlarının yeni siyasət və qanunvericiliyin layihəsinin hazırlanması zamanı belə ictimai birliklərlə məsləhətləşməsini irəliyə doğru atılan addım hesab etmək olar. Ərini itrimiş qadınların «Sənsiz» Xeyriyyə Cəmiyyəti və bu kimi digər qadın təşkilatları təkliflər paketi ilə Azərbaycan Milli Məclisinə müraciətlər etmiş və bu təkliflər qanunlar hazırlanarkən nəzərə alınmışdır. İndi qarşıda duran məsələ, bu yeni və şəraitə əsasən hələlik zəif nailiyyətlərin inkişafına dayaq vermək və köməklik göstərməkdir. Məsələn, qadınlara qarşı zorakılıq hallarının olmasına ilk münasibəti nisbətən zəif qadın təşkilatları bildirir. Moskvada qadınlara təcili kömək edilməsi üzrə Krizis Mərkəzi, ayda təqribən 200 telefon zənginə söz və işlə cavab verir və bununla bərabər, maliyyə resurslarının kasadlığına və qeyri-ardıcıl daxil olmasına baxmayaraq, kütləvi informasiya vasitələrində təbliğat kompaniyaları, ictimaiyyətin savadlandırılması işini aparır. Belə QHT-ların təşəbbüsləri qarşısında, cəmiyyətin bir çox digər qüvvələri, o cümlədən dövlət orqanları və işgüzar dairələr də fəal iş nümunəsi göstərməlidirlər. Lakin Azərbaycanda «Simmetriya» Qender Assosiasiyası bı sahədə müəyən fəaliyyət göstərmək istəsə də bu iş gözlənilən nəticəni vermədi. Onların təşkil etdiyi Krizis Mərkəzinə müraciət edən çox az oldu. Bu hal onu ehtiva etmir ki, Azərbaycanda zorakılığa məruz qalanlar azdır. Qadınların müraciət etməməsinin əsas səbəbini milli mentalitet amilində axtarmaq lazımdır. Həmin Assosiasiyanın iki il öncə Azərbaycanın müxtəlif bölgələrində 500 qadın arasında keçirdiyi keçirdiyi sorğunun nəticələrinə görə isə qadınlar ictimai həyatda mənəvi zorakılığa 5,7%, fiziki zorakılığa 4%, cinsi zorakılığa 4%, ərinin ailəsində müvafiq olaraq 38,4%, 24% , 2,8% doğulduğu ailədə 15% və 18,8% zorakılığa məruz qalırlar. Fikrimizcə, zorakılıq hallarının aradan qaldırılmasının əsas yolllarından biri də cəmiyyətdə bütün təbəqələr arasında qender mədəniyyətinin təbliği olmalıdır.

**Nəzakət Salmanova,**
*elmi işçi*

## AİLƏ VƏ NİKAH PROBLEMİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Ailə stabilliyinin analiz mexanizmi «evlilik» və «müvəffəqiyyətli nikah» anlayışlarına ilk olaraq konkret yanaşmağı tələb edir. Bəzi sosioloqlar olaraq nikahı evliliklə eyniləşdirirlər. Y.Şepanskinin fikrincə, evlilik – sosial münasibətlərin elə ictimai normalaşdırılmasıdır ki, burada, təmiz hissi maraqların möhkəm qarşılıqlı uyğunlaşmaya keçməsi və evlilik məsələlərinin yerinə yetirilməsində birgə fəaliyyəti baş verir. Nişanlanmadan evliliyə keçid bütün mədəniyyətlərdə mərasimlərlə sanksiyalaşdırılmışdır: dini və yaxud dövlət, magik və yaxud sosial . Bu fikirlərin qəbul olunması ailə və nikahla yanaşı, «evlilik» anlayışının daxil edilməsini aydınlaşdırmır. Evlilik nədir? Evlilik – ər və arvadın mənəvi prinsiplərlə requlə edilən şəxsi qarşılıqlı münasibətidir. Burada hər iki tərəfin imtiyazının simmetrikliyini xüsusi qeyd etmək lazımdır.

Ailə anlayışının evlilik anlayışı ilə bağlılığı mütləq deyildir.

a) Ailə anlayışı nöqteyi nəzərindən çıxış etsək, ailə fərdlər arasında mühüm olan sosial münasibətlərdir. Bu münasibətləri qanuni çərçivəyə salmaq vacib deyil.

b) Ailə qruplarına sosial cəhətdən qəbul edilən, seksual münasibətlərə malik istənilən sayda yetkin şəxs daxil ola bilər. Yəni, ailələr bir kişinin tək bir qadın və əksinə münasibəti əsasında qurulur. Ailə qruplarında uşaqların övladlığa götürüldüyü təqdirdə seksual münasibətin heteroseksual (yəni, iki əks cins arasında münasibət) olması vacib deyildir.

c) Ailə qruplarına həm yetkinlər, həm də uşaqlar daxildir. Yəni, ər və arvad uşaqları olmadığı halda ailə hesab oluna bilməz.

Nikah, hər bir ictimai-iqtisadi quruluşa uyğun olaraq, müxtəlif formalarda inkişaf etmişdir. Azərbaycanda XIX əsrin sonu – XX əsrin əvvəllərində kəbinin əsas forması monoqam kəbin olmuş, lakin o möhkəm zəmin üzərində dayanmamışdı. Kişi

istədiyi vaxt arvadın razılığını almadan yeni arvad ala bilərdi. Bu işdə ona mane ola biləcək xüsusi qanun yox idi. Əksinə, şəriət kişiyə dörd arvadla rəsmi kəbinə icazə verirdi . Azərbaycanda endoqam nikahlar, yəni qohumla evlənmə adəti geniş yayılmışdı.

Lakin müasir dövrdə isə yalnız şəriətə görə bir qadınla evlənməyə icazə verilir. Ailə məişətində mövcud olan iki nikah qaydası – endoqam (qohum nikahlar) və ekzoqam (kənar, ögey nikahlar) ictimai həyatın spesifik inkişaf xüsusiyyətləri ilə bağlı idi. Azərbaycanda bu nikahların tədqiq edilməsi xalqımızın ailə məişəti ilə sıx surətdə əlaqədar olan və ictimai inkişafın müxtəlif mərhələlərindən keçərək müasir formalarda bizə çatan adət və ənənələrin təşəkkülü və sonrakı inkişafını aydınlaşdırmaq üçün çox vacibdir. Endoqamiyanın mənşəyi məsələsində istər rus (M.Kovalevski, S.Volfson və s.) və istərsə də əcnəbi alimlər (Y.Vastermak, Rapp, Şpigel və b.) arasında müxtəlif fikirlər mövcuddur. Bu məsələ Azərbaycan Sovet Etnoqrafiyasında hələlik kifayət qədər öyrənilməmişdir. Buna baxmayaraq, Sovet etnoqrafları adətən bunun patriarxal icma quruluşu üçün səciyyəvi olduğunu göstərirlər. Bu barədə eyni zamanda, M.Kosven, S.Hacıyeva, X.Xatayev və b. mülahizələri mövcuddur.

Azərbaycan etnoqrafik materiallarına əsasən, keçmişdə olduğu kimi, müasir dövrdə də endoqam nikah özünü iki formada büruzə verir: kroskuzen (dayıoğlu ilə bibiqızı, bibioğlu ilə dayıqızı arasında) və ortokuzen (əmioğlu ilə əmiqızı və xalaoğlu ilə xalaqızı arasında) nikahıdır. Şübhəsiz ki, bu formalar müxtəlif ictimai inkişafın məhsulu kimi başa düşülməlidir. İnqilaba qədərki Azərbaycanda nisbətən geniş yayılan ortokuzen nikahlar olmuşdur. Hətta xalq arasında bu münasibətlə deyilən «Əmioğlu ilə əmiqızının kəbini göydə mələklər tərəfindən kəsildiyi üçün müqəddəsdir», «Yaxşısını özgəyə vermək hayıfdır, pisini vermək ayıbdır» kimi ifadələr söz yox ki, endoqam nikahlara aid deyilmişdir. Bu nikah forması fikrimizcə, böyük patriarxal ailələrin daxilində yaranmış və sonradan patronimik və kiçik ailələrdə saxlanmışdır. Qeyd etmək lazımdır ki, bu nikah növləri indinin özündə də Azərbaycanın müxtəlif rayon və kəndlərində qalmaqda davam edir. Bu nikahda əsas məqsəd ata mirasının başqa ailəyə keçməsinə yol verməmək idi, çünki keçmişdə qız da ata malının payçısı hesab edilir və evdə kişi varisi olmadıqda isə

mirasın tam sahibi olurdu. Belə bir vəziyyətə başqa xalqlarda da (taciklər, ərəblər, yunanlar, hindlilər, bir sıra Afrika xalqları və s.) rast gəlinir.

Bu adətin Qafqaz Albaniyasında bizim eradan əvvəl mövcud olması alban tarixçisi Musa Kalankaytuklunun əsərindən məlumdur. Azərbaycanda endoqam və ekzoqam nikahların yayılma ərazisi arasında sədd çəkmək çox çətindir. Eyni bir ərazidə çox zaman bu nikahların hər ikisinə təsadüf edilirdi.

Bu nikahların Azərbaycanda hələlik dərindən öyrənilməməsi, (bu, xüsusilə ekzoqam nikaha aiddir) onlar haqqında konkret söz söyləmək imkanı vermir. Elmi ədəbiyyatda ekzoqam nikahın endoqam nikahlardan çox əvvəl meydana gəldiyi göstərilir. Ekzoqam nikahın mənşəyi haqqında sosiologiya elmində müxtəlif fikirlər irəli sürülmüşdür. Biz bu məsələyə toxunmadan deyə bilərik ki, bu iki nikah formasının meydana gəlməsi hər bir tarixi mərhələdə ictimai-iqtisadi münasibətlərin spesifik inkişaf xüsusiyyətlərindən asılı olmuşdur. XIX əsrdə Azərbaycan ailə-məişət münasibətlərində saxlanmış bir sıra adət və ənənələr sübut edir ki, ekzoqamiya bizim xalqımıza da xas olan bir nikah forması olmuşdur.

Nikahın levirat (latın dilində – qayın deməkdir) və sororat (latın dilində – bacı) formaları təmiz iqtisadi amillərdən və xalq məişətinin xüsusiyyətlərindən irəli gəlir. Levirat nikaha əsasən, arvadın əri vəfat etdikdə, o, öz qaynına ərə getmək hüququndan istifadə edə bilər. Onu almaq hüququna isə subay olan kiçik qardaş malik idi. Əks halda, bu nikaha yol verilmir. Ümumiyyətlə, göstərmək lazımdır ki, levirat nikahda əsasən iqtisadi amillər nəzərdə tutulur, çünki əgər qadın başqasına ərə getmiş olsa, o zaman onun sahib olduğu, yəni, ərindən qalan əmlak başqa ailəyə keçməlidir. Bu vəziyyət nəzərə alınaraq həmin qadının kiçik qardaşa ərə getməsi məsləhət bilinirdi.

Sororat nikahda arvadı vəfat etmiş kişi öz baldızı ilə evlənə bilərdi. Bu nikah, xüsusilə o zaman yerinə yetirilirdi ki, ölən qadının bir neçə uşağı qalırdı və şübhəsiz ki, onlara xaladan başqa ayrı adamın baxması məsləhət görülmürdü. Yəni, xala başqa arvada nisbətən uşaqların qayğısına daha yaxşı qala bilərdi.

Qeyd etmək lazımdır ki, bu nikahların bəziləri (xüsusilə levirat və sororat) son vaxtlara qədər tək-tək hallarda Azərbaycan xalqının məişətində (ucqar kəndlərdə) saxlanmaqda davam edir.

Nikahagirmə qızqaçırma formasında da həyata keçirilir. Qızqaçırmanın bir səbəbi odur ki, çox vaxt qızın ailəsi onu istədiyi oğlana getməsinə razılıq vermirdi. Lakin gənclər bir-birlərini sevdikləri üçün ailələrin razılığı olmadan belə, oğlan qızı qaçırmaq məcburiyyətində qalır. Digər səbəb isə iqtisadi amillə, yəni evlənmək üçün oğlanın maddi imkanının aşağı olmasına görə məcbur olurdu ki, öz sevgilisini qaçırsın.

Qeyd etmək lazımdır ki, qızqaçırma adəti çox qədim tarixə malik olub, kökləri ibtidai icma quruluşu dövrünə gedib çıxır. Qızqaçırma yolu ilə nikaha girmənin iki cəhəti nəzəri cəlb edir: qızın öz razılığı ilə və zorakılıqla qaçırılması. Birinci halda qız ilə oğlan arasında qarşılıqlı məhəbbət mövcud olduğuna görə, ağsaqqalların işə qarışması tərəflərin barışması ilə nəticələnir, ikinci halda isə çox vaxt iki nəsil arasında düşmənçilik törədilirdi. Əksər halda yerli inzibati orqanlara edilən müraciətlər nəticəsiz qalır və cinayətkar yalançı şahidlərin ifadələri əsasında cəza almırdı. Xalq arasında zorla qızqaçırma rəğbətlə qarşılanmırdı və həmin adama xor baxırdılar (62, s.115). Eyni zamanda qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Cinayət Hüququ məcəlləsinin 129-cu maddəsində deyildiyi kimi «Qadını onunla evlənmək məqsədi ilə oğurlama» – üç ilədək, eyni hərəkət nikah yaşına çatmayan şəxs barəsində edilərsə – beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Ədəbiyyat materiallarında daha başqa bir adətin keçmiş Azərbaycanda (xüsusilə Şimal-Qərb rayonlarında) mövcud olması haqqında məlumata təsadüf olunur. Bu adətin mahiyyəti ondan ibarətdir ki, gəlinin bacısı, ya da yaxın bir qohumu onun qaynına (yəni ərinin qardaşına) ərə verilir. Bu cür kəbin (belə adət) Azərbaycanın başqa rayonlarında da olmuşdur: Bakıda, Salyanda, Abşeronda və s. Buna bəylə «ikibaşlı qohum olmaq», bəzi yerlərdə «baş-başa» və s. deyilir. Bunlardan başqa, yaxın qohumlar (əmi, dayı, bibi, xala nəvələri və s.) arasında mövcud olan nikahlara da təsadüf edilir.

Qan qohumluğu nikahları – bir və ya bir neçə nəsildə ümumi əcdadlara malik genetik cəhətdən qohumlar arasındakı nikahlardır. Bu irsi xəstəliklər riskinin dərəcəsini, fiziki və əqli cəhətdən geri qalmış uşaqların doğulması ehtimalını artırır. Ər-arvad arasındakı qohumluq nə qədər yaxındırsa, riskin dərəcəsi də bir o qədər yüksəkdir. Lakin qeyd etmək zəruridir ki, qohumluq nikahına girmiş şəxslər heç də həmişə yaxın qohumlarla (əmiqızı, dayıqızı, xalaqızı, bibiqızı) olan nikahı, eləcə də digər qohumlarla olan (II, III, Ş və IV dərəcəli qohumlarla olan) nikahı heç də qohumluq nikahı hesab etmirlər. Yəqin ki, dərk edilmiş anlayışın yoxluğu da nəsillərin genetik sağlamlığına təsir göstərən bir neçə qatlı qohumluq nikahlarına malik olan ailələrin mövcud olmasının səbəblərindən biridir.

Azərbaycan Respublikasının mərhum Prezidenti H.Əliyev 1995-ci il dekabrın 29-da Respublika Ailə Sağlamlığı Mərkəzinin açılışındakı çıxışında qan qohumluğu nikahlarının yayılması probleminə xüsusi diqqət yetirmişdir.

Ümummilli lider qan qohumluğu nikahlarının mümkün nəticələri barəsində əhali arasında geniş sanitar-maarifləndirmə tədbirlərinin keçirilməsi zərurəti, həmçinin irsi xəstəliklərin yayılması, fiziki və əqli cəhətdən geri qalmış uşaqların doğulması hallarının profilaktikasına yönəldilmiş tibbi-genetik xidmətin, doğuma qədərki diaqnostika xidmətinin gücləndirilməsinin vacibliyini qeyd etmişdir.

Qan qohumluğu nikahları bir çox dünya ölkələrində də geniş yayılmışdır. Lakin miqrasiya prosesləri və hüquqi məhdudiyyətlər onların populyasiyada yayılması tezliyini azaldır. Belə ki, məsələn, yüksək insan potensialı səviyyəsi olan ABŞ və Böyük Britaniya kimi ölkələrdə nikahın hüquqi məhdudlaşdırılması halları mövcuddur.

**Mahrux Nəcəfli**

## QENDER -«CİNSLƏRİN FƏLSƏFƏSİ» HARMONİYASIDIR

İdrakda daha yeni bir istiqamət-qender tədqiqatları (qender, qenderologiya, qender ölçüsü terminləri də ədəbiyyatda qender anlayışı ilə eyni mənada, bərabərhüquqlu işlənir) son otuz ildə tanınıb və istər nəzəri, istərsə də praktiki sahədə geniş tətbiq olunur.

Müasir təsəvvürlərə görə, «qender» (ingiliscədən tərcümədə gender –soy deməkdir) cəmiyyətin sadəcə fərdlərdən yox, kişi və qadınlardan ibarət olduğunu bildirmək üçün işlənən bir anlayışdır. Məlumdur ki, tarix boyu kişi və qadının rolu, çəkisi dəyişib və bu mənada onlar heç vaxt bərabərhüquqlu olmayıblar.

Tədqiqatçılar qender təsəvvürlərinin yaranmasını feminizmin (latınca «femina» - qadın deməkdir) liberal qanadının xidməti hesab edirlər. Doğrudan da qender məhz radikal feminizmlə qarşılaşmada, toqquşmada yaranır. Sonuncular hər yerdə total kişi hakimiyyətini tənqid edir və kişilərlə gerçək hüquqbərabərliyinə nail olmaq üçün elə həmin patriarxatın «güc siyasəti»ndən yararlanmağa çalışır. Deməli, qender tədqiqatlarını sadəcə «qadın mövzusu» ilə məhdudlaşdırmaq doğru deyil. O, daha çox cinslər arasında harmoniya axtarışı praktikasıdır. İnsanlığın əsl potensialı da elə bu iki əksliyin- kişi və qadının vəhdətində tam açıla bilər. Bu mənada qender tədqiqatları insanın dünyagörüşünə öz dəyər damğasını vuran müasir aksiologiyadır. «Yeni qender şüuru bizim dünyagörüşümüzün əsaslarını dəyişir və insan sivilizasiyası tarixinin yenidən dərk edilməsi məsələsini irəli çəkir. Aydın olur ki, məhz qender probleminə əhəmiyyət verilməzsə, insanlığın yaxın və uzaq gələcəyini qabaqcadan bildirmək mümkün deyildir» (Mirzəzadə R. Qender və feminizm, B. 2002, s. 77-78).

Qender tədqiqatlarının predmeti cəmiyyətdə kişi və qadın arasında qarşılıqlı münasibət və təsirin mexanizmlərini açmaq, cinslərin sosial rollarını mənsub olduqları mədəni və b. dəyərlərindən asılı olaraq müəyyənləşdirmək, insanlığın tarixi inkişaf xarakterinin səbəblənməsində əsas rol oynamış cinslərarası fərqləri üzə çıxarmaqdır.

İlk baxışda cinslər arasında nəzərə çarpan fərqlər təbii, bioloji xarakterlidir. Amma tarix boyu bu iki cins arasında öz dəyər və ideallarını bütün insanlığın təfəkkür və davranış normalarına çevirmək uğrunda mübarizə gedib. Bu isə o

deməkdir ki, qender həm də «cinslər fəlsəfəsi», yeni dünyagörüşüdür. Bu gün qender eyni zamanda elmdir, dünyagörüşü, fəlsəfə, mədəniyyət faktoru, siyasət və ideologiyadır. O, özündə çoxlu biliklər sistemini sintezləşdirib.

Hazırda qender tədqiqatları «qadın problemi»ndən çox, cinslər arasında harmoniya axtarışı praktikasıdır. O, insanlığın əsl potensialını bu iki cinsin- kişi və qadının vəhdətində üzə çıxarır. Yeniləşən cəmiyyətdə kişi-qadın münasibətlərinə yanaşma da müasirləşərək, müxtəlif kontekstdə araşdırılır. «Bu baxımdan fəlsəfədə də yeni bir istiqamət olaraq qender tədqiqatlarının dövrün tələblərinə uyğun olaraq araşdırılmasına zəmin yarandı. Artıq yeni istiqamətli elm kimi formalaşan qender nəzəriyyələri və onun metodologiyası təşəkkül etməyə başladı»( Mirzəzadə R. Qender və feminizm, B. 2002, s.36). Məhz bu tədqiqatlar üzə çıxarır ki, tarix hələ də kişi gözü və ağlı ilə elə onlar üçün yazılır. Belə tarixdə zor inkişafın başlıca hərəkətverici qüvvəsi kimi təqdim olunur. O, ancaq kişi cinsinin maraq və mövqeyini əks etdirir və cəmiyyətdə hakim cins kimi onun ideologiyası rolunu oynayır. Bu mənada feministlər tarix elmini «patriarxal», onun başlıca «lokomativ»ini isə inqilab, müharibə, zor tətbiqi hesab edirlər. Onların fikrincə, bütövlükdə elm tədqiqat və praktik fəaliyyətdə güc, zor metodlarına üstünlük verir və onları daha effektiv hesab edir. Hər yerdə bilik «nə üzərindəsə hakimiyyət», idrak və onun praktik nəticələri isə gücün, əqlin təbiət üzərində qələbəsi kimi başa düşülür. Qender tədqiqatlarının əhəmiyyəti zorun sadəcə cinslərarası münasibətlərdə deyil, bir çox başqa sahədə də aparıcı rolunu açmasındadır. Məhz bu araşdırmalar göstərir ki, qadın-zəif rolunda ayrı-ayrı irqi, etnik, konfessional, siyasi və b. qruplar, hətta bütövlükdə xalqlar, dövlətlər də çıxış edə bilər. Bu mənada qender araşdırmaları irqi, dini, etnik, konfessional, siyasi zorun spesifikasını açır. Beləliklə, əsl qender tədqiqatları sadəcə qadınları kişi hakimiyyətindən azad etməyə yönəlmiş konsepsiya deyil. O, daha çox dünyagörüşündə «demokratizm»in bir növüdür və insan cəmiyyətinin, xüsusən də öz hüquqlarını məhdud müdafiə imkanlarına malik azlıqların bütün üzvlərinin xüsusiyyət və fərqlərini, hüquqlarını nəzərə almağa çağıran bir təlimdir.

Qeyd etdiyimiz kimi, qender tədqiqatlarının yaranması feministlərin xidmətidir. Feminizm qadınların istismarına və ayrı-seçkiliyinə qarşı yönəlminş ictimai-siyasi hərəkatdır. O, uzun müddət qadınların bərabərhquqluluq ideologiyası olub. İndi o həm də fəlsəfi konsepsiyadır. Düzdür, hələ indi də çoxları feminizmin müstəqil fəlsəfi konsepsiyası, nəzəriyyəsi olmasını şübhə altına alır, onu başqa nəzəriyyələr içərisində əridərək, sadəcə bir hərəkat, ideologiya kimi təqdim etməyə çalışırlar. Misalçün, son illər tənqidi nəzəriyyənin (Fritorf Türke) və analitik fəlsəfənin nümayəndələri (Yozef Marqolis) feminizmi siyasi-sosial hərəkat kimi tanıyır və onu müstəqil fəlsəfi nəzəriyyə hesab etmirlər. Onlar konkret problemləri həll etmək üçün qadınlara öz nəzəriyyələrini təklif edirlər.

Anlamaq çətin deyil ki, nəzəriyyəyə münasibətdə fəlsəfə statusu, praktikaya münasibətdə nəzəriyyə statusu, təbii biliyə münasibətdə «xalis» bilik statusu uğrunda mübarizə əslində hakimiyyət uğrunda mübarizədir. Feminizmin başqa nəzəriyyələrlə «nigah müqaviləsi»ndə də söhbət hakimiyyət uğrunda mübarizədən və hakimiyyət (tabelik) strukturunda yerdən gedir. Bu vaxt cinslər arasında hakimiyyət münasibətləri belə anlaşılır: kişi cinsi universal insan varlığı statusuna iddiaçıdır, qadın cinsi isə insan varlığının ikinci, xüsusi halı hesab olunur.

Feminist epistemoloq və metodoloqların klassik əsəri "Açılan reallıq" (Discovering reality. Feminist perspectives on epistemology, metaphysics, methodology and philosophy of science. 1983) məcmuəsi hesab olunur. Müəlliflər Qərb maskulin elminin rasionallıq ideallarını, təcavüzkarlıq, rəqabət kimi xüsusiyyətlərini tənqid edərək, onu daha femin, antropomorf meyllilikIə əvəz etməyi təklif edirlər. Məlumdur ki, nə konfusiçilik, nə daosizm, nə sufizm, nə də qədim türklərin panteizmi bu kimi «maskulin» keyfiyyətləri ehkamlaşdırmır. Və bu mənada feminizmin xidməti bəlkə də «yumşaldıcı» faktorları, idrakın sosial-psixoloji komponentlərini, ekologizm və vitalizmi dəstəkləmələrindən çox, Qərb fəlsəfəsi və rasionalizminin dualizminə qeyri-ənənəvi yanaşmasındadır. Dualizm deyəndə, subyekt-obyekt, şüur və materiya, ruh və cism, xarici və daxili, canlı və cansız olanın qarşı qoyulması başa düşülür. Məsələn, İ. F. Keller elmi hadisələrin iyerarhik xarakterinə görə kosmoloji

izah idealını tənqid edərək, idealı sistem nizamında axtarır. Yəni iyerarhiyayayla yanaşı təşkilat da var.

«Qadın» - «kişi» kateqoriyalarının qarşı qoyulması ilkin təfəkkür mərhələsində meydana çıxan binar qarşıqoymalarla bağlıdır. Bəzi müəlliflər, məsələn, M. İliadi, T. V. Sivyan dünya modelində cins simvolikası və cins kateqoriyasının əsas rolundan danışırlar. Amma alimlərin çoxu, o cümlədən, S, S. Averinsev, İ. S. Kon, E. L. Torçinov, S. de Bovuar belə hesab edirlər ki, binar qarşıqoymalar tarixən cinsi dimorfizmin nəticəsi deyil. Fikrimizcə, bu daha doğru mövqedir.

Çində və Qədim Hindistanda cinslərarası münasibəti nəzərdən keçirsək, Çində hissi həyatın insanın sosial və mənəvi həyatının əsas hissəsi olmadığına əmin olarıq.

Hindistanda isə o hələ qədim mətnlərdə (Riqveda, Manu qanunları, Mahabarata və Upanişadalarda), kosmoloji sistemlərdə, ritual simvolikada, mifologiya və sonrakı cərəyanlarda üstün idi. Burda arzu yaradıcı qüvvə kimi çıxış edir.

Cinsi simvolizmin tarixi-mədəni proyeksiyasını nəzərdən keçirən müəlliflər belə nəticəyə gəlir ki, Qərb mədəniyyətinin əsasında fundamental dualizm dayanır. Şərq mədəniyyətində isə bu, yoxdur. Sonuncu Şərqdə dualist deyil, korrelyativ təfəkkür tipinin mövcudluğu ilə izah olunur. Hakimiyyət münasibətlərində dualizmi gördüyü üçün feminizmin müasirliyin analoji alternativ cərəyanları ilə –ekologizm, sosializm, antikolonializm, müqayisəli fəlsəfə, poststruktalizm, neopraqmatizm və postmodernizmlə yaxınlıqları üzə çıxır.

**Elmira Təhməzova**
*Elmi işçi*

## MÜASİR AZƏRBAYCANDA QADIN PROBLEMİ

Müstəqillik qazandıqdan sonra Azərbaycan qadınlarının həyatında da bəzi dəyişikliklər olmuşdur. Qadınlarımız ictimai, iqtisadi, mənəvi həyatın bütün sahələrində kişilərlə bərabər hüquqlar qazanmış və yaradıcı surətdə cəmiyyətdə xidmət etmişlər.

Lakin onu da qeyd etmək düzgün olar ki, bu lazımı səviyyədə deyildir. Belə ki, ailədə, məişətdə, kollektivdə, ictimai sahədə kişi və qadın münasibətləri düzgün başa düşülməmişdir. Məncə, bununla əlaqədar qeyri dövlət təşkilatlarının üzərinə böyük vəzifə-təbliğat işini gücləndirmək düşür. Bəziləri bu işi təkcə qadınların cəmiyyətdəki fəaliyyətini araşdırma və öyrənmə, qadınların cəmiyyətdəki rolunu təyin etməyi bu məsələni həll olunmuş hesab edirlər. Əlbəttə, qadınların ictimai həyatda rolunu artırmaq üçün onların ictimai həyatda bərabərhüquqluğunu təmin etməklə iş bitmir. Bu məsələnin həllinə birtərəfli yanaşmaq düzgün olmaz.

Elmi ədəbiyyatda qeyd olunduğu cinslər arasında münasibətlərin bioloji və sosial anlamlar arasında olan fərq əhəmiyyətlidir. Cinslər arasında bioloji və sosial fərqlərin başa düşülməsi bir çox problemin həllinə kömək edərdi.

Bəzən ortaya belə bir sual çıxır. Qender probleminin araşdırılması zamanı ən çox səslənən qadınların hüquqlarının pozulması nə deməkdir? Məgər kişilərin və ya kişi cinsindən olan işçilərin hüquqları az pozulurmu ? Bəzi təşkilatlarda kişi cinsindən olan işçilərin hüquqlarının pozulması hallarına da tez-tez təsadüf olunur. Onların əməyindən kölə kimi istifadə edilməsi buna bariz misaldır. Bəzən də onların ağır iş şəraitində işləməsi, iş vaxtı pis qidalanma, bəzən səhlənkarlıq nəticəsində hətta ölümlə nəticələnən qəzaların baş verməsi zamanı insanlara göstərilən laqeydlik, onların ailələrinə kompensasiyaların verilməməsi, yaxud da insanların şikayət və narazılıqlarına məhəl qoyulmaması bunun açıq-aydın nümunəsidir. Bəzən də işçilərin müqavilə vaxtının hələ qurtarmamasına baxmayaraq işdən qovulması halları da müşahidə edilir. Deyilənlərlə yanaşı yenə də bizə məlumdur ki, qadın hüquqları təəssüf ki, əksər hallarda pozulur. Bunu həm ailə daxilində, həm də cəmiyyətdə aydın görürük. Mənə elə gəlir ki, insanların maariflənməsi, mənəvi cəhətdən zənginləşməsi bu problemin həllinin mühüm amillərindən biridir. Eyni zamanda bu problemə birtərəfli yanaşmaq da düzgün olmaz. Əgər söhbət təkcə bir cinsin maariflənməsindən mənəvi zənginliyindən gedirsə, yenə də məsələ həll edilmiş olmaz. Yəni qadın maariflənər, ailədə kişi isə onun səviyyəsindən aşağıda durursa, yaxud əksinə olanda da ailə möhkəm ola

bilməz. Sonda bu ailədə bəzən boşanmaya gətirib çıxara bilər. Belə ki, insanların maariflənməsi, onların dünyagörüşünün artırılması əsas məsələlərdən biri hesab edilir. Birinci növbədə ölkənin təhsil sisteminə diqqəti artırmaq, onun keyfiyyətinə nəzarət etmək dövlətin ən mühüm strategiyası olmalıdır. Bizdə 6 - 16 yaş arası təhsil icbari olmasına baxmayaraq buna çox vaxt əməl olunmur. Elə kənd və qəsəbələrimiz vardır ki, orada təhsilin keyfiyyəti çox aşağı səviyyədədir. Elə məktəblər var ki, orada qızlar tamamilə məktəbə getmirlər. Belə ki, onların nə orta icbari təhsilləri olmur, ya da heç bir ixtisas qazana bilmirlər. Bəzi kəndlərdə apardığım araşdırma nəticəsində məlum olur ki, bir məhəllədə, kəndin dörddə bir hissəsində yaşayan 10 ailədə 27 yaşla 40 yaş arasında heç bir yerdə işləməyən heç bir icbari təhsili olmayan 21 nəfər subay qız yaşayır. Nə ata-ana, nə də əlaqədar təşkilatlar onların təhsili, işi ilə maraqlanmırlar. Belə hallar çox kənd və qəsəbələrimizdə adi haldır. Həmin rayonlarda əlaqədar təşkilatlar onların problemləri ilə məşğul olmurlar. Halbuki onların icbari təhsilləri ilə maraqlanan olsaydı, onlara müəyyən bir ixtisas verilsəydi və onların bacarığına uyğun iş yerləri açılsaydı bu məsələ öz həllini tapmış olardı. Mənə məlumdur ki, onların xalça toxumaq bacarığı vardır. Lakin bu barədə heç kim maraqlanmamışdır.

Bir də onu qeyd etmək yerinə düşər ki, onların ailə qurmamasına səbəb oğlanların qazanc məqsədilə Rusiyaya, başqa ölkələrə getməsidir. Rayon və kəndlərimizdə iş yerlərinin olmaması burada yaşayan əhalinin ən ağrılı yeridir.

**İşsizlik və gənclərin ailə qurmaq problemi nöqteyi nəzərindən də məsələlərə toxunaq.**Bəzən elə ailələr vardır ki, oğlan evlənir, sonra işə qadını 1 və ya 2 uşaqla evdə qoyub qazanc üçün başqa yerlərə, ölkələrə üz tutur.Nəticədə qadın uşaqlarını təkbaşına böyütməli olur.

Kişilərin bəzisi tamamilə ailəni unudur. Onun məsuliyyətini dərk etmədən atır və getdikləri ölkələrdə başqa millətdən olan qadınla yaşayır. Bəziləri isə qiyabi ailə başçısı rolunu uzaqdan-uzağa yerinə yetirməyi özünə «borc» bilir.

Bildiyimiz kimi qadın problemi Qender probleminin bir hissəsidir. Qender cinslər arasında münasibətlərin sosial aspektdə araşdırılması problemidir. Qadın probleminin

mahiyyətinin araşdırılması eyni zamanda qarşı tərəfin uyğun problemlərinin paralel qaldırılmasına gətirib çıxarar. İstər istəməz qadınların mənən zənginləşməsi əks cinsin uyğun xüsusiyyətlərinin dəyişməsinə gətirib çıxarar. Yaxud da əksinə.

Bəşər tarixinə cinslər arasında münasibətlər baxımından yanaşmaq köhnə təsəvvürlərimizi dəyişir. Cəmiyyətin inkişafının indiki bəzi problemlərinə də təsir edir. Eyni zamanda gələcəyin inkişafının istiqamətlərinə də müsbət təsir göstərir.

Onu da qeyd etmək lazımdır ki, qadın problemlərindən danışdıqda ailə onun bir üzvü olan uşaqların tərbiyəsi və onların cəmiyyətdə tutacaqları mövqe, cəmiyyətin inkişafında onların hansı vəziyyətdə olacaqları müasir insanları düşündürməlidir və bu onun vətəndaşlıq borcu olmalıdır. Müasir insanın qarşısına qoyduğu bir məqsəd də bu olmalıdır ki, gələcəyimizin vətəndaşı kim olmalıdır? Hər bir kəs öz ailəsində böyüyən uşağın tərbiyəsinə təkcə valideyin borcu deyil, gələcəyin vətəndaşını yetişdirib boyabaşa çatdıran bir tərbiyəçi kimi bunun ciddiliyini başa düşməlidir. Onu da dərk etməliyik ki, bəzən yerli- yersiz, hər bir hərəkətlərinə irad tutduğumuz bu kiçik məxluqların üzərinə necə böyük «yük» qoyub gedirik. Bir tərəfdən keçid dövrü deyib yaşadığımız dövrün qeyri-sabit iqtisadi durumu, bir tərəfdən də Qərb və Şərqin toqquşan və hər an uşaqların tərbiyəsinə bəzən mənfi təsir edən bəzi Qərb mənəvi dəyərləri, eyni zamanda şərqin dini fanatizmi onların tərbiyəsindən yan keçmir.

Ailədə insanların rastlaşdıqları bu kimi problemlər uşaqların tərbiyəsinə mənfi təsir göstərir. Eyni zamanda bu hal uşaqlarda mənfi mənəvi xüsusiyyətləri əmələ gəlməsinə səbəb olur. Onlar müəyyən bir fəaliyyət prosesində öz iradəsi və öz əməyi ilə deyil, başqa yollarla işin düzələcəyinə əmin olurlar. Məsələn belə ki, məhkəmənin haqsız qərarı ilə qonşunun evinin əlindən alınması prosesini görən azyaşlı uşaq bunun necə olduğunu valideynlərinə inadla sual verir. Yaxud da, il boyu pis oxuyan dostuna rübdə əla qiymət yazan müəllimə uşağın necə münasibət göstərməsi hamımıza aydındır.

Beləliklə də, cəmiyyətdə bu kimi halları görüb onlar özlərinə, öz iradələrinə inamsız böyüyürlər. Bu kimi hallara cavab olaraq dahi Nizami uşaq və yeniyetmələrin bu gün də

aktuallığını itirməyən, təhsildə və təlimdə təbliğ olunan müstəqillik və onun rolunu yüksək qiymətləndirərək belə yazırdı:

«Öz adına layiq işlər gör ki sən,
Axırda utanma xəcalətindən »

**Elmirə Təhmazova**

## QADINLARIN SÜLH MƏDƏNİYYƏTİNİN FORMALAŞMASINDA ROLU

Hamıya məlumdur ki, ölkəmiz müharibə şəraitindədir. Səngərlərdə oğullarımız hər an düşmənlə üz-üzə gəlirlər. Elə gün olmaz ki, düşmən atəşkəsi pozmasın. Tez-tez oğullarımız düşmənin güllələrinə tuş gəlirlər. Bu şəraitdə yaşayan əhalinin hər biri narahatdır. Xüsusən cəbhəyə oğul yola salan insanlar bu taleyin ağırlığını yaşamalı olurlar.

Qadın sülh elçisi olub. Münaqişələrin ən ağır anında onun hər hansı işə müdaxiləsi ilə münaqişələr əksər halda müsbət həll olunub.

Uzaq keçmişimizə nəzər salanda böyük siyasətçi, diplomat qadın Sara Xatun yada düşür. Uzun Həsən hələlik Osmanlılarla sülh bağlamaq qərarına gəldikdə Şərqdə diplomat qadın kimi məşhur olan anası Sara Xatunu Sultanın düşərgəsinə – Bolqar dağına göndərir. Məlumata görə diplomatik danışıqlar zamanı Sara Xatun və II Mehmet bir-birinə «Ana» «Oğul» - deyə müraciət edirdilər. Halbuki hər ikisi bir-biri ilə vuruşan düşmən tərəflər hesab edilirdilər. Bundan başqa N. Gəncəvinin də göstərdiyüi kimi, Makedoniyalı İskəndər bütün dünyanı öz hakimiyyəti altında birləşdirmək qərarına gəlir. O Azərbaycan torpağına gəlib çatdığı zaman Bərdə hökmdarı Nüşabə ilə üz-üzə gəlməli olur. Öz torpağını göz bəbəyi kimi qoruyan və sevən bu qadın müharibələrin nə olduğunu gözəl bilirdi. Onun törətdiyi faciələr ona bəlli idi. Ona görə də xalqını bu bəlalardan qurtarmaq üçün Makedoniyalı İskəndərlə sülh danışıqları aparmaq qərarına gəlir. Nizami Gəncəvi faktlara əsaslanaraq yazdığı əsərində bunun ifadəsini açıq-aydın

görürük. Burada xalqını faciələr törədən, müharibədən, xalqa yalnız məşəqqətlər gətirən bir vəziyyətdən necə xilas olmağın yolları göstərilir. Bərdə hökmdarı Nüşabə də necə olursa-olsun xalqını, ölkəsini bu bəlaladan qurtarmaq üçün İskəndərlə nəyin bahasına olursa olsun sülh yaratmaq qərarına gəlir. Onun Böyük İskəndərlə apardığı diplomatik danışıqları sülh yaratmaq işində nailiyyət hesab olunur. Başını məğrur tutaraq kəsərli sözlərlə İskəndəri qarşılaması və ləl-cəvahirətlə onu yola salmaq istəməsi ona böyük təsir edir və onunla müharibə deyil sülh yaratmağa qərar verir. Belə münasibətlərin yaranması Azərbaycan hökmdarı Nüşabənin qələbəsi idi. O öz bacarığı ilə, dipolmatik istedadı ilə müharibənin qarşısını alır və xalqını, vətənini böyük bəlalardan qurtarır.

Beləliklə onu da qeyd etmək doğru olar ki, tarix boyu Azərbaycan qadını sülh tərəfdarı olub və sülh yaratmaq sahəsində öz əməyini əsirgəməmiş və bu işin müsbət həllində daim mübarizə aparmışdır. Xalqımız hələ əsrin əvvəllərindən götürsək neçə-neçə faciələrlə üz-üzə gəlib. Dəfələrlə erməni vəhşiliyinin törətdiyi faciələrlə rastlaşıb. Neçə dəfələrlə minlərlə oğullarımız qurban gedib. Ya faciəli surətdə həlak olub, ya da əsir götürülüb. Neçə-neçə gəlinlərimiz, qızlarımız həlak olub. Yaxud da əsirlikdə özlərini məhv ediblər. Məsələ bir də ondadır ki, Azərbaycan xalqı heç vaxt başqa torpağına soxulmayıb, başqasının torpağında gözü olmayıb. Həmişə o, öz torpağını xalqını yad düşmənlərdən qoruyub həlak olub öz torpağında ölməyi şərəf sayıb. Şərəfsiz ölüm o ölüm olur ki, özgəsinin torpağına soxulub insanları – qocaları, qadınları, uşaqları öldürəsən və özün şərəfsiz məhv olasan. O kəslər, analar, bacılar bilməlidirlər ki, belə şərəfsiz ölüm heç oğula, heç bir millətə, heç bir xalqa başı ucalığı gətirməz.

Bütün dünya qadınları birləşib belə müharibələr törədən, başqa xalqın torpağına göz dikən ölkələrin qadınlarını başa salmalı, bu siyasətdən əl çəkməyi, onları sülhə, sülh mədəniyyətinə riayət etməyə çağırmalıdırlar.

Onu da qeyd etək istəyirəm ki, müasir Azərbaycan qadınları sülh yaratmaq işində böyük işlər görürlər. Onlar

diplomatiya işində əksər danışıqlarda həm xarici ölkələrdə, həm də ölkəmizdə keçirilən görüşlərdə yaxından iştirak edərək sülh yaratmaq işində öz səylərini əsirgəmirlər.

Onu da qeyd edim ki, əgər düşmən öz əməllərindən əl çəkməzsə, öz torpağını, millətini, ocağını, körpəsini qorumaq üçün əlində silah səngərdə vuruşan qadın və qızlarımız döyüşməyə hazırdır. Xalqımızın yetişdirdiyi, Həcərləri, Nigarları, Gültəkin və Salatın kimi qadınlarımızın şücaəti hamıya bəllidir.

Bununla yanaşı Birləşmiş Millətlər Təşkilatının Qadınlar üçün inkişaf Fondu BMT-nın qadınların hüquqlarının genişləndirilməsi və bərabər hüquqluluğunu yaratmaqla məşğul olan bir təşkilatdır. Onun «Qadınlar Cənubi Qafqazda Münaqişələrin Qarşısının Alınması və Sülh Yaradılması Uğrunda» layihəsinin məqsədi Cənubi Qafqazda sülh prosesində iştirak etmək üçün qadınların potensial imkanlarının yaradılması və artırılmasıdır.

Bir sözlə Azərbaycan qadını sülhsevər, qadınlardır. Ancaq lazım gələndə əldə silah vuruşmağı da bacarır.

**Xələfova Gülsüm**
*dissertant*

## ZORAKILIĞN QENDER ASPEKTİ

Yeni III minilliyə qədəm qoyduğumuz bir vaxtda bəşəriyyətin qarşısında zülmün, zorakılığın bütün təzahür formalarını, istər ailədə, istər cəmiyyətdə, istərsədə müxtəlif etnik qruplar, dövlətlər arasında araşdırmaq problemi dəkəskinliklə meydana çıxır.

Tarixə nəzər salsaq görərik ki, dünyada müharibə ideyaları ilə yanaşı həmişə sülh çağırışları da olmuşdur. Hələ qədimdən «əbədi və ədalətli sülh» ideyası mövcud olmuş və bu ideya sonralar siyasi düşüncənin əsasını təşkil etmişdir.

Müasir zamanda qadınların sülh hərəkatında aparıcı rol oynadıqlarını nəzərə alaraq, onların vəziyyətini yaxşılaşdırmaq

naminə, sülhün bərqərar olunması istiqamətində müsbət addımlar atmaq, beynəlxalq nəzarət şəraitində ümumi və tam tərksilaha nail olmaq lazımdır. Bərabərlik, inkişaf və sülhə nail olmaqda, sosial ədaləti təmin etməkdə və həmçinin insan hüquqları məsələlərində qender münasibətləri mühüm bir amildir. Bəşəriyyətin mənafeyi naminə sabit inkişafın əsas şərtlərindən biri də qadın və kişilərin arasındakı tərəf müqabillik münasibətlərinin bərabərlik əsasında qurmasıdır.

Bildiyimiz kimi bəşəriyyət cinslər arasındakı münasibətləri öyrənməyə can atmış, onlar arasındakı münaqişələrin mahiyyətinin bioloji və ya sosial amillərdən asılı olmasını araşdırmağa çalışmışdır.

Təəssüflər olsun ki, dünyanın bugünki qlobal problemlərindən biri qadınlar üzərində zorakılıq məsələsidir. Azərbaycanda aparılan sorğulara əsasən kişilərin əksəriyyəti belə hesab edir ki,qadınların döyülməsi onların özləri ilə bağlı bir problemdir. Acınacaqlı haldır ki, qadınların əksəriyyəti də bu yersiz fikri dəstəkləyir. Məgər hələ dünyaya göz açmamış qız uşaqlarının məhv edilməsi qadınlara qarşı yönəlmiş zorakılığın birinci əlaməti deyilmi? Belə ki, qadınların bir çoxu uşağın cinsiyyətini müəyyənləşdirərkən onun qız olduğunu bilib onu elə ana bətnində məhv edirlər.

Azərbaycanda döyülməkdən əlilə çevrilən və ölən qadınların sayı artır. Bunun nəticəsi kimi yeniyetmə qız uşaqları depressiyaya məruz qalır ki, onların özünə qəsd etmək ehtimalı artır.

Bəs bütün bu zorakılıqların qarşısını necə almaq lazımdır? Bu suala qismən cavab vermək qender münasibətlərini araşdırmaq, münaqişələrin yaranma səbəblərini öyrənmək yerinə düşərdi. Ümumiyyətlə qender münasibətləri cəmiyyətin davamlı inkişafının əsas elementlərindən biridir. Bu münasibətlərdə insan münasibətlərinin demək olar ki, ən mühüm məqamlarından biri olan mədəniyyət reallaşır ki, bu da cinslər arsındakı münasibətlərin tənzimlənməsinə böyük təsir göstərir.

Qender probleminin mahiyyəti ailə ilə sıx bağlıdır. Belə ki, ailədə qadın və kişi münasibətləri çox mürəkkəbdir. Həqiqətən 2 müxtəlif xasiyyətə, mədəniyyətə, dünyagörüşlərinə malik olan

insanların bir yerdə yaşayıb, bir- birinin xasiyyətinə dözüb ümumi qayğılarla yaşamalıdır.

Ağır iqtisadi vəziyyət ailədə qadın və kişinin rollarına təsir edir. İşsizlik və ailəsini təmin edə bilməməsi problemi kişiləri psixoloji baxımından sarsıdır, ağır şəraitdə daha dözümlü olan qadınları isə ailələrini təmin etməyə vadar edir. Bu zaman kişi ilə qadın arasında psixoloji münaqişə baş verir. Bu münaqişə ailənin digər üzvlərinə də sirayət edir. Bundan başqa iş qabiliyyətinə malik olan kişilər qazanc dalınca başqa ölkələrə üz tutur və bu da çox vaxt yenə ailənin dağılmasına səbəb olur. Ailənin dağılması öz növbəsində uşaqların tərbiyəsinə təsir edir və onların cinayət yoluna düşməsinə səbəb olur.

Gənc nəslə başa salmaq lazımdır ki, müəyyən vəziyyətlərin, problemlərin dərk edilməsi onların şəxsi həyatlarından, yaşadıqları cəmiyyətin inkişaf tarixindən, adət-ənənələrindən asılıdır. Elə buna görə də insanlar bir-birlərini eyni dərəcədə dinləyib, çıxış yolunu tapmalıdırlar.

**Ələsgərova Günel**

## YAXIN ŞƏRQ ÖLKƏLƏRİNDƏ QADIN HÜQUQLARI VƏ PROBLEMLƏRİ

Şübhəsiz ki, respublikamız qadın hüquqlarının qorunması baxımından Yaxın Şərq ölkələri arasında öndə gedən ölkələrdəndir. Burada heç kim və heç nə qadınları vicdan azadlığından məhrum etmir, onların təhsil almaq, onların təhsil almaq, elmi və mədəni cəhətdən inkişaf etmək hüquqlarını əllərindən almır, əksinə, qadınlara da kişilərlə bütün hüquqlar verilir, məsuliyyətli işlər, vəzifələr həvalə olunur. Azərbaycanda qadınların əksəriyyəti müəyyən sahələrdə çalışır. Lakin hələ də işəgötürənlər arasında otra əsrlərdə feodalizm dövrünün qalıqları özünü büruzə verir. Çox vaxt işəgötürənlər işçilərə istehsal prosesinin subyekti kimi deyil, minimum xərc ödəməklə makimum gəlir əldə etmə obyekti kimi yanaşırlar. Ümumiyyətlə bu günki gündə qadınların rastlaşdığı bir çox problemlər təəssüf ki, hələ də tamamilə aradan qaldırılmamışdır. Xoşbəxtlikdən

ölkədə hökm sürən bir sıra qanunlar bu problemlərin mədəni yolla aradan götürülməsinə əsas verir.

«Yaxın Şərqlə əməkdaşlıq» (YŞƏ) layihəsinin yaranmasının dörd əsas səbəbindən biri də sırf qadın problemləri ilə bağlıdır. Bu layihə, 2002-ci ildə C.Buş idarəsinin təşəbbüsü ilə, yaradılmışdır. Dövlət departamentinin 23 avqust 2004-cü il tarixində verdiyi arayışa əsasən 9 mln. ABŞ dolları yalnız qadın problemləri və onların həlli üçün nəzərdə tutulmuşdur.

Müasir dövrdə yaxın Şərqdə despotların məğlubiyyətini və rəhbər demokratiyanın yüksəkliyini izləyirik. Qadınların müxtəlif təşkilatlarda, orqanlarda özünəməxsus yer tutmasını, dövlət səviyyəsində müəyyən nüfuza malik olduqlarını, hər fərdin azadlıq və hakimiyyət uğrunda apardığı mübarizəni görürük. Ölkəmizdə insan hüquqları və azadlığı naminə aparılan səmərəli tədbirlərdən, görülən işlərlərdən qürur duyuruq. Lakin bir çox ölkələrdə, xüsusilə Şərq aləmində qadınlara bəslənilən hörmətə, onların ailədə nüfuslu yer tutmalarına baxmayaraq, onların azadlıqları və seçim hüquqları son dərəcə məhduddur. Başlıcası qadınlar arasında təhsil almaq, işə qəbul olmaq, məişətdə kişilərlə bərabər hüquqları paylaşmaq imkanı, çox məhduddur.

Ümumiyyətlə, zaman keçdikcə Ərəb ölkələrində qadınların daha böyük nüfuza malik olması, onların elmə yiyələnmək həvəsi gələcəkdə bu ölkələrin sürətlə inkişaf edəcəyindən xəbər verir. Bir çox ərəb ölkələrində bi kimi islahatlar aparılır, qadınların vəziyyətinin yaxşılaşması üçün forumlar, lahiyələr təşkil olunur. Məsələn, Misir Ərəb Respublikasında qadın hüquqları üzrə qadın forumu yaradılmışdır. Forumda, ərəb ölkələri qadınların qarşılaşdıqları problemlər və onlarla mübarizə yolları haqqında müzakirələr aparılır.

Bu kimi tədbirlər nəinki Şərqdə, dünyada qadınların hər cəhətdən vəziyyətlərinin yaxşılaşdırılması üçün zəruridir.

**Ə.M.Tağıyev. K.Qasımova**

## SİYASİ MƏDƏNİYYƏT VƏ QENDER.

Siyasi mədəniyyət və qender problemləri biri-birilə qarşılıqlı əlaqədə olan mühüm sosial-siyasi fenomenlərdir. Məsələ ondan ibarətdir ki,cəmiyyətin siyasi mədəniyyəti inkişaf etdikcə onda baş verən qender problemlərinin həlli də asanlaşır. İnsanlar siyasi proseslərə qoşulduqca onlar qenderin sosial-siyasi əhəmiyyətini daha dərindən dərk edir, onun Azərbaycan şəraitində bu günkü inkişafını təhlil etməyə maraq göstərirlər.

Siyasi mədəniyyət hüquqi münasibətlərin nizamlanmasının mənbəyi olub şəxsiyyətlə dövlətin hərəsinin özünəməxsus vəzifələrinin yerinə yetirilməsinə qarant verən amildir. Müstəqillik şəraitində insanların dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı anlaşma yaradan bir körpü olub cəmiyyətin aksioloji dəyərlərini tamamlayır. Adları yuxarıda çəkilən bu amillər göstərir ki, müasir Azərbaycan həyatı üçün siyasi mədəniyyətin tədqiq olunması aktuallıq kəsb edir və respublikanın qarşısında duran mühüm sosial-iqtisadi, sosial-mədəni proseslərin həllində çox mühüm rol oynayır.

«Siyasi mədəniyyət» anlayışı elmə XVIII əsrdə İohan Herder tərəfindən gətirilmişdir. İkinci Dünya müharibəsindən sonra xüsusilə geniş tədqiq olunmağa başlamış, Qərb alimləri tərəfindən dünya sosializm sisteminin və inkişaf etməkdə olan üçüncü dünya ölkələrinin siyasi sistemlərinin öyrənilməsində istifadə olunmuşdur. Müasir müstəqillik və demokratiya şəraitində xalqların öz siyasi həyatlarının yenidən qurduqları bir zamanda siyasi mədəniyyət siyasi ideyalara çatmaq vasitəsi kimi mühüm əhəmiyyət kəsb edir. Siyasi həyatın transformasiyası sosial kütlür problemlərin həlli və inkişafı üçün də zəmin yaradır.[2]

1. Naxçıvanlı A.Q. Etika i politika: istoriə i sovremenostc, Baku, 2000, s 138.

Siyasi mədəniyyət siyasi prosesin obyektivliyini və subyektivliyini də özündə əks etdirir. Siyasi mədəniyyətdə, habelə cəmiyyətin və insanların kultroloji və siyasi dəyərləri, tarixi, milli konfessional və psixoloji xüsusiyyətləri, siyasi sistemin formalaşması və fəaliyyət göstərməsində mexanizmi də əks olunur. Bütün bunlardan əlavə, buraya xalqların və millətlərin tarixi təcrübəsi əsasında formalaşan mədəniyyət ənənələri də

2

daxildir. Həm də bu mədəniyyət nümunələri insanların siyasi münasibətləri çərçivəsi daxilində başa düşüləndə siyasi mədəniyyətin insanların gündəlik həyatlarında oynadığı rol daha yaxşı anlaşılır. Siyasi mədəniyyətin insan həyatında oynadığı rol bununla bitmir. Adamların inkişafı, siyasi sistemə münasibəti, ona qarşı bəslədikləri hissləri və duyğuları, siyasi qərarların qəbul edilməsi bacarığı və s. də siyasi mədəniyyət sahəsinə aid olunur. Bütün bunlar sübut edir ki, iki əsrin qovşağında Azərbaycan cəmiyyətində baş verən mühüm sosial- siyasi proseslər, onun siyasi mədəniyyətinin öyrənilməsini bir zərurətə çevirir. Mövzunun aktuallığını şərtləndirən digər bir amil isə ictimai həyat prosesləri nin inkişafı ilə daim əlaqədə olan insanın siyasi fəaliyyəti yalnız onun koqnitiv ( dərketmə ) və emosional- hissi fəaliyyətilə vəhdətdə götürüldükdə müəyyən effekt verə bilər. Bu baxımdan yenicə müstəqillik qazanan xalqımız üçün onun siyasi mədəniyyətinin inkişafı problemlərinin öyrənilib tədqiq olunması xalqımızın həyatında müstəsna əhəmiyyətə malikdir. Çünki cəmiyyətin siyasi həyatında heç də hamı iştirak etmir. Ola bilsin ki, siyasi mədəniyyət cəmiyyətin çox cüzi bir qismini əhatə etsin və heç digərlərinə təsir də etməsin. Daha aydın desək siyasi mədəniyyət cəmiyyətin siyasi dəyərlərə və normalara nə dərəcədə reaksiya verməsindən asılıdır

Siyasi mədəniyyətin funksiyaları haqqında V.A.Maltsevin fikirləri də maraq doğurur. Xarici müəlliflərin əsərlərinin təhlili əsasında.V.A . / Panarin A.S. Politologiə, M, 1996, s.224

Maltsev siyasi mədəniyyətin subyektiv cəhətlərinə üstünlük verir və onun aşağıdakı funksiyalarını ön sıraya qoyur:

- orientasiyalara;
- dəyərlər;
- davranış aktları;
- siyasi biliklərin məcmusu;
- siyasi ənənələrin və novatorluğun vəhdəti və mübarizəsi.1

Xarici ölkə alimlərinin «proqmatik» fikirlərinə görə siyasi mədəniyyət siyasi davranış normalarının ümumi məcmusudur. Siyasi mədəniyyətin əsas funksiyalarından biri kimi bu siyasi davranış növlərinin təkrar istehsalı və onların gələcək nəsillərə çatdırılması üsulu xüsusi yer tutur.2

Onu demək lazımdır ki, əksər tədqiqatçılar bu göstərişlərdən əlavə olaraq siyasi mədəniyyətin funksiyalarına aşağıdakıları da daxil edirlər:

-siyasi məkan daxilində insanların siyasi orientasiyası;

-insanların siyasi həyatında onların maraqları ilə cəmiyyətin maraqlarının uzlaşdırılması;

-siyasi mühitə uyğunlaşma;

-şəxsiyyətin sosiallaşması;

-insanların hüqüq və azadlıqlarının reallaşdırılması;

-müxtəlif sosial qrupların nümayəndələri olan insanların bir siyasi xətt ətrafında birləşməsi;

-ümumi siyasi simvollara və vahid siyasi dil ətrafında birləşən müxtəlif siyasi institutların bir sistem daxilində birləşməsi.

1Puqaçev V.P. Solovğev A.İ. Vvedenie v politoloqiö- M, 1995, s, 241- 242.

- 2Maltsev V.A.Osnovı politoloqii , M, Nauka, 1997, s.561.

Yuxarıda göstərildiyi kimi siyasi mədəniyyətin funksiyaları içərisində siyasi həyatın sosial mahiyyət kəsb etməsi mühüm yer tutur. Bu, siyasi mədəniyyətin nisbilik funksiyası ilə əlaqədardır.

Panarin siyasi mədəniyyətin aşağıdakı funksiyalarını qeyd edir;

-koqnitiv ( siyasi biliklər );

-emosional ( siyasi hisslər );

-qiymətləndirici ( siyasi dəyərlər və ideallar)

-proqnostik.

Siyasi mədəniyyət problemlərini tədqiq edən Q.Almond və S.Verva onu həm də «vətəndaş mədəniyyəti» kimi də qiymətləndirmişlər. Çünki onlara görə siyasi mədəniyyət və siyasi ənənə yeni şeylərdir.

Müstəqillik illərində xalqın siyasi mədəniyyətinə və formalaşmasına təsir göstərən çoxlu sayda hadisələr və faktorlar toplanmışdır.

Bunlar içərisində Qender hərəkatının yaranıb inkişaf etməsi xüsusi maraq doğurur. Respublikada qenderologiyanın bir elm sahəsi kimi ayrılması, qender problemlərinin geniş surətdə

tədqiqata cəlb olunması, qenderlə bağlı olan digər problemlərin onunla qarşılıqlı şəkildə öyrənilməsi demokratiyanın inkişafı üçün mühüm baza yaratmışdır.

İctimai siyasi həyatda qadınların rolunun artması, feminizmin real qüvvəyə çevrilməsi şəxsiyyətin hüqüq və azadlıqları uğrunda onların apardıqları mübarizə qenderologiyanın təsir dairəsini genişləndirir, qadın şəxsiyyətinin mövqelərini və nüfuzunu gücləndirir.

Şarl Furye yazırdı ki, qadının sosial vəziyyəti cəmiyyətin aynasıdır. Daha aydın desək, cəmiyyət üzvlərinin azadlığını qadın azadlığı olmadan başa düşmək olmaz. Cəmiyyətin aparıcı qüvvələrindən biri olan qadınlar həm iqtisadi, həm sosial- siyasi, həm də mədəni sahələrdə kişilərlə bərabər çalışırlar və həlledici funksiyalar yerinə yetirirlər.2 Burada tədqiq olunan problemlər; demokratikləşmə və şəxsiyyətin siyasi mədəniyyətinin inkişafı problemi də bu yuxarıda göstərilən problemlərlə və qarşılıqlı əlaqədə öyrənilmişdir. Keçid dövrü şəraitində Azərbaycan cəmiyyətinin yeni keyfiyyət halına keçməsi yuxarıda göstərilən bu amilləri zərurətə çevirmişdir.

1.Panarin A.S. Politoloqiə, M, 1996, s,224

2. Mirzəzadə. R. Qender; Siyasi- hüquqi təhlil- Bakı, 2004, s.4.

**Наиля Сулейманзаде**

## НЕКОТОРЫЕ АСПЕКТЫ ГЕНДЕРНОГО ОБРАЗОВАНИЯ

Гендер: демократия, культура мира, образование. Это вопросы, которые на современном этапе развития нашего общества играют важную роль. И это с точки зрения построения демократического общества.

Сейчас во всём мире происходит процесс глобализации, в который, кстати, вовлечён и Азербайджан.

Сложность происходящего заключается в том, что каждая нация, каждый народ отличается друг от друга своим

менталитетом, своими традициями, обычаями, нравственными устоями.

Вопрос заключается в следующем: как же нам перенять у Запада научно-технический прогресс, сохранив при этом свои национальные черты?

Тут наша задача – найти золотую середину. Однако на деле это очень сложное задание.

Рассмотрим этот вопрос с точки зрения гендерных отношений.

Эти отношения имеют в виду равноправие женщин и мужчин во всех сферах: в управлении, в образовании, в промышленности, и т.д., и, конечно же, дома. В одних обществах они претерпели незначительные изменения на протяжении длительного периода времени. В других подобная трансформация следовала за более бурными социальными и экономическими изменениями, в результате чего гендерные роли стали менее жёсткими. Тем не менее практически во всём мире гендер продолжает оставаться фактором, ограничивающим выбор возможностей как для женщин, так и для мужчин.

Гендерное равноправие на данном этапе развития нашего общества означает, по меньшей мере, предоставление женщинам возможности доступа к управлению и перераспределение домашних дел.

Однако, что же наблюдается у нас: мужчины управляют всеми процессами в обществе, а домашними делами занимаются женщины. Однако на протяжении всей истории Азербайджана мы видим, как женщины не раз показывали свой ум и отвагу (Томрис, Нушаба ханум и другие). А на Западе и по сей день у управления находятся немало женщин. Но потенциал её ничуть не больше нашей.

Проблема упирается в социальные стереотипы, которые действуют на протяжении столетий и которые не позволяют женщине быть «выше» мужчины. Обесценение же либо принижение одного пола (в частности подавление женщин) и возвышение другого ведёт к негативным явлениям. И наоборот, *равноправие, взаимность и взаимодополняемость* имеют позитивные последствия. Поэтому следует избегать гендерных

стереотипов и фактов несправедливости, основанных на ограничении достижений человечества по половому признаку.

На этом пути нам надо провести огромную работу. Это очень сложный процесс. Мы можем указать на некоторые, пути решения этого вопроса:

1) нужно создать гендерные образовательные программы;

2) использовать огромную роль СМИ.

-2-

В последнее время очень много говорят о том, что наша молодёжь «испортилась» в моральном плане.

С исчезновением границ в нашу страну нахлынул поток всякой информации (журналы, фильмы и т.д.). Показывая всё это здесь, мы забыли, что даже на Западе существуют определённые часы и специальные каналы для детей, для политики и для порнофильмов (кстати, платные). По телевизору идут сериалы, которые отражают не нашу жизнь. Но из-за

отсутствия досуга наша молодёжь с большим интересом смотрит и обсуждает сериал за сериалом, и пытаются походить на героев этих фильмов.

Тут возникает спорный момент.

С одной стороны, может если мы избавимся от всего этого и не будем «походить» на бразильянок, азербайджанские мужчины больше будут доверять женщинам и давать возможность продвинуться по карьерной лестнице и помогать дома?!

С другой стороны, возможно так быстрее происходит привыкание к современному «мировому» облику азербайджанской женщины.

И только в этом случае, то есть если женщина сможет иметь доступ к управлению, мы сможем сказать, что мы строим действительно демократическое общество и мы идём к миру, т.к. основным условием мира является равноправное отношение мужчины и женщины.

Возможно, если будет равное распределение управления между мужчиной и женщиной, общество (или государство) сможет избежать некоторых конфликтных ситуаций, что связано с

природным характером женщины (так как она мать и никогда не захочет терять детей).

Мы сказали, что нужно организовать гендерное образование.

Койхиро Матсуура, генеральный директор ЮНЕСКО, сказал: «Главная задача в области образования мира состоит в обеспечении справедливости в повседневной жизни людей в качестве гарантии надёжной опоры для демократии. Образование, как официальное, так и неофициальное, а именно: в школе, в семье, при содействии средств массовой информаций и общественных институтов - является наиболее важным процессом, содействующим укреплению ценностей, отношений поведенческих норм, соответствующих духу культуры мира».

Следует отметить, что гендерное образование это не женское образование. Это образование и мужчин, и женщин, и детей, - т.е. всего общества.

Конечно же, в Азербайджане осуществляется определённая работа в этой сфере. В частности, проводятся занятия по учебным гендерным программам в высших учебных заведениях.

Некоторые высказывают мнение, что гендерное образование следует начинать с детского сада, некоторые в семье, некоторые в школе. Однако, как может, к примеру, воспитать детей мать или отец, если у них самих нет понятия о гендере. Поэтому на данном этапе нужно просветить все слои

-3-

населения: рабочих, педагогов, врачей, политиков, служащих; людей всех возрастов: детей, подростков, взрослых. Иначе, сколько бы мы, педагоги гендера, ни старались, если есть противодействие, наши усилия будут безрезультатными. Ведь начинать любое дело сложно. Основная нагрузка при этом падает на учителей, так как именно они должны просветить население в этом направлении. Причём работа должна вестись как среди женщин (многие наши женщины соглашаются с второстепенной ролью и не проявляют инициативы в жизни), так и среди мужчин в равной степени.

Семья должна быть просвещённой в плане гендерных отношений, чтобы правильно воспитать Личность будущего.

В воспитании Личности первостепенная роль также отводится школам как учреждениям, в которых общество пестует пестует свои молодые поколения в процессе их подготовки к общественной, культурной и государственной деятельности. Однако тут наблюдается атмосфера соперничества и гендерного неравноправия, характерная для большей части современной системы образования.

Поэтому в школах наблюдаются гендерные проблемы, в результате чего у детей складываются гендерные стереотипы, определяющие всю его дальнейшую жизнь.

Возьмём, к примеру, одну сторону данной проблемы -- преподавательский состав.

Что мы видим в школах? Огромное количество женщин-преподавателей и в большинстве случаев мужчина-директор. То есть дети с рождения видят только женское воспитание (в семье, в детском саду, в школе), с одной стороны; и с другой стороны, они сознательно принимают то, что руководителем всегда должен быть мужчина.

Нам кажется, что было бы неплохо, если б существовала квота на количество учительниц и учителей, а директора, хотя бы в 30% школ страны, были бы женщины, то есть соблюдался бы гендерный баланс. Вообще, гендерное равноправие следует соблюдать на всех уровнях, и придерживаться идеи равноценности мужчин и женщин, исходящей из универсальной ценности человеческого достоинства. Баланс гендерных взаимоотношений должен превалировать во всех общественных институтах и человеческих отношениях, основываясь на концепции взаимодополняемости.

И мы обязательно должны учесть наши национальные особенности, национальный менталитет, общественную обстановку. Одним словом, все те факторы, которые влияют на формирование личности. Ведь, в конечном итоге, вводя гендерное образование, мы хотим положительно повлиять на личность независимо от пола, хотим, чтобы наши граждане были умными, мудрыми, полноценными людьми. Именно с такими людьми можно построить истинно демократическое государство, основанное на взаимопонимании и взаимоуважении.

Хочется надеяться, что наши усилия не останутся безответными.

**Гюльнара Касумова**
*доцент БГУ*

## ГЕНДЕРНЫЕ ИССЛЕДОВАНИЯ КУЛЬТУРЫ.

Гендерные исследования – самостоятельная область научных и образовательных интересов, которая изучает проблему взаимоотношения полов – проблему гендера – на стыке различных современных гуманитарных теорий. Предполагая теоретическую разработку проблем, связанных как с личностью, так и с обществом в целом, гендерные исследования представляют собой один из аспектов исследования такого феномена как культура. Анализ методологических основ гендерных исследований культуры – задача актуальная для философии культуры, культурологии и теории гендера.

Гендерные исследования получили статус официальной научной и учебной дисциплины в США. Антропологом Гейл Рубин было дано определение гендера, которое в 80-е годы становится основой для разнообразных концепций. (1)

В целом, характеризуя гендер как социальное различие между мужчинами и женщинами, можно утверждать, что выделение в науке гендерной тематики отражает определенные социокультурные изменения в обществе конца XX века. Это – смена ценностных приоритетов, этических идеалов, утверждения идеи права человека независимо от его пола на самореализацию и саморазвитие, переосмысление взглядов на взаимоотношения мужчин и женщин.

В XX веке сформулированы два подхода к проблеме пола: эссенциалистский и конструктивистский, которые характерны для многих философских проблем. Данные подходы выявляют тенденцию смены классического мышления современным, постклассическим. Существуют и другие подходы к определению гендера. Так, О.А.Воронина выделяет “три направления в понимании гендера и проведении гендерных исследований: А.

Гендер как инструмент социологического анализа; Б. Понимание гендера в рамках женских исследований; В. Гендер как культурологическая интерпретация”. (2)

Социальные и культурные нормы, роли и правила, которые присущи людям в зависимости от их биологического пола, формируются в социальном пространстве определенной культуры. Вне социальной сферы, вне культуры они просто не существуют. Различия в поведении и восприятии мужчин и женщин формируются определенными социальными механизмами в процессе социализации в каждой данной культуре, существующими в ней традиционными представлениями о сущности мужского и женского.

Гендерные роли формируются культурой, точнее, закрепленными в ней представлениями о специфике гендерных ролей. Но не только. Гендерные роли зависят также от исторической эпохи, так как в процессе исторического развития содержание гендерных ролей меняется. Социальное пространство, на котором распространена данная культура, и конкретная историческая эпоха – это условия формирования гендерных ролей. Специфика каждой из культур является детерминантой конституирования специфических черт, как у мужчин, так и у женщин в пределах данной культуры. Поэтому культура является необходимой сферой приложения гендерных исследований. С другой стороны, представления о культуре, ее анализ, будут неполными, если в них будет отсутствовать гендерный компонент. Какую бы область культуры мы не затронули, - это сфера человеческой жизнедеятельности, сфера взаимоотношений мужчин и женщин на разных уровнях, для целостного анализа которой наряду с другими необходим и гендерный подход.

Если проанализировать современную научную литературу относительно поставленной проблемы, то можно отметить, что в постсоветском гуманитарном блоке дисциплин проблема соотношения гендерных исследований и культуры чаще всего рассматривается в культурологии (хотя не исключается рассмотрение поставленной проблемы и в других науках). На Западе же последние тридцать лет интенсивно развивалось такое направление, как “культурные исследования”, деятельность которого связана с созданием в 1964 году Бирмингемского Центра

культурных исследований. (Сравнительно недавно на базе Центра был создан Факультет социологии и культурных исследований при Бирмингемском университете.) Несмотря на то, что гендерная проблематика вошла в сферу интересов “культурных исследований” только в 70-е гг., Лоуренс Гроссберг отмечает, что трудно представиться себе сегодня “культурные исследования”, которые не включали бы в себя гендерную тематику. (3)

Как подчеркивают ученые, анализирующие культурологию – науку, распространенную на постсоветском пространстве, и “культурные исследования”, распространенную на Западе, это – две теоретические парадигмы, существующие параллельно и различающиеся в подходах к анализу проблем культуры. Если о гендерных исследованиях культуры в отечественной науке и в науке постсоветского пространства нам известно, то о гендерных исследованиях в “культурных исследованиях”, также как и о самом этом направлении, мы имеем очень мало информации.

“Культурные исследования” характеризуются множественностью предметов анализа и политическим подтекстом. Согласно этой парадигме, культура – это процесс, быстро меняющийся и имеющий много детерминант, среди которых долговременные отношения и ценности невозможно отделить от ситуативных факторов. Это – основанный на различиях набор “практик”, которые формируют идентичность субъекта класса, расы и гендера. В гендерных исследованиях представители этого направления используют метод “проговаривания себя”, “документирование опыта”. Центральной категорией “культурных исследований”, также как и феминистской теории, является категория “опыта”. Причем, особое внимание уделяется категории личного опыта, как исследователя, так и исследуемого. В гендерных исследованиях рассматриваемого западного направления часто привлекаются нетрадиционные источники, такие как женские автобиографии, задачей которых является саморепрезентация женского “я”. Большое значение в становлении концепции женской автобиографии имела концепция маргинальных практик М.Фуко. Надо сказать, что метод женских биографий в последние годы часто используется и в отечественных гендерных исследованиях культуры. Исследователи парадигмы “культурные исследования”

используют также междисциплинарные методы - визуальная антропология, текстуальный анализ, этнометодология и другие. Они осознанно предпочитают эмпирические методы теоретическим моделям, считая, что какими бы убедительными не были теоретические доводы, они не могут в достаточной степени точно отразить движущихся и действующих субъектов в реальных условиях. Оппоненты часто критикуют их за недостаточное использование теоретических моделей и обвиняют в культурном эмпиризме.

Методика гендерных исследований культуры на территории постсоветских республик многообразна, что дает возможность исследователю выбрать необходимый для него метод. Наиболее часто используемыми методами гендерных исследований культуры являются конкретно-социологический, логико-теоретический, исторический и компаративистский методы трактовки анализа, метод анализа статистических данных. Как показали результаты исследований, наиболее плодотворным является комплексное использование методов. Кроме того, с развитием гендерных исследований в научный оборот вводится специфическая терминология, которая позволяет уяснить значение и смысл многих явлений и ситуаций, встречающихся в процессе гендерных исследований.

Какие же вопросы привлекают внимание отечественных исследователей в гендерном анализе культуры? Одним из наиболее актуальных вопросов является вопрос о гендерных стереотипах – наиболее устойчивых представлениях о феминности и маскулинности, присущих представителям различных культур. В научной литературе условно выделяют два уровня изучения гендерных стереотипов: гендерная идентичность и гендерные роли. Функционируют гендерные стереотипы, как на уровне индивида, так и на уровне общества. (4) Результатом проведенных гендерных исследований культуры стал вывод в том, что гендерные стереотипы вплотную зависят от социальной, экономической и политический ситуации в стране.

Изменение социокультурного контекста функционирования гендерных стереотипов вносит определенные коррективы и в содержание стереотипов. Наиболее устойчивы гендерные стереотипы на бытовом уровне, в семье, где и сегодня

наблюдается стабильная гендерная асимметрия. Однако в условиях глобализации мира, в котором мы живем, в условиях интенсивных международных диалогов и обменов, гендерные стереотипы данной культуры испытывают на себе влияние инокультурных моделей. Причем, гендерные стереотипы на уровне индивида более динамичны и гораздо быстрее подвержены влиянию и изменениям, чем гендерные стереотипы на уровне общества.

Особая группа, интересующая исследователей, – это маргинальные личности, которые являются продуктом миграции населения в результате различных процессов, происходящих в обществе. Гендерные стереотипы маргинальных личностей представляют собой сложный конгломерат различных культурных ориентаций – и той культуры, в контексте которой он формировался, и той новой культуры, в которой ему приходится жить, а значит - осваивать иные культурные традиции и ценности.

В современных условиях нередко возникает ситуация, когда гендерные стереотипы, распространяемые средствами массовой информации, не вызывают отклик у отдельных личностей и не воспринимаются ими. Сформированное в условиях современных реалий, индивидуальное сознание в большей степени, чем общественное, готово к изменениям в гендерных стереотипах. Общественное сознание в большинстве случаев придерживается традиционных стереотипов, которые поддерживают и пропагандируют средства массовой информации. СМИ распространяют определенный тип гендерной информации, которая не всегда находит поддержку и понимание со стороны потребителя. Возникает проблема, которая на сегодняшний день пока еще остается вне поля зрения исследователей гендерного аспекта культуры.

Наиболее устойчивые и распространенные гендерные стереотипы приобретаются в процессе культурной социализации личности, так как в каждой культуре имеются определенные устойчивые стереотипы мужского и женского поведения. В процессе социализации осуществляется подключение индивида к социальной памяти данной культуры и освоение им через социальные институты и механизмы определенных ценностей, норм, определенных социальных ролей. В научной литературе нет

единого мнения о формах и механизмах социализации. Однако во всех теориях к важнейшим механизмам социализации ученые единодушно относят типизацию и идентификацию. Наиболее известные теории социализации - это теория З. Фрейда, Ж.Пиаже. Современными учеными разработаны новые теории социализации. Это – теории Н.Чадороу и С.Бем.

Развитие гендерных исследований культуры имеет большое значение, как для теории, так и для практики человеческих взаимоотношений. Существуют различные сферы культуры - это и политическая культура, и корпоративная культура, и культура быта, и художественная культура, и правовая культура, и культура языка и др. Цель гендерных исследований культуры – добиться гендерной симметрии в различных видах культуры, что уменьшит факты дискриминации женщин в обществе. Если мы хотим жить в демократическом, цивилизованном обществе, то, прежде всего, это должно быть гендерно сбалансированное общество, в котором женщины будут обладать равными с мужчинами правами не только де-юре, но и де-факто.

Развитие гендерных исследований культуры способствует внесению в культуру такого параметра как гендерная чувствительность. Без внесения этой характеристики как в культуру общества в целом, так и в культуру отдельного индивида (независимо от пола), невозможна стратегия развития культурной политики. Причем гендерной чувствительностью должны обладать, прежде всего, те, кто занимается гендерными исследованиями, т.е. сами исследователи этого вопроса. Особый вопрос – механизмы внесения компонента гендерной чувствительности в культуру и значение социальных институтов в этом процессе.

В научных изданиях последних лет выражается идея введения гендерных исследований в качестве новой академической дисциплины в систему постсоветского высшего образования. Имея междисциплинарный характер, гендерные исследования трансформируют и модифицируют классические социальные дисциплины, утверждая новые модели развития социального знания

Через разработку проблемы “гендер и культура” гендерные исследования проникают в теорию и философию культуры,

культурную политику, учитывая изменения социальных условий, формируют новый взгляд на старые проблемы. Более того, гендерные исследования культуры позволяют прогнозировать развитие социокультурной ситуации в обществе и способствовать утверждению демократических основ гражданского общества.

Литература:


1. Gayle R. The traffic in women: Notes on the “political economy” of sex. Toward an Antropology of Women. N.Y. 1975.
2. Воронина О.А. Введение в гендерные исследования (Тезисное изложение лекции). Материалы Первой Российской летней школы по женским и гендерным исследованиям “Валдай-96”. М., 1997, с.31.
3. Grossberg L. ”The Formations of Cultural Studies”, in V.Blundell, J.Shepherd, I.Taylor, eds., Relocating Cultural Studies. London: Routledge, 1993, p.26.
4. См.: Введение в гендерные исследования. М., 2005, с.16.



**Adil ƏSƏDOV,**
*fəlsəfə elmləri doktoru*


## KİŞİ VƏ QADIN:
## Qender probleminə bir estetik yanaşma

İngilis arxetipləri gözəl kişini *handsome,* gözəl qadını isə *beautiful* kimi səciyyələndirməklə, daha doğrusu, kişi və qadın gözəlliklərini bir-birindən fərqləndirməkdə tamamilə haqlıdır. Kişi sifəti gücün, qadın sifəti isə zərifliyin mücəssiməsi olduqda gözəlləşir. Kişi sifətindən bir qətiyyət, qadın sifətindən isə bir mərhəmət süzülüb gəlməlidir.

Kişinin həyatı və həyati təyinatı qadının həyatından və həyati təyinatından fərqli olduğu üçün kişinin hərəkət üslubu və maneraları qadının hərəkət üslubundan və maneralarından fərqlənir. Kişi öz hisslərinə daha çox inandığı üçün düz xətt üzrə və iri addımlarla yeriyir. Qadın isə öz hisslərinə deyil, daha çox ictimai rəyə inandığı üçün, həmişə tərəddüd keçirdiyi üçün, xırda,

tərəddüdlü, Aşıq Ələsgərin təbirilə deyilsə, sallana-sallana, nazlana-nazlana yeriyir. Kişi addımlaya-addımlaya, qadın isə gəzə-gəzə hərəkət edir.

Kişinin hərəkətlərinə məlahət verən kəskinlikdir, qadının hərəkətlərinə isə məlahət verən mülayimlikdir, yumşaqlıqdır.

Kişi təbiətinə ən çox uyğun gələn sənət döyüş sənətidir. Elə buna görədir ki, məsələn kişi rəqsi insanı bir döyüşçü olmaq üçün hazırlayır, onda döyüşçü məharətini formalaşdırır və döyüşü xatırladır. Lakin, dünyanı ədalətsizlikdən xilas etmək üçün daha əzmlə döyüşmək əvəzinə, daha çox rəqs edən kişi tədricən özünün maskulin təyinatından ayrı düşür. Döyüşdən rəqsə belə bir keçid sənətin məqsəddən, reallığın mahiyyətdən qopub ayrılmasıdır. Əgər kişi rəqsi döyüşə məşq üçün əsas, baza xarakterini daşımırsa, əksinə öz-özlüyündə əhəmiyyətə malikdirsə, bu artıq kişiliyin deqradasiyasıdır.

Qadın təbiətinə ən çox uyğun gələn sənət analıq sənətidir. Qadın rəqsi insanı bir ana olmaq üçün hazırlayır və övladını bəsləyən ananın hərəkətlərini xatırladır.

Qadın gözəlliyin qoruyucusu, kişi isə onun yaradıcısıdır. Fikir verirsinizmi, yalnız güclü kişilərin xanımları gözəl olurlar. Kişi nə qədər qüdrətlidirsə, onun xanımı bir o qədər də xoşbəxtdir və deməli, həm də gözəldir. Qadın gözəlliyinin yaradıcısı - kişi qüdrətidir.

Kişi öz təbiəti etibarı ilə himayəçidir, qoruyucudur. Kişi həmişə ayaq üstə olmalıdır ki, qadın arxayın, oturaq bir həyat sürə bilsin. Amma, mənə elə gəlir ki, bu mülahizələri məsələn Leyli və Məcnun münasibətlərinə aid etmək düzgün olmazdı. Çünki, Məcnun, əslində, kişi xarakterinin təcəssümü deyildi. Məhəmməd Peyğəmbərə, əgər zənnim məni aldatmırsa, iyirmi bir (!) qadın vurulmuşdu, Məhəmməd Peyğəmbər onların hamısını Peyğəmbərin xanımı olmaq şərəfinə qovuşdurdu. Qeysə isə bircə qadın vurulmuşdu. Qeys həmin o bircə qadına da sahib dura bilmədi, onu təsadüfün, haqqı tanımayan Dünyanın ixtiyarına buraxdı, bədbəxt etdi, xəstəliyə saldı. Məhəmməd Peyğəmbərin xanımı olmaq cəmiyyət içərisində qürurlu olmaq üçün bir əsas verirdi. Məcnunun sevgilisi olma isə cəmiyyət içərisində xəcalətli olmaq, başı aşağı gəzmək üçün əsas verirdi.

*Füzuli*nin qəlbində bir Məcnun olmaq istəyi vardı. Lakin, Məcnun olmaq qətiyyətinə malik olmadığı üçün öz Leylasının *Məcnun*u *olmadı*, "Leyli və Məcnun" *əsər*inin *müəllifi oldu*. O, "Leyli və Məcnun" tarixini və qəhrəmanlığını yenidən yaratmaq istəyirdi, lakin, "Leyli və Məcnun" əsərini yaratdı.

*Fərizə* isə Füzulidən tamamilə başqa bir yol tutdu. O, "İlham və Fərizə" *əsər*ini *deyil*, "İlham və Fərizə" *qəhrəmanlığ*ını *yaratdı*.

İlham və Fərizə ünsiyyətində ailə ideyası bir daha əbədiləşdi. Ailə maskulin və Feminin başlanğıcların bir çuğlaşma formasıdır.

Məcnun kişi xarakterli deyildi, qadın xarakterli idi. Vurulma - özünüinkar, özündən imtina, özgənin hissləri və həyatı ilə yaşama, özgənin idealları ilə nəfəs alma olduğundan, həmişə feminin xüsusiyyətlidir.

Məcnun insanda qadın başlanğıcının təcəssümçüsü, Füzuli bu başlanğıcın ifadəçisi və təsvirçisi, Fərizə isə onun gerçəkləşdiricisi oldu.

Məhz buna görə də Məcnun və Leyli ünsiyyətindən Ailə alınmadı. Ailə İlham və Fərizə ünsiyyətindən alındı. Məcnun və Leyli ünsiyyətindən Ailə alınmasa da, dastan alındı, incəsənət alındı.

İncəsənətin özü bütövlükdə, bəlkə də, feminin təbiətlidir. Diqqət yetirirsinizmi, *qadın* sözünün ən ilkin epiteti *zərif*, *incəsənət* sözünün ən yaxın sinonimi «*zərif sənət*»dir. *İncə sənət* elə *zərif sənət* demək deyilmi?! Qadınların səsinin daha zərif, daha incə, daha məlahətli, bir sözlə, daha musiqili, kişilərin səsinin isə kobud, gurultulu, bir sözlə, küylü olması, bəlkə də, elə bununla, incəsənətin qadın təbiətli olması ilə bağlıdır.

Kişi və qadın başlanğıcları hər bir kəsdə mövcuddur. İncəsənət – qadın başlanğıcı üzərində bərqərar olduğundan, sənət yaradıcısında bir insan olaraq daşınan maskulin başlanğıc öz ifadəsini onun sənətdənkənar fəaliyyətində tapır.

Səma və Yer, İşıq və Qaranlıq, Ruh və Materiya və nəhayət, Kişi və Qadın Dünyanın da, həyatın da, üstəlik hər bir mümkün sistemin də iki qütbüdür. Həyat o halda maksimal dərəcədə sağlamdır ki, bu qütblər öz xalisliyini saxlayır və öz funksiyalarını tam bir şəkildə yerinə yetirirlər. Həyat o zaman

xəstədir ki, maskulinlik və femininlik öz aşkarlığını itirir və öz funksiyalarını dolğunluqla yerinə yetirmirlər. İnsan orqanizmində maskulinliyin daşıyıcıları - ilk növbədə, əlbəttə ki, leykositlər güclüdürlərsə, xəstəlik daşıyıcılarına qarşı, necə deyərlər, «mərdliklə», «dəyanətlə» mübarizə aparırlarsa, «döyüşürlərsə», orqanizm uzun müddət xəstə qala bilərmi? İnsan orqanizmində femininliyin daşıyıcıları – ilk növbədə, əlbəttə ki, eritrositlər bədən hüceyrələrini lazımınca yedizdirirlərsə, orqanizmin sağlamlığını, necə deyərlər, daha müvəffəqiyyətlə qorumuş olurlar. Bir də ordusu tox olan ölkəni məğlub etmək çətindir.

Sonda, qadın təbiəti ilə bağlı mövqeyimi bir daha dəqiqləşdirmək istərdim. Qadın yalnız feminin başlanğıcın mücəssiməsi olduqda idealdır, gözəldir. Qadın - sözün tam mənasında Qadın olmalıdır, incə, zərif, məlahətli, şəfqətli, mülayim, mədəni bir xanım olmalıdır, mehribanlığın və xoş rəftarın qoruyucusu olmalıdır, əgər o, körpədirsə, kiçikdirsə, şıltaq, qılıqlı bir qızcığaz, əgər o öz uşaqlıq dövrünü artıq başa çatdırıbsa, ailə qurmaq üçün ismətli, həyalı, bir qədər də, nazlı, işvəli, yetkin bir qız, əgər o, bir ər oğulun artıq evinin dirəyidirsə, onun qan yaddaşına əbədiyyət bəxş etməyi bacarmalıdır, onun ocağını sönməyə qoymamalıdır, sədaqətli bir xanım olmalıdır, əgər o, artıq bir anadırsa, balasını qayğıya qərq edən, onun üzərində yarpaq tək əsən, ağrılarına dözən, əzablarına qatlaşan, ən kiçik uğuruna belə uşaq tək sevinən müqəddəs bir varlıq olmalıdır. Qadın – insani mahiyyətin hələ ki gerçəkləşməyən məzmununun itirilməməsi üçün onu qəbul etməyə, öz bətnində, qoynunda, qayğı məkanında bəsləməyə təyinatlıdır. Qadın bir ana olaraq, unikaldır, təkrarolunmazdır. Analıq öhtəliklərini özünə yük bilən qadın isə adiləşir.

**Səfixanlı Aydın**
*aspirantı*

## CƏZADAN AZAD OLUNMA

Azadlıq hüququ dedikdə cəmiyyətin sosial-iqtisadi əsasları ilə müəyyən edilən, normativ hüquqi aktlarda öz əksini tapan və

təmin edilən, başqalarının və cəmiyyətin azadlığını pozmamaq şərti ilə sosial normalar çərçivəsində vətəndaşların öz arzularına və iradəsinə görə davranmaq imkanları başa düşülür.

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 1-ci maddəsində deyilir: «Bütün insanlar öz ləyaqət və hüquqlarına görə azad və bərabər şəkildə doğulurlar».

«İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Konvensiyanın 5-ci maddəsi hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququnu təsbit edir.

Beynəlxalq hüququn bərabər hüquqlu subyekti olan Azərbaycan Respublikasının milli qanunvericiliyinə əsasən azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada məhdudlaşdırıla bilər. Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsi ilə azadlığın məhdudlaşdırılmasının üç növü: tutma, həbsəalma və azadlıqdan məhrum etmə növləri göstərilmişdir.

Azadlıqdan məhrum etmə cinayət hüququna məlum olan ən sərt cəzalardan biridir. Buna görə həmin cəzadan yalnız digər cəza növlərinin tətbiqi yolu ilə məhkumun islah edilməsinə və cəzanın digər məqsədlərinə nail olmaq mümkün olmadıqda istifadə olunur.

30 dekabr 1999-cu il tarixli Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilmiş və 2000–ci il sentyabrın 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsilə müəyyən edilmiş cəza sistemində azadlıqdan məhrum etmənin iki müstəqil növü təsbit olunmuşdur:

1) müəyyən müddətə azadlıqdaq məhrum etmə (CM-nin 55-ci maddəsi);

2) ömürlük azadlıqdan məhrum etmə (CM-nin 57-ci maddəsi).

Müəyyən müddətə azadlıqdan məhrum etmə məhkumun koloniya-məntəqəyə, ümumi, ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisəsinə və ya həbsxanaya yerləşdirilməsi yolu ilə onun cəmiyyətdən təcrid edilməsindən ibarətdir. Azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş, lakin hökm çıxarılanadək 18 yaşı tamam olmamış şəxslər ümumi və ya möhkəm rejimli tərbiyə koloniyalarında yerləşdirilirlər.

Yeni cinayət qanunu azadlıqdan məhrum etmə cəzasının cinayət-hüquqi nizamasalma məsələlərində, cəzanın adında, məzmununda, cəzanın təyin edilməsi və çəkilməsi qaydası və şərtlərində, müddətində, cəzanın çəkilməsi yeri və rejimində dəyişikliklər etmiş, həmin cəza növünü tamamilə yeni redaksiya və yeni məzmunda nəzərdə tutmuşdur.

Müəyyən müddətə azadlıqdan məhrum etmə qanunda əsas cəza növü kimi nəzərdə tutulmuşdur və yalnız törədilmiş cinayətə görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Xüsusi hissəsində məsuliyyət müəyyən edən maddənin sanksiyasında nəzərdə tutulan hallarda təyin edililr. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 45, 47, 49, 53, 57-ci maddələrində nəzərdə tutulmuş hallarda cərimə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması, ömürlük azadlıqdan məhrum etmə cəzalarının müəyyən müddətə azadlıqdan məhrum etmə ilə əvəz edilməsi zərurəti yarandıqda məhkuma bu cəza növü təyin edilir.

Azadlıqdan məhrum etmə törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirləndirilən şəxsin şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin olunmuş cəzanın, şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınmaqla əsas cəza növü kimi nisbətən yüksək sosial təhlükəli olan cinayətlərə görə tətbiq edilir.

Azadlıqdan məhrum etmə cəzasının effektivliyi məsələsi bu gün hüquq mühafizə orqanlarının qarşısında duran mühüm problemlərdəndir.

Azadlıqdan məhrum etmə cəzasının effektivliyi anlayışı dedikdə, cəzanın məqsədi ilə təsir nəticələri arasında qarşılıqlı əlaqə başa düşülür. Bu səbəbdən müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası geniş mənada öz qarşısında insanlar tərəfindən ictimai təhlükəli əməllərin törədilməsinin xəbərdarlığı məqsədini qoymuş olur. Bu məqsədi rəhbər tutaraq qanunverici hansı əməlləri nə üçün cəzalandırmağı müəyyən etmiş olur. Qarşıya qoyulmuş məqsəd, faktıki əldə olunmuş nəticənin müqayisə olunmasından ibarətdir. Bu mürəkkəb problemin həllində mərkəzi yeri cəzanın effektivliyinin sistemləşdirilməsi, göstəriciləri və meyarları haqda məsələlər təşkil edir.

Cinayət cəzasının effektivliyi, onun effektivliyinin nə dərəcədə təmin olunmasından birbaşa asılıdır. Bu səbəbdən cinayət cəzasının effektivliyinin anlayışı ilə onun effektivliyinin təminatı problemlərini ayırmaq və müstəqil tədqiq etmək zəruridir. Cəzanın effektivliyinin təminatını, məqsəd və nəticə arasındakı nisbətin yaranmasına yardım edən hallar əks etdirir. Bu halları effektivliyin şərtləri kimi də analiz etmək olar.

Cəzanın effektivliyinə təsir göstərən amilləri şərti olaraq dörd qrupa bölmək olar. Bunlardan birincisi, cəzanın qarşısında duran məqsədlərin düzgün müəyyən olunması, ikincisi, azadlıqdan məhrum etməni cəza növü kimi müəyyən edən sanksiyanın optimal və qarşıya qoyulmuş məqsədləri həyata keçirə biləcək səviyyədə qurulması, üçüncüsü, bu cəza növünün düzgün və səmərəli icra olunması və ən nəhayət dördüncüsü, cəzanı çəkməkdən azad edilən şəxslərin normal yaşayışını təmin etmək üçün şəraitin yaradılmasıdır ki, bunu da cəzanı çəkməkdən azad edilmiş şəxslərin işlə təminatı, onlara məişət şəraitinin yaradılması və ümumilikdə məhkumların sosial adaptasiyası işinin təşkilindən ibarətdir.

Deməli azadlıqdan məhrum etmə cəzasının effektivliyinə təsir göstərən amillərdən biri də penitensiar sistemdə cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə sosial adaptasiyasıdır.

Penitensiar sistemdə cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə sosial adaptasiyası dedikdə müxtəlif əsaslarla cəza çəkməkdən azad edilmiş şəxslərin azad cəmiyyətə normal uyğunlaşması, onların insan hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması, bu şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin qarşısının alınması məqsədilə dövlət tərəfindən həyata keçirilən hüquqi, iqtisadi, təşkilati, sosial, psixoloji və digər tədbirlər məcmusu başa düşülür.

Penitensiar sistemdə cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə sosial adaptasiyası Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində cəza çəkməkdən azad edilmiş şəxslərə yardım göstərilməsi üçün həyata keçirilən tədbirləri təkrar etməməli və müstəqil həyata keçirilən tədbirləri nəzərdə tutmalıdır.

Hesab edirik ki, penitensiar sistemdə cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə sosial adaptasiyası istiqamətində həyata keçiriləcək fəaliyyəti, o cümlədən bu sahədə yaranan münasibətləri tənzimləyən normativ hüquqi aktın qəbuluna ehtiyac vardır.

Qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi, cinayətkarlığın residivinin qarşısının alınması məqsədi ilə penitensiar sistemdə cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə sosial adaptasiyası işinin təşkili, yəni müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaları çəkməkdən azad edilmiş şəxslərin əmək və məişət şəraiti ilə təmin olunması və digər növ sosial yardım almaq hüququnun təmin edilməsi ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləmək qəbul ediləcək yeni normativ hüquqi aktın əsas məqsədləri sırasına daxil edilməlidir.

Təklif edirik ki, penitensiar sistemdə cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə sosial adaptasiyası üzrə tədbirlərin həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının nəzdində «sosial adaptasiya mərkəzləri» yaradılmalıdır.

Sosial adaptasiya mərkəzlərinin öz vəzifələrinin yerinə yetirilməsi üzrə hüquqları qanunla müəyyən edilməlidir.

Sosial adaptasiya mərkəzlərinin fəaliyyəti dövlət büdcəsindən maliyyələşdirilməklə, qəbul ediləcək normativ hüquqi aktla müəyyən olunmuş qaydada həyata keçirilməlidir.

Penitensiar sistemdə cəza çəkməkdən azad edilmiş şəxslərə sosial yardımın həyata keçirilməsi prosesində dövlət qurumları ilə yanaşı, qeyri hökumət təşkilatlarının və vətəndaş cəmiyyətinin digər üzvlərinin iştirakı təmin olunmalıdır.

Yaradılacaq «sosial adaptasiya mərkəzləri»nin həyata keçirəcəyi funksiyalara aşağıdakıları aid etmək olar:

- cəza çəkməkdən azad olunduqdan sonra sosial adaptasiyaya ehtiyacı olan şəxsləri müəyyən etmək, qeydiyyata almaq və onlarla hazırlıq işləri aparmaq;
- cəza çəkməkdən azad olunduqdan sonra sosial adaptasiyaya ehtiyacı olan şəxslərin maddi-məişət və əmək şəraiti ilə təmin olunması, onların ictimai faydalı əməyə, təhsilə cəlb edilməsi üçün tədbirlər görmək;

- sosial adaptasiyaya ehtiyacı olan şəxslərin şəxsiyyətini təsdiq edən və digər zəruri sənədlərlə təmin olunması üçün tədbirlər görmək;

- sosial adaptasiyaya ehtiyacı olmaqla yanaşı müxtəlif xəstəliklərə düçar olmuş şəxslərə ixtisaslı tibbi yardım almaq üçün köməklik göstərmək;

- sosial adaptasiyaya ehtiyacı olan əlillərin, pensiya yaşına çatmış şəxslərin, valideyn himayəsindən məhrum olan yetkinlik yaşına çatmayanların müvafıq icra hakimiyyəti orqanı tərəfindən əlillər, qocalar evinə və internatlara göndərilməsinə köməklik göstərmək;

- sosial adaptasiyaya ehtiyacı olan şəxslərə müstəsna hallarda qanunla müəyyən edilmiş qaydada və məbləğdə maddi yardım göstərmək;

- sosial adaptasiyaya ehtiyacı olan şəxslərə hüquqi və psixoloji yardım göstərmək;

- sosial adaptasiyaya ehtiyacı olan şəxslərin əmək, məişət və digər sosial problemlərinin həllinin operativ və səmərəli həyata keçirilməsi məqsədilə sosial adaptasiya mərkəzlərində informasiya şəbəkəsini yaratmaq;

- sosial adaptasiyaya ehtiyacı olan şəxslərin zəruri ehtiyaclarının ödənilməsi məqsədilə təxirəsalınmaz tədbirlər görmək;

- sosial adaptasiya işinin təşkili, onun həyata keçirilməsi barədə dövlət strukturlarına hesabat və ictimaiyyətə mütəmadi məlumat vermək.

Sosial adaptasiyanın cəzanın effektivliyinin təminatındakı rolunu nəzərə alaraq penitensiar sistemdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiya mərkəzlərində qeydiyyata götürülməsi mexanizmi sadə və asan formada müəyyən olunmalıdır.

Penitensiar sistemdə cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə sosial adaptasiyası sahəsində yaranan münasibətləri tənzimləyən qəbul edilməsi tövsiyə olunan normativ hüquqi aktın dispozisiyasında həmçinin, sosial adaptasiya mərkəzlərinin qeydiyyatında olan şəxslərə tibbi yardımın göstərilməsi, onların şəxsiyyətini təsdiq edən və digər

zəruri sənədlərlə təmin edilməsinə yardım göstərilməsi və təhsilinin təşkili qaydaları da öz təsbitini tapmalıdır.

Fikrimizcə, azadlıqdan məhrum etmə cəzasının effektivliyinin təmin edilməsi məqsədilə yuxarıda qeyd olunmuş müddəalar əsas götürülməklə penitensiar sistemdə cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə sosial adaptasiyası işinin təşkili, yəni müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzasını çəkməkdən azad edilmiş şəxslərin əmək və məişət şəraiti ilə təmin olunması və digər növ sosial yardım almaq hüququnun təmin edilməsi ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləyəcək yeni normativ hüquqi aktın «Penitensiar sistemdə cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə sosial adaptasiyası» haqqında Azərbaycan Respublikasının Qanununun qəbul edilməsini və bu qanunla tənzim olunan qaydada «Sosial adaptasiya mərkəz»lərinin yaradılmasını məqsədə müvafiq hesab edirik.

İstifadə olunmuş ədəbiyyat:

1.Azərbaycan Respublikasının Konstitusiyası. Azərbaycan Respublikası Milli Məclisinin nəşri Bakı, 2002-ci il.

2.Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi. 02.09.2000-ci il.

3.Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Digesta, 2000-ci il.

4.Дементьев С.И. Лишение свободы как мера уголовного наказания. Краснодар. КубГУ, 1977.

5.Дементьев С.И. Лишение свободы; тюрьмы, лагеря, колонии. Краснодар. 1996.

6.Дерюга Н.Н., Петров А.Я. Принцип обязательности труда для осужденных и его развитие в Уголовно-исполнительном кодексе России // Государства и право.1998.№4.

7.Детков М.Г. Содержание пенитенциарной политики Российского государства и ее реализация в системе исполнения уголовного наказания в виде лишения свободы в период 1917-1930 гг. Москва., Республиканский институт повышения квалификации работников МВД России, 1992.

8.Исаев М.М.Основы пенитенциарной политики. М.1927.

9.Карпец И.И. Наказание. Социальные, правовые и

криминологические проблемы. М. 1973. 287 с.

10.Карпец И.И. Социальные аспекты применения наказания, связанного с лишение свободы /Советская юстиция 1976. №10.

11.Лежков В. Тюрьма не лечит / Юридический вестник. 1999. №20.

12.Михлин А.С. Осужденные. Кто они? Москва. ВНИИ МВД. 1996.

13.Никифоров Б.С. Наказания и его цели / Советская государства и право.1991. №9. 68 с.

14.О понятии и критериях эффективности лишения свободы // Труды Томского университета, т.260, вып.1. Томск, 1976.,

15.Рагимов И.М. Личность осужденного к лишение свободы и пути повышения эффективности исправительно-трудового воздействия // Автореферат диссерт.на соиск.ученой степени канд.юридических наук. 1979. Москва. Гос. Унив. им. М. Ломоносова.

16.Рагимов И.М. Теоретические и практические проблемы исправительно-трудового воздействия. Баку. 1981. 181 с.

17.Резник Г.М. Социально-интегрирующая функция уголовного права и стереотипы общественного сознания. Уголовное право в борьбе с преступностью. М.1981.

**Tağıyeva Məlahət**
*elmi işçi.*

## SİYASİ MƏDƏNİYYƏT

Mədəniyyətin siyasətlə təmasından yaranmış siyasi fenomenlərdən biri siyasi mədəniyyətdir. Siyasi mədəniyyətə bəzən hakimiyyət mədəniyyəti də deyirlər. Siyasi mədəniyyət anlayışı ilk dəfə XVIII əsrdə alman filosofu İ.Herder tərəfindən işlədilmiş, XX əsrdə isə amerikan politoloqu Q.Arnold tərəfindən geniş şərh edilmişdir. Q.Arnold əsərlərindən birində yazmışdır: «Hər bir siyasi sistem siyasi fəaliyyətə meyllənmiş xüsusi

numunə kimi mövcuddur. Mən bunu «siyasi mədəniyyət» adlandırmağı lazım bildim».[3]

Siyasi mədəniyyət insanların hakimiyyətə münasibətinin əsas cəhətlərini ifadə etməklə yanaşı, eyni zamanda siyasi proseslərdə iştirakçılığın başlıca üsul və metodlarını ifadə edir. Bu mədəniyyət ümumiyyətlə vətəndaşlıq mədəniyyətinin tərkib hissəsidir.

Siyasi mədəniyyət cəmiyyətin siyasi həyatının nizamlanmasında mühüm rol oynayır. Təbii ki, o, ilk növbədə siyasi proseslərə və təsisatlara müəyyən təsir göstərir. O, cəmiyyəti siyasi çalxıntılardan, gözlənilməz təlatümlərdən qoruyur.

V.İlyin özünün «Politologiya» kitabında yazır: «Siyasi mədəniyyət siyasi sistemin keyfiyyət tərəfini, onun fəaliyyətinin mövcudluğu və səmərəsinin səciyyəvi cəhətlərini müəyyənləşdirir».[4]

Amerikan politoloqu Ç.Fosterə görə «siyasi mədəniyyət cəmiyyətdə siyasi fəaliyyəti səciyyələndirən dərk edilmiş və duyulmuş münasibətlərin və onlara uyğun inamın məcmusudur».[5]

İnsanların siyasi davranışı, yaxud hakimiyyətə münasibətinin təzahürləri, həmçinin yüksək səviyyədə iştiraka, siyasi proseslərə hazırlığı öz növbəsindən cəmiyyətin siyasi mədəniyyətini xarakterizə edən əsas motivlərdir.

Siyasi mədəniyyətin nəzəriyyəsi və tipologiyası ilə bir sıra politoloqlar məşğul olmuşlar. Bu politoloqlar sırasında Q.Arnold, Q.Pauel, S.Verba və b. vardır. S.Vyetr, C.Pleyro və b. isə siyasi mədəniyyəti normativ əsasların, davranış nümunələrinin məcmusu kimi nəzərdən keçirmişlər.

Tipoloji baxımdan siyasi mədəniyyətin növləri, tipləri, ünsürləri də diqqəti cəlb edir. Məsələn, Qərb tədqiqatçılarından Q.Arnold və S.Verbanın təsnifinə görə siyasi mədəniyyət üç qrupa bölünür: 1) Patriarxal siyasi mədəniyyət. Bu cür siyasi

---

[3] Sitat H.Şirəliyev və Ə.Əhmədovun «Politologiya» dərsliyindən (B., 1997, s.283) gətirilir.

[4] В.В.Ильин. Политология. М., Книжный дом «Университет», с.384.

[5] H.Şirəliyev və Ə.Əhmədov. Politologiya, B., 1997, s.284.

mədəniyyətdə cəmiyyət üzvləri siyasi sistemə, onun fəaliyyətinə, üsul və metodlarına heç bir maraq göstərmirlər. 2) Təbəəçi siyasi mədəniyyət. Bu zaman siyasi hakimiyyətə, onun fəaliyyətinin nəticələrinə müəyyən maraq öz əksini tapır. Lakin siyasi sistemin fəaliyyətində iştirakçılıq həlledici amil kimi görünmür. 3) Fəal siyasi mədəniyyət. Onda təzahür edir ki, cəmiyyətin üzvləri hakimiyyətin fəaliyyəti ilə öz mənafeləri arasında əlaqəni yaxşı dərk edir, siyasi sistemdə öz yerini və rolunu yaxşı anlayırlar.

Siyasi mədəniyyət anlayışına siyasət haqqında biliklər, siyasi reallıqlar və faktlarla tanışlıq, siyasi hadisələrə qiymət verilməsi, hakimiyyətin həyata keçirilməsi, siyasi davranış nümunələri, siyasi qütblərdə toplanmış hissələr (məhəbbət, nifrət) və s. aiddir.

Tarixi baxımdan da siyasi mədəniyyəti təsnif etmək cəhdləri mövcuddur. Məsələn, Y.Vyatrın təsnifatı onun «Siyasi münasibətlərin sosiologiyası» (1979) kitabında öz əksini tapmışdır. Bunlar ənənəvi qəbilə siyasi mədəniyyəti, yəni qəbilə başçısının səlahiyyətlərinin məhdudlaşdırılması, ənənəvi teokratik (dini) siyasi mədəniyyət – hakimiyyət sahibinin özünü allahın elçisi sayması, nəhayət üçüncü tip – ənənəvi despotik siyasi mədəniyyətdir. Bu zaman hökmdar bütün təbəələrinin başının ağası sayılır.

Siyasi mədəniyyətin nümunəvi və ya populyar tiplərinə gəlincə siyasi praktikada və ümumən ənənədən mövcud olmuş və olmaqda olan siyasi mədəniyyət tiplərini nəzərdən keçirməliyik. Hazırda ABŞ-da və İngiltərədə mövcud olan siyasi mədəniyyət tipi ən yüksək siyasi mədəniyyət tipi hesab edilir (amma 2000-ci ildə ABŞ-da keçirilən prezident seçkiləri və bu seçkilərdə çoxlu şübhəli məqamların olması, eləcə də 2005-ci ilin mayında İngiltərədə keçirilən və Avropa Şurası tərəfindən nəzarətə götürülən baş nazir seçkiləri göstərdi ki, yetgin siyasi mədəniyyətin həmin ölkələrdə mövcud olmasına böyük şübhələr var).

Ümumən siyasi mədəniyyət təkcə kompleks siyasi faktorları deyil, həm də konkret davranış nümunələrini və hərəkətlərini nəzərdə tutur.

Görkəmli türk yazıçısı və diplomatı Yaqub Qədri Qaraosmanoğlu öz xatirələrində İsveçrədə olduğu illəri (1942-

1949) xatırlayır və İsveçrədə siyasi mədəniyyətin digər Avropa ölkələrindən daha yüksək olduğunu göstərir: «Harada, hansı demokratik ölkədə görünmüşdür ki, hökumət başçısı və ya nazir olmağa razılıq versin deyə siyasi xadimə yalvaralar? Harada eşidilib ki, adamlar ona tapşırılan iş sahəsində heç bir siyasi qüsura yol vermədiyi halda yüksək dövlət vəzifəsini könüllü olaraq vaxtından əvvəl buraxıb getsin? Parlamentarizmin vətəni İngiltərədə? Bəla inqilabçı və respublikaçı Fransada? Yoxsa federal Amerika demokratiyasında? Yox, onların heç birində!

…İsveçrəli siyasi dövlət xadimi üçün vicdanla xidmət etmək çox zəruri ehtiyac deməkdir. Onların heç biri hakimiyyətin, habelə hakimiyyət sürməyin nə demək olduğunu bilmir. Heç kim bu hakimiyyətin qeyri-məhdud zövqünü dadmamış, amma xidmətin ağırlığını çəkmişdir. Çoxları buna dözmür və vaxtı qurtarmamış siyasi həyatdan çəkilirlər. «Xahiş edirik, biz az da qalın, heç olmasa gələn ilə qədər!... «Yox, səbri qalmayıb, onun ağası xalqdır, o da nökər kimi onu işlədib, taqətdən salıb, vaxtından qabaq qocaldıbdır. Məhz bu surətdə müharibə dövrü ərzində xarici siyasətə müdrikliklə rəhbərlik edən xarici işlər nazirliyinin başçısı, dostum Pile-Qolaz müharibə qurtaran kimi istefaya çıxdı. Federal sovet bilmirdi ki, onun yerinə kimi təyin etsin…»[6]

Göründüyü kimi, məsələ heç də siyasi və ya demokratik ənənələrlə bağlılıqda deyildir. Şəxsi məsuliyyət hissində, xidmət və vətəndaşlıq borcundadır (bəzən siyasi mədəniyyətin vətəndaşlıq mədəniyyəti kontekstində izah olunması elə bu problemə münasibətin birmənalı olmadığını göstərməkdədir).

Sovet dövründə heç kimin siyasi həyatdan öz xoşu ilə getmədiyi tam aydın bir məsələ idi. Yalnız 1991-ci ilin əvvəllərində E.Şevardnadzenin SSRİ xarici işlər naziri postundan istefa verməsi sovet rəhbərliyi üçün, eləcə də sıravi vətəndaşlar üçün gözlənilməz oldu. Postsovet məkanında yalnız Pribaltikada və yalnız bir dəfə Rusiyada bu qəbilli istefalar siyasi mədəniyyətə yiyələnməyin ilk təcrübəsindən xəbər verməkdədir (1999-cu ildə V.Yeltsin iki dəfə aparmış olduğu prezident postundan istefa edərək hakimiyyəti V.V.Putinə təhvil verdi).

---

[6] Y.Q.Qaraosmanoğlu. Zorən diplomat. Xatirələr və müşahidələr, Azərnəşr, B., 1982, s.200-201.

Əlbəttə, siyasi mədəniyyət anlayışı bir çox məqamlarda demokratiya, demokratizm, mənəviyyat və əxlaq məsələləri ilə də sıx bağlıdır. Odur ki, problem təkcə idarəçilik və parlamentarizm, siyasi şüur və intellekt, siyasi davranış və nümunə aktları ilə bitmir. Burada biz təkcə ali demokratiya və siyasət məktəbinin deyil, həmçinin böyük mənəvi-əxlaqi hərəkətlərin də təzahürünü görə bilirik. Bu siyasi fenomen ənənələrə bağlı olduğu kimi, şəxsi və yaradıcı davranış meyllərinə də bağlıdır ki, bunu cəmiyyətin və şəxsiyyətin kamilliyi, daxili tənasübü və ahəngdarlığı ilə əlaqələndirmək mümkündür.

**Elmar Hüseynov.**
*BDU, fəlsəfə ixtisası üzrə magistrant,II kurs.*

## CƏMİYYƏTİN QENDER MÜNASİBƏTLƏRİNDƏ İDEOLOGİYA AMİLİ

İdeologiya dar mənada birbaşa və dolayısı ilə hər hansı böyük sosial qrupun əsas maraqlarını əks etdirən nəzəri baxışlar sistemidir. Cəmiyyətin istənilən münasibətlər sferası- ümumən götürsək iqtisadi,mənəvi və s.- ideologiyanın, yəni «maraqlı tərəfin» təsiri altında olduğundan cəmiyyətdə qender münasibətlərində «ideologiya» amilinin araşdırılması da mühüm əhəmiyyət kəsb edir. Buna dair bəzi mülahizələr irəli sürək:

1) İdeologiyanın bəşəriyyətin inkişafının müəyyən mərhələsində- ibtidai ijma dövründən sonra meydana gəldiyini nəzərə alsaq, onda bu dövrə qədər qender münasibətlərinin ideologiyadan kənar formalaşdığını söyləmək olar.Və bu dövrdə ijmada müəyyən maraqlar güdən böyük sosial qruplar- sosial, millət (xalq) və s. olmadığından təbii ki, burada yaranan qender münasibətləri həmin ijmanın ətraf mühitə müəyyən «javab reaksiyası» idi. ( Bu mülahizə patriarxal- qəbilə qalıqlarının, «ijma ruhunun» güjlü olduğu müasir cəmiyyətlərə aid deyil). İbtidai ijmadan sonrakı cəmiyyətlərdə «hakimiyyətdə olan» sosial sinif və ya millət (xalq) özünün «kişi» və «qadın» anlayışlarının mahiyyətinə və onların qarşılıqlı münasibətinə dair baxışlarını ideologiya vasitəsilə cəmiyyətdə olan digər sinif və millətlərə

«qəbul etdirirlər». Bütün bunları «qlobal cəmiyyətdə» ideoloci təsir və idarəetmədə də müşahidə etmək olar.

2) İdeologtya yalnız səmiyyət deyil, daha alt- buradakı sinif və ya millətlər səviyyəsində də təzahür edir. İdeologiya- « yalançı şüur» vəsitəsilə yalnız bir sinif və ya millət digərini deyil, həm də həmin ideologiyanı ideologiyanı işləyənlər mənsub olduqları sosial qrupun digər üzvlərini «aldadırlar». Bu baxımdan ideologiyanın müəllifi olan (həm də «hakimiyyətdə olan») kişilər «kişi» və «qadın» anlayışlarına istədikləri elementləri daxil etmək və rnlar arasındakı münasibətləri istədikləri şəkildə şərh etmək imkanı qazanırlar. Nətijədə, cəmiyyətdə qender münasibətləri həmin cəmiyyətin (onun bütün üzvlərinin maraqları nəzərə alınmaqla) deyil, buradakı müəyyən sosial qrupların maraqlarına uyğun ətraf mühitə «javab reaksiyasıdır».

Ümumiyyətlə, «kişi» və «qadın» anlayışlarının mahiyyətinə və onların qarşılıqlı münasibətlərinə dair baxışlar sırf mədəniyyət , yəni «ikinji-süni təbiət» hadisəsi olub, əksər hallarda biolocidən qaynaqlanmır, yəni insanın bioloci mövjudluğunu təhlükə altına qoyan amillərdən irəli gəlmir.Və əgər hamının- həm kişinin, həm qadının ümumi maraqları naminə müəyyən qədər təbiilikdən uzaqlaşdırmaq- «sünilik» lazımdıırsa, bu normal qəböul olunmalıdjır. Yox əgər bu tərəflərdən birinin maraqlarına xidmət edirsə, onda bu digərinin «aldanılmasından» başqa bir şey deyil.

**Н. Зульфигарова**

## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ГЕНДЕРНОГО РАВНОПРАВИЯ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ОБЩЕСТВЕ.

Исследование мирового женского движения, женских, феминистических, гендерных идей и теорий важно само по себе в силу того, что эти направления еще недостаточно хорошо проанализированы, в то время как их роль и место в истории человеческого общества трудно переоценить. Наверное, не менее, а более важное, значение эти вопросы играют в так называемых обществах переходного периода, к которым относится и

Азербайджан. Не говоря уже о тех многообразных гендерных проблемах, которые достались Азербайджану в наследство от советского периода и сформировались за годы независимости, можно лишь остановиться на проблемах, связанных с процессами глобализации и становления нового политического и экономического порядка, к которым Азербайджан имеет самое прямое отношение.

Азербайджан широко раскрыл двери навстречу демократическим и либеральным изменениям, но вместе с ними в страну проникают и новые социокультурные и политико-экономические модели, которые не всегда находят свое практическое и теоретическое осмысление. Что можно и что нужно взять на вооружение, от чего следует отказаться, чтобы сохранить ядро национальной самоидентификации азербайджанского народа? Эти вопросы не найдут своего ответа до тех пор, пока в самой жизни, в практике исследований не станут объектом постоянного внимания и осмысления мира. Поэтому опыт женского движения, феминистические исследования, гендерные подходы должны войти в повседневную проблематику азербайджанской социально-гуманитарной мысли. Это верно и потому, что сами по себе эти вопросы относятся к числу так называемых «вечных проблем», которые изменяются, развиваются, но никогда не достигают конечной точки, как и само человеческое общество.

Женское движение, практика современных гендерных исследований напрямую связаны с современной трансформацией всего мирового сообщества. Согласно данным Всемирного банка, неуклонно растет число свидетельств, что в странах, где высока степень равенства между мужчинами и женщинами, "экономика имеет тенденцию к более быстрому росту, бедные быстрее вырываются их оков нищеты, и в целом улучшается благосостояние мужчин, женщин и детей". Многие исследования также показывают, что инвестиции в улучшение прав и возможностей женщин приносят явные дивиденды в области долгосрочной политики. В них же неоднократно признается, что повышение уровня информированности общественности по вопросам гендерной проблематики и достижение равенства полов

являются одновременно и инструментами, и конечной целью развития человеческого развития.

В последнее двадцать лет гендерная проблема актуализируется в мире, глобализирующееся человечество движется не только к осознанию идеи гендерного равенства, но и к практическому ее воплощению. Азербайджан, в силу тоталитарного прошлого отставший в этом направлении, делает первые, весьма робкие, но все же реальные шаги в достижении гендерного равенства. До настоящего времени дискуссии по вопросам развития сосредотачивались главным образом на роли женщины как матери, особенно в областях, связанных с деторождением, таких как социальная помощь и услуги, питание, образование и услуги для матери и ребенка. В то же время, нужды женщины не учитывались в других сферах, например в общепринятых планах занятости населения, политическом участии, в программах аграрной и промышленной реформы.

Именно женские организации первыми подняли проблему отсутствия целостного подхода к охране здоровья женщин и девушек на протяжении всего жизненного цикла, усугубляемым недостаточным уровнем исследований и технологии в этой области, нехваткой половозрастных данных и безопасных для пользователей показателей. Животрепещущей остается проблема насилия и траффика. По–прежнему принимаемым в этом направлении усилиям женских НПО препятствует недостаточное понимание коренных причин насилия по отношению к женщинам и неполная информация о различных видах насилия. Исторически сложившиеся и обусловленные социокультурной средой мировоззрение и система ценностей закрепляют подчиненное положение женщины в обществе. Несмотря на некоторое улучшение ситуации, работники правоохранительных органов, особенно специалисты по уголовному праву, мало занимаются этой проблемой, а профилактические мероприятия носят случайный характер

Процесс достижения гендерной симметрии является предпосылкой перехода к состоянию социального равновесия, которое является условием устойчивого развития общества и интеграции всех социальных страт. Необходимым условием формирования гражданского общества становится реальная

интеграция женщин в общество, подразумевающая преодоление неравенства, оправдываемого различием социальных функций, которые по-разному оцениваются и вознаграждаются. В стратегии национального развития Азербайджану необходимо делать больший акцент на вопросах равенства полов в процессе распределения ресурсов от всего спектра достигнутого развития. Должен быть создан национальный механизм, рассматриваемый как институциональная база и катализатор борьбы за равенство полов, ответственный за учет гендерной проблематики в основных направлениях развития. Эта структура должна способствовать усилению возможностей государства по сбору, обработке и распространению информации по признаку пола, а ее деятельность может быть поручена Государственному Комитету по женским проблемам, которому, как нам представляется, следует усилить координацию деятельности всех женских структур республики.

Нельзя отрицать, что правительство предпринимает определенные шаги по обеспечению более полного учета реалий жизни женщин в процессе планирования и принятия решений, касающихся серьезных социальных проблем нашего времени, в частности искоренения нищеты. Достигнут прогресс по вопросу признания проблемы неравенства полов, как одной из основных причин бедности, и предприняты усилия по включению пунктов о решении этой проблемы в политику и Государственную программу искоренения бедности. Плоды глобального экономического роста распределяются неравномерно не только в мировых пределах, но и даже в одной стране, в данном случае, Азербайджане, порождая все большие экономические несоответствия, небезопасные условия труда и постоянное неравенство полов в неофициальном секторе экономики и сельском хозяйстве.

Законодательно закреплено за женщинами право собственности на землю и другое имущество. Однако непризнание того факта, что женщины выполняют как репродуктивную, так и продуктивную функции, означает, что на долю женщин по-прежнему выпадает больше ответственности и обязанностей, а также неоплачиваемой работы.

Национальная политика и программы в области охраны окружающей среды делает попытку учитывать интересы и

потребности женщин. Однако общество еще недостаточно знакомо с проблемами охраны окружающей среды и не осознает, что равенство полов в решении этих проблем может принести ему благо и экономическую выгоду. Политика и программы по охране окружающей среды часто не учитывают интересов женщин, их роли и вклада в достижение природного равновесия. Правительство должно признать связь между нищетой и ухудшением окружающей среды, и принимать меры по развитию женского предпринимательства и созданию женских рабочих мест, а также по организации обучения женщин в области управления природными ресурсами.

Развитие гражданского общества и правового государства начинается прежде всего с вопросов гендерного равноправия, что актуализирует проблемы женского движения в новом ключе. Роль женщин в процессе становления и развития гражданского общества не ограничивается лишь функциональными характеристиками женщины как одного из объектов социального воздействия, необходимо превращение ее в активного агента общества, в субъекта общественного развития на основе социальной, а не естественно-биологической дифференциации. Под давлением субъектов гражданского общества и женских НПО, необходимо проводить политику позитивных действий в этом направлении, вводя системы квот и контрольные цифры, разрабатывая программы обучения для женщин-лидеров, принимая меры, облегчающие совмещение семейных и профессиональных обязанностей как для женщин, так и для мужчин. Неправительственные организации стали применять более гибкие методы в своей работе по обеспечению реализации прав женщин и борьбе за равное участие в процессе принятия решений на всех уровнях.

В последнее время все большее социально-политическое значение приобретает область информационных и коммуникационных технологий, которая между тем все еще основана на мужских представлениях и культуре Запада. Инфраструктура Интернета в нашей стране недостаточно развита, а доступ к ней ограничен и зависит от финансовых средств. Тем не менее, развитие информационных и коммуникационных технологий, особенно Интернета, расширило возможности для

общения и активизировало участие женщин в развитии гражданского общества.

Разрыв между мужчинами и женщинами в том, что касается доступа к ресурсам и их контролю, в экономических возможностях, властных правомочиях и политических голосах является широко распространенным явлением. В Азербайджане продолжает существовать разрыв между равенством де юре и де-факто. Традиционное понимание гендерных ролей ограничивает женщин в выборе профессии и карьеры, причем достаточно часто под весьма корректным предлогом нехватки финансовых ресурсов для организации обучения женщин. Число женщин, занимающих ключевые руководящие должности в республике, все еще недостаточно для оказания серьезного влияния на политику в области гендерного равноправия. Инициативы и программы, нацеленные на расширение участия женщин в принятии важных решений, проводимые НПО, требуют усилить ответственность выборных должностных лиц за содействие в достижении равенства полов и участии женщин в общественной жизни, именно женская часть третьего сектора инициирует на государственном и негосударственном уровнях широкое обсуждение вопроса о важности для общества участия женщин в принятии решений и государственном управлении. Это должно способствовать укреплению осознания необходимости коренных изменений для достижения гендерного равновесия.

Ни у кого не вызывает сомнения, что женщины могут внести весомый вклад в процесс примирения и разрешения конфликтов. Женщины Азербайджана испытали всю тяжесть армянской интервенции и оккупации. Оказавшиеся без домашнего очага и работы, потерявшие мужей и сыновей, лишенные мужской помощи и поддержки, азербайджанские женщины знают цену миру и мирной жизни. В ряде стран приняты директивы по защите женщин-беженок и одобрен закон, предоставляющий национальное гражданство. Однако серьезным препятствием к гендерному равноправию является отсутствие женщин на всех уровнях, где принимаются решения о восстановлении и поддержании мира, примирении сторон разрешения нагорно-карабахского конфликта и восстановление разрушений. Все эти проблемы показывают как плодотворность гендерного подхода в

социальной философии, так и многообразие проблем, которые еще предстоит решать азербайджанскому обществу.

**X.H.Orucov**
*f.e.n .,dosent.*

## MİLLİ ŞÜURUN FORMALAŞMASINDA DEMOKRATİK İNSTİTUTLARIN ROLU.

Müasir dünya öz inkişafında qloballaşma mərhələsinə daxil olmuşdur. Ölkələr, dövlətlər, xalqlar və millətlər arasında görünən və görünməyən sərhədlər aradan qalxaraq bəşəriyyəti bütöv bir ailəyə çevirir. Müxtəlif beynəlxalq təşkilatların, qurumların və birliklərin fəaliyyətinin əsas məqsədi qloballaşmanın vüsətini artırmaqdan, irqi, milli, dini və s. fərqlərə baxmayaraq insanlara vahid dünyanın vətəndaşları olduqlarını təlqin etməkdir ibarətdir. Lakin bununla belə bu və ya digər şəraitdə milli mənlik şüuru və özünüdərketmə müxtəlif formada təzahür edir. Məsələn, yaxınlarda Fransa və Hollandiyada Avropa birliyi Konsititusiyası ilə bağlı referenduma «yox» cavabı verilməsi buna sübut ola bilər. Bu onu göstərir ki, milli mənlik şüuru qloballaşma prosesinin tempinin əsassız olaraq sürətləndirilməsinə qarşu ləngidici amil kimi çıxış edir. Hazırda dünyada mövcud olan müstəqil dövlətlərin böyük əksəriyyəti ötən əsrin ortalarından etibarən sərbəst inkişaf yoluna qədəm qoymuşlar. Müxtəlif imperiyaların əsarətindən xilas olma sosial və milli azadlığın əldə olunması demək idi. Bəzi politoloqların fikrincə millətçilik bir sıra ölkələrin tarixində mütərəqqi rol oynamışdır. Xüsusən burjua inqilablarının ləngidiyi və milli dövlətlərin yaranması prosesi ilə üst-üstə düşdüyü ölkələrdə millətçilik psixoloji amil kimi müsbət çalar kəsb etmişdir. Məsələn, Almaniyada və İtaliyada vahid mərkəzləşdirilmiş dövlətin formalaşması xeyli dərəcədə milli müstəqillik ideyası ilə bağlıdır. Milli ideya iyirminci yüzilliyin sonunda keçmiş sovet respublikalarının müstəqillik uğrunda apardıqları mübarizənin də əsas leytmotivi oldu. Xalqımızın müstəqillik əldə etməsi milli dövlət quruculuğu üçün zəmin yaratdı.

Cəmiyyətin siyasi sisteminin formalaşmasına təsir göstərən amillər içərisində demokratik institutlar xüsusi əhəmiyyətə malikdirlər. Hələ vaxtilə Platon «Respublika» adlı fəlsəfi traktatında göstərirdi ki, demokratik institutların cəmiyyət həyatının müxtəlif sferalarına təsiri zəiflədikdə demokratiya öz yerini tiraniyaya verir. Bu isə, onun fikrincə cəmiyyətin və şəxsiyyətin tənəzzülü deməkdir.

Demokratik institutların formalaşması müxtəlif xalqlarda, millətlərdə, ölkələrdə və dövlətlərdə müxtəlif tarixi zaman çərçivəsində baş vermişdir. Bunun isə bir sıra səbəbləri vardır. Avropanın kontinental hissəsində yerləşən ölkələrin əksəriyyəti (Hollandiya istisna olmaqla) burjua münasibətlərinin inkişafı baxımından xeyli qabağa getmiş olan Britaniya və ABŞ-a çatmaq üçün xeyli səy göstərməyə məcbur olmuşlar. Bu model hətta Almaniya, Avstriya və İtaliya üçün də səciyyəvidir. Bu isə öz növbəsində demokratiya və millət anlayışları arasındakı nisbətin müəyyən edilməsində müəyyən iz qoymuşdur. Məsələn, Britaniyada demokratiyanın təşəkkülü milli özünəuyğunluq probleminin həllindən sonra baş vermişdir. Buna görə də burada digər Avropa ölkələrindən fərqli olaraq inkişaf milli amildən daha az dərəcədə asılı olmuşdur. Əksinə, demokratik institutların Britaniyada daha tez formalaşması son nəticədə onun imperiya kimi təşəkkülünə gətirib çıxardı. Yalnız bu ölkəyə xas olan müəyyən kosmopoitizm və bunun başqa xalqlara bəzən hətta zor gücünə təlqin edilməsi millətçilik və milli azadlıq hərəkatlarını pisləyən ənənələrin meydan gəlməsinə səbəb oldu. Bu ənənələr ingilis elmi ədəbiyyatında bu gün də özünü büruzə verir. Mərkəzi və Şərqi Avropa ölkələrinin siyasətində və mədəniyyətində milli ideya tamamilə fərqli rol oynamışdır. Hegelin arzusunda olduğu «xalq ruhunun dövlətdə təzahür etməsi» ideyası Almaniyada XIX yüzilliyin ikinci yarısında həyata keçdi. Demokratiyanın, başqa sözlə desək «xalq ruhunun» dövlətdə təzahür etməsi mücərrəd məkanda deyil, konkret ərazidə, konkret xalıqn tarixində baş verir. Burada milli özünüdərketmənin müxtəlif pillələrində olan, öz milli dövlətini yaratmağa hələ hazır olmayan xalqların mənafeləri nəzərə alınmayaraq tapdalanır. Deməli, milli dövlətlərin təşəkkülü prosesi müxtəlif millətlərin qarışıq şəkildə yaşadıqları ərazilərin «ədalətli» bölgüsü üçün müəyyən meyarların axtarılması

problemi ilə qarşılaşır. Təssüflə qeyd etmək laxımdır ki, əksər hallarda bu meyar rolunda demokratik vasitələr deyil, hərbi güc çıxış edir. Bu da öz növbəsində həm müəyyən dövlətin daxilində, həm də ayrı-ayrı dövlətlər arasında millətarası münaqişələrə gətirib çıxardığı üçün bir tərəfdən demokratik institutların inkişafına və möhkəmlənməsinə mənfi təsir göstərir, digər tərəfdən isə milli ideya anlayışının özünü gözdən salır.

Demokratiyadan fərqli olaraq millətçilik ambivalent xarakter daşıyır. Çünki söhbət başqa milli mədəniyytlərin qanuni mənafelərinə toxunan milli ideyadan gedirsə o, mütərəqqi xarakter daşıya bilməz. Buna misal olaraq «Böyük Ermənistan» yaradılması ideyasını göstərmək olar. Özünün demək olar ki, bütün qonşularına – Türkiyəyə, Azərbaycana və Gürcüstana qarşı ərazi iddiaları ilə çıxış edən erməni ideoloqları hər cür vasitələrə əl ataraq tarixi həqiqətlərin təhrif olunması üçün böyük canfəşanlıq göstərirlər. Bu cür siyastəin demokratik prinsiplərə heç bir əlaqəsi yoxdur və onu yalnız millətlər arası münasibətlərdə münaqişələrə aparan siyasət kimi qiymətləndirmək olar. Bəzən isə belə olur ki, böyük cətinliklə milli müstəqillik əldə edən xalq onun dövlətinin ərazisində yaşayan azsaylı xalqların mənafelərini tapdalamağa başlayır. Buna misal olaraq ötən yüzilliyin 70- 90-ci illərində bolqar rəhbərliyinin türk milli azlığına qarşı, Rumıniyada Çauşeski rejiminin isə macar milli azlığına qarşı yürütdüyü antidemokratik siyasəti göstərmək olar. Görünür bu onunla bağlıdır ki, hakim elitaya digər məsələlərdə olduğu kimi, milli siyasətdə də demokratik siyasət yürüdülməsi sərf etmir. Bundan əlavə, hələ demokratik sərvətlərin norma halına düşmədiyi ölkələrdə xalqın müəyyən hissəsi milli məsələdə demokratik yanaşmanı qəbul etməyə hazır deyildir. Xüsusən keçmiş sosialist düşərgəsindən xilas olaraq milli dövlət yaratmağa nail olmuş xalqlara bunu daha çox şamil etmək mümkündür. Hətta bəzi politoloqların fikrincə yalnız milli dövlət quruluşu əldə etdikdən sonra bəzi xalqlarda milli özünüdərketmə, milli mənlik şüurunun oyanışı baş verir. Bunu belorus xalqının timsalında daha aydın şəkildə müşahidə etmək olar. Uzun illər ərzində özünü demək olar ki, ruslarla eyni millət hesab edən beloruslar SSRİ-nin dağılması nəticəsində müstəqil dövlət qurumu əldə etdilər. Bu amil milli mənlik şüurunun oyanışı üçün

təkan rolunu oynadı. Lakin demokratik institutların hələ təşəkkül tapmaması milli özünüdərketmənin sonrakı inkişafı üçün maneçilik törətdi. Bu isə özünü aşağıdakı iki aspektdə büruzə verdi. Əvvəla, hakimiyyət uzun müddətdir ki, antidemokratik rejimin əlindədir. İkincisi isə milli dövlət qurumundan imtina edilərək Rusiya ilə vahid ittifaq dövlətində birləşmə uğrunda ciddi addımlar atılmaqda davam edilir.

Məlumdur ki, müasir dövlətlərin böyük əksəriyyəti çoxmillətli xarakter daşıyır. Buna görə də bəzi populist siyastçilərin millətin adı ilə, dillə və s. bağlı düşünülməmiş çıxışları demokratiyanın pozulmasına, digər milli azlıqların heysiyyatına toxunulmasına və son nəticədə millətlərarası münaqişələrin yaranmasına gətirib çıxarır. Məsələn, ölkəmiz müstəqillik əldə etdikdən sonra bütövlükdə xalqın və dilin adı ilə bağlı aparılan polemikialar cəmiyyətdə mənəvi mühitin gərginləşməsinə doğru meyl yaradırdı. Bununla bağlı dəfələrlə çıxışlar edən mərhum prezident H.Əliyev problemin həllinin düzgün məcraya yönəldilməisnə nail oldu. Nəticədə, bir tərəfdən ölkə daxilində müxtəlif xalqların nümayəndələri eyni sosail, iqtisadi və siyasi status əldə etdilər, digər tərəfdən isə demokratik institutların təşəkkülü yolunda irəliyə doğru mühüm addım atılmış oldu. Çox qısa zaman çərçivəisndə hakimiyyətin müxtəlif qollarının demokratik şəkildə formalaşması prosesi baş verdi.

Göründüyü kimi, milli mənlik şüurunun oyanışı, milli özünüdərketmənin dərinləşməsi müxtəlif amillərin, proseslərin və hadisələrin bilavasitə təsiri nəticəsində baş verir. Bu amillər içərisində ən mühümi isə demokratik institutların inkişafı sayəsində yaranan sosial-siyasi mühitdir. Cəmiyyət nə qədər demokratik xarakter daşıyırsa insanlar öz təbii və mənəvi hüquqlarını bir o qədər dolğun şəkildə təmin etmək imkanı əldə edirlər.

**AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun 22 iyun 2005-ci il tarixdə keçirilmiş «Qender. Demokratiya. Sülh mədəniyyəti. Təhsil" elmi-praktiki konfransının**

## QƏRAR LAYİHƏSİ

Biz, kofrans iştirakçıları, respublikada qender və sülh mədəniyyətinin inkişafı üçün aşagıdakı təklif və tövsiyələri irəli sürürük:

- İctimaiyyətin və dövlət orqanlarının qender probleminə, qender bərabərliyinə diqqətini artırmaqla qender üzrə təbliğat, maarifləndirmə və təhsil işini yaxşılaşdırmaq, qenderlə bağlı elmi-tədqiqat və metodik işin səviyyəsini yüksəltmək, respublikanın bütün təhsil ocaqlarında qender təhsil kurslarına başlanılması;
- Təhsil Nazirliyinin öz işində BMT-nin 24 dekabr 1960-cı il tarixli «Təhsildə hər cür ayrı-seçkiliyin ləğvi haqda» Konvensiyasının müddəalarını əsas tutması;
- Qender metodik tədris proqramlarının ekspertizasını keçirəcək Ekspertlər Komissiyasının yaradılması. Ekspertiza nəticələrinə əsasən qender dərsliklərinin nəşr edilməsi. Qender tədqiqatları və tədrisi üzrə əsas istiqamətlərin hazırlanmasının bu komissiyaya həvalə olunması;
- Qender, sülh mədəniyyəti və tolerantlıq kursunun birgə tədrisinə yönəlmiş proqram və dərsliklər hazırlanması;
- Əhali arasında yaymaq üçün dünyada və Azərbaycanda qender tarixi və problemləri ilə bağlı populyar nəşrlərin hazırlanması;
- Dövlət və ictimaiyyətin birgə işini təşkil etməklə uşaqlarda qender həssaslığının formalaşma prosesini ailə və uşaq bağçasından başlamaq; Uşaqların qender problemləriylə tanışlığının orta məktəb təhsili vasitəsilə gerçəkləşdirilməsi;
- Ali təhsil sistemində referat, kurs işi, diplom və dissertasiyalara qender problemləri və qadın məsələsi ilə bağlı mövzuların verilməsi;
- Qender problemi və ictimaiyyətin bu sahə ilə bağlı rəyini öyrənmək məqsədilə xüsusi statistika, sosioloji tədqiqat və anketləşdirmə mərkəzinin açılması;

- Qadın Problemləri üzrə Dövlət Komitəsi nəzdində qender sahəsində çox istiqamətli problemləri araşdıracaq «Qender Elmi Tədqiqat Mərkəzi»nin yaradılması;

- Azərbaycan regionları üzrə «Qender problemləri xəritəsi»nin hazırlanması;

- Respublikanın orta və ali təhsil müəssisələri müəllimləri üçün qender üzrə sistemli öyrədici treninqlərin keçirilməsi;

- Hər il qender problemləri üzrə respublika Konfransının təşkili və keçirilməsi;

- Milli Məclisin qəbul etdiyi hər bir qanunun qender ekspertizasının keçirilməsi; MM nəzdində Ombudsmanın dəstəyi ilə belə bir ekspert qrupu yaratmaq (Qrupun tərkibi Qender Problemləri üzrə Respublika İctimai Koordinasiya Şurası tərəfindən müəyyənləşdrilə bilər);

- Milli Məclisin İnsan Hüquqları Daimi Komissiyası və Ombudsman bu ekspert qrupu ilə birgə işini təşkil etmək;

- Qender maarifi sahəsində dövlət qurumlarının – Milli Məclis Komissiyaları, Təhsil Nazirliyi və Qadın Problemləri üzrə Dövlət Komitəsinin, ali məktəblər və qeyri-hökumət təşkilatlarının səylərini birləşdirərək Respublika Fəaliyyət Proqramını hazırlamaq.

- Dövlət, cəmiyyət və KİV nümayəndələrinin birgə səyilə uzunmüddətli Milli Konsepsiya və qender inkişafı, cəmiyyət həyatının bütün sferalarında qərar qəbulu prosesində qadınların rolunu gücləndirməyə, qanunverici və icraedici hakimiyyət strukturlarında qadınların sayının keyfiyyət və kəmiyyətcə yüksəlməsinə yönəlmiş Respublika Fəaliyyət Proqramı hazırlamaq. Konsepsiya və proqramların respublikada, xüsusən də onun regionlarında həyata keçirilməsinə yardım etmək.